2 AZN

№3(35), 2007

ƏDƏBİ, FƏNNİ, SİYASİ, İCTİMAİ, MÜSƏVVƏR, HƏFTƏLİK
TÜRKCƏ MƏCMUƏYİ - İSLAMİYYƏDİR

# Füyuzat

*Vətən (Azərbaycan) sevgisi yurdumun dağlarında, obalarında, meşələrində gəzən hər bir çobanın, əkinçinin, odunçunun... alın təri ilə çörəyini qazanan hər bir kasıbın, hər bir kürəkçinin, kürəkçi oğlunun qəlbində gizlənən atəşdir.*

*Əli bəy Hüseynzadə*

8/05) 16988
Füyuzat
7/53
905

*Sən mənə yar ol ki, könlüm bir dəxi yar istəməz,*
*Könlümün dildari sənsən, özgə dildar istəməz.*

*Nəsimi*

# İçindəkilər


5

Elçin Bilaloğlu
TÜRK DÜNYASININ MƏRKƏZİ: BAKI SƏADƏT ŞƏHƏRİ

10

Əli bəy Hüseynzadə
KAİNATIN FƏXRİNİN MÖVLUDU

14

Firudin Ağasıoğlu
TÜRKLƏRİN ATAYURDU RƏNGLƏRİN "DİLİNDƏ"

32

Abdullah Gənc
DUYĞULARIN SULTANI

34

Teymur Əhmədov
HUMANİST İDEYALAR CARÇISI SEYİD MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR

42

Babək Tatlıyev
AMARANT

| | | |
|---|---|---|
| BAŞ REDAKTORDAN | 3 | *Teymur Əhmədov* |
| MİLLƏTLƏRİN YAŞAMASI NƏ İLƏ MÜMKÜNDÜR? | 8 | *Həsən Səbri* |
| BAHAR BAYRAMI | 18 | *Məhərrəm Qasımlı* |
| XX əsri tarixi – AZƏRBAYCAN Q'ADINININ TALEYİNDƏ | 24 | *Elmira Qasımova* |
| MİLLİ MƏDƏNİYYƏTİMİZİN BÖYÜK ABİDƏSİ | 26 | *Ofeliya Bayramlı* |
| 1918-Cİ İL: TÜRK ORDUSU AZƏRBAYCANDA | 46 | *Lətifə Məmmədova, Gülağa Cəbrayılov* |
| Beyin qrupunun ortaya qoyduğu təhlükə – ATOM BOMBASI | 48 | *Elşad Abdullayev* |
| MÖVLUDİ-FƏXRİ-ALƏM | 50 | *Məhəmməd Hadi Şirvani* |
| BİR NƏĞMƏ | 51 | *Əli bəy Hüseynzadə* |
| GÖY CİSMLƏRİ | 52 | *Samir Rzasoy* |
| 1918-Cİ İL MART FACİƏSİ | 56 | *Vüsal Hicranoğlu* |
| BİLİRDİM GƏLƏCƏKSƏN | 59 | *Şükran Umud* |
| İQTİSADİ İNKİŞAF HAQQINDA MÜLAHİZƏLƏR | 60 | *Seymur Şəmiyev* |
| TAR | 64 | *Mikayıl Müşfiq* |


16988
M.F.Axundov adına Azərbaycan Milli

# Füyuzat

№ 3(35), 2007 (1906–1907)

**Təsisçi** "Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar" Fondu
**Baş redaktor** Teymur Əhmədov
**Redaktor** Elçin Bilaloğlu
**Məsul katib** Mübariz Yunusov
**Şöbə müdiri** Samir Ramizoğlu
**Redaksiya heyəti** Cəmil Quliyev
Tofiq Köçərli
Allahşükür Paşazadə
Bəxtiyar Vahabzadə
Ağamusa Axundov
Fuad Qasımzadə
İsmail Allahverdi
Yusif Rüstəmov
Sevda Məmmədəliyeva
Şirməmməd Hüseynov
Cahangir Məmmədov
Əlirza Qafarlı
Ağa Hacıbəyli
Qürbət Gümüşov
Muxtar Cəfərli
**Dizayner** Fəxri Vəliyev
**Korrektor** Suğra Osmanova
**E-poçt** fuyuzat2007@e-mail.ru
**VÖEN** 1300563641
**Tiraj** 500
**Ünvan** Bakı şəhəri, AZ-1122, H.Zərdabi pr., 78
**Telefon** (+994 12) 4332297
(+994 50) 7223334
**Faks:** (+994 12) 4332294

Jurnal Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.
Qeydiyyat №1303

**Dərc olunan yazılar müəlliflərin mövqeyini əks etdirir**
**Əlyazmalar geri qaytarılmır**

**"Füyuzat" jurnalına**
**abunə olmaq istəyənlər üçün:**
6 aylıq – 10 AZN
12 aylıq – 18 AZN

**"NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur**


# baş redaktordan

***Professor TEYMUR ƏHMƏDOV***



Azərbaycanda müstəqilliyin bərpası, qədimdən əcdadlarımızın həsrətini çəkdiyi azadlıq böyük Tanrının xalqımıza bəxş etdiyi xoşbəxtlikdir: Müstəqil Azərbaycan üzərində üç rəngli bayraq dalğalanır. Ölkəmizdə iqtisadi potensial gündən-günə güclənir, beynəlxalq aləmlə sıx münasibətlər yaranır.

Ayrı-ayrı dünya ölkələrində 50-dən artıq səfirliyimiz mövcuddur. Bakı–Tbilisi–Ceyhan və Bakı Tbilisi–Ərzurum neft və qaz kəmərlərinin inşası, Şahdəniz yatağının kəşfi, Bakı–Tbilisi–Qars dəmir yolunun tikilməsi və bir sıra görülən tədbirlər Odlar Yurdunun qısa tarixi zamanda sürətli yüksəlişini sübut edir.

Bu gün hər bir vətəndaşın borcu müstəqilliyimizi göz bəbəyi kimi qorumaqdır. Biz istəyirik ki, xalqımız firavan yaşasın, sülh, əmin-amanlıq bərqərar olsun, qonşu ölkələrlə işgüzar əlaqələrimiz yaransın. Əgər birlik olmasa, çətin ki, maraqlarımızı istənilən səviyyədə təmin edək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda söylədiyi nitqində demişdir: "Müstəqilliyimizin ilk illərində Azərbaycanın dəstəyə çox böyük ehtiyacı vardı və biz onu yalnız Türkiyədən aldıq.

...Bu qarşılıqlı qardaşlıq münasibətləri, qarşılıqlı maraq əsasında, dərin tarixi köklər əsasında qurulmuş münasibətlər artıq beynəlxalq siyasətin amilinə çevrilibdir. Biz nə qədər güclü olsaq, aramızda nə qədər möhkəm birlik olsa, maraqlarımızı da bir o qədər təmin edəcəyik".

Ulu öndər Heydər Əliyev xarici ölkələrdə dağınıq halda, birlikdən, təəssübkeşlikdən uzaq mühacirləri – əksəriyyəti yaşadıqları ölkələrin vətəndaşları olsa belə, azərbaycanlı olduqlarına görə birləşməsini, bütün cəhətlərdən birgə fəaliyyət göstərməsini arzu edirdi.

Məhz bu məqsədlə 2002-ci ildə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı ki, xarici ölkələrdə yaşayan həmvətənlərimizin diaspor təşkilatları ətrafında birləşsin. 2001-ci ildə və 2006-cı ildə Bakıda keçirilən dünya azərbaycanlılarının qurultaylarının müsbət nəticəsində təşkilatlanma prosesi sürətləndi, xarici ölkələrdə güclənməkdə olan diasporlar Azərbaycanla sıx əlaqə saxlamağa, beynəlxalq məsələlərdə vahid mövqedən çıxış etməyə başladılar.

2007-ci ilin mart ayının 9-da Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda 48 ölkədən 513 nümayəndə xaricdə yaşayan soydaşlarımızın fəallığı, sıx birliyi və vətəndaşlıq mövqeyi gələcəyə dərin inam oyatdı.

Bu ali forum bütün türkdilli xalqların diaspor təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsini, sosial-mədəni, ictimai-siyasi əlaqələrin daha da möhkəmlənməsi ilə sıx bağlı məsələləri müzakirə etdi. Türk dünyasının iki böyük lideri – Mustafa Kamal Atatürk və Heydər Əliyev yüz illərdən bəri arzu olunan bu ideyanın XX əsrdə reallaşması istiqamətində konkret əməli tədbirlərin təməlini qoydular. Bu ali məclis Mustafa Kamal Atatürkün: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". Heydər Əliyevin isə: "Biz bir millət, iki dövlətik" müdrik sözlərinin əyani sübutu oldu.

**Zaman hər bir vətəndaşdan – istər kişi, istər qadın olsun, tələb edir ki, ölkə daxilində və ya xaricdə həmvətənləri ilə həmrəy olsun. Məsud və xoşbəxt həyat naminə Azərbaycanı bütün qüdrətli bir ölkə kimi tanıtmaq üçün birləşsin.**

# TÜRK dünyasının mərkəzi: BAKI səadət şəhəri

*Elçin Bilaloğlu*

I Forumda Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan yığıncağın tarixi əhəmiyyəti barədə dedi: "Bu gün iştirak etdiyimiz bu forumun sayəsində isə dünyanın müxtəlif ölkələrində yaşayan eyni millətin övladları həmrəylik ruhu ilə bir araya gəlmiş və fəaliyyətlərində bir-birilərinə dəstək olmaq yolunda böyük bir addım atmışlar. Zamanımız həmrəylik, əməkdaşlıq dövrüdür. Orta dəyərlərimizin tanıdılmasında, iqtisadi, siyasi potensiallarımızın aşkara çıxarılmasında, millətimizə qarşı yönəldilmiş haqsızlıqların və iftiraların aradan çıxarılması işində xalqımızın üzərinə böyük vəzifələr düşür".

Çox çəkməz ki, dünyanın hansı ölkəsində yaşayır-yaşasın – uzaq və yaxın, hər bir azərbaycanlı misli görünməmiş birlik və həmrəylik nümayiş etdirəcək, qeyrət və təəssübkeşliyi ilə, istəklə öz əməli fəaliyyətində doğma vətənin şan-şöhrətini dünyada nümayiş etdirəcək, qara qüvvələrə qarşı birgə mübarizə aparacaqlar. Vətən torpağı öz övladlarından, vətəndaşlarından bunu gözləyir.

Birlik, mənəvi bağlılıq olmadan yalquzaq kimi ömür sürmək, özünü kənara çəkib qəriblikdə tək-tənha yaşamaq bədbəxtçilik deyilmi?!

Doğma ana vətəni, ata-baba yurdunu qəlbində yaşatmadan, həsrətini çəkmədən, onunla fəxr etmədən ki, sənin də müqəddəs torpağın, ümid yerin, ocağın var, bu dünyada necə yaşamaq olar?!

Məlum olduğu kimi, Birlik ideyası klassik yazıçıların yaradıcılığında geniş təbliğ olunmuşdur. Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Əlibəy Hüseynzadə və b. xalqı cəhalət, dini fanatizm və gerilik girdabından xilas etmək, onların şüurunda ciddi dönüş yaratmaq üçün maarifçiliyi nicat yolu kimi təbliğ etsələr də, hər şeydən əvvəl həmrəyliyin, birliyin olmasını vacib sayırdılar. Onsuz ümumxalq işində uğur qazanmağı, məqsədə çatmağı qeyri-mümkün hesab edirdilər. Əlibəy Hüseynzadə yazırdı ki, vəhdətin mənası hər bir fərdin öz həmcinslərini hansı məzhəbdə olursa-olsunlar, hamısına hörmət edib hamısını qardaş bilməkdir... Vəhdətin mənası ictimai işlərdə xalqın mənafeyi uğrunda əl birliyi ilə iş görməkdir".

N.Nərimanov XX əsrin əvvəllərində qeyrətli ziyalıların "böyük bir ittifaq edib" millətə xidmətini xalq arasında hümmət, həmiyyət və qeyrət hissi oyatdığına görə təqdir edirdi. O deyirdi: "...Bir millət özünü tanımayınca hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat" lazımdır. Bunlar da təəssübkeşlik, həmrəylik, Birlik olmadan mümkün deyildir. N.Nərimanov yazdığı dərslikdə el arasında eşitdiyi bir hekayəti oxucuların nəzərinə çatdırmaqla birliyin gücünü nümayiş etdirir. Orada deyilir ki, ixtiyar bir qoca yeddi oğluna yenilməz və güclü olmağı vəsiyyət edir. Onları çağırıb hərəsinə bir nazik çubuq verib deyir: "Bu çubuqları sındıra bilərsinizmi?" Oğlanlar təəccüblənsə də nazik çubuqları dərhal sındırırlar. Sonra qoca yeddi çubuğun bir dəstini oğlanlarına verib deyir: "İndi gücünüzü sınayın görüm, kim onu sındıra bilər". Oğlanların hər biri ayrı-ayrılıqda gücünü sınayırsa, heç kəs bir-birinə sıx bağlı nazik çubuqların dəstini sındıra bilmir.

"Balalarım, aranızda sıx birlik olsa – deyə qoca dillənir – heç kəs sizi sındıra bilməz. Birləşin, bir-birinizə dayaq olun".

Zaman hər bir vətəndaşdan – istər kişi, istər qadın olsun, tələb edir ki, ölkə daxilində və ya xaricdə həmvətənləri ilə həmrəy olsun. Məsud və xoşbəxt həyat naminə Azərbaycanı bütün qüdrətli bir ölkə kimi tanıtmaq üçün birləşsin.

Gəlin, Vətən övladları, can bir olaq, birləşək, müstəqil Azərbaycanı bütün dünyada tanıdaq. Əgər güclü olmasaq təklənərik, haqqımız tapdanar. Necə ki, soydaşlarımızın taleyinə, ümumxalq işinə laqeydlik ucbatından kəmfürsət düşmənlərimiz qəsdimizə durmuş, başımız çox bəlalar çəkmişdir. İndi ayıq-sayıq olmalıyıq.

Zaman Azərbaycanın xeyrinə işləyir. Ölkəmizin – Azərbaycanın hərtərəfli inkişafı göz qabağındadır. Onun bu günü və sabahı naminə birləşməliyik: Ölkə daxilində və dünyada qəlbi ana torpağın qeyrətini çəkən hər bir Azərbaycan vətəndaşı birləşməlidir.





Ötən əsrin ilk illərində türk ruhunun dirçəldilməsi və böyük Türk birliyinin yaradılması üçün böyük bir canlanma baş qaldırmışdı. Amma elə ötən əsrin əvvəllərində baş verən birinci dünya müharibəsi Türk birliyinin yaradılmasına böyük əngəl oldu. Ayrı-ayrı fikir adamlarının irəli sürdüyü "dildə, dində və əməldə birlik", "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyaları isə elə beşikdəcə boğuldu. Doğrudur, bu ideyalar Atatürk Türkiyəsində özünü qismən doğrultsa da, Azərbaycan, Orta Asiya və dünyanın digər qütblərinə pərən-pərən salınmış türk xalqları bir zamanlar aydınlarımızı narahat edən birlik ideyasından uzaq düşmüş oldular. Nə yaxşı ki, xalqlar həbsxanası olan Sovet İttifaqı dağıldıqdan sonra Türk dünyası bir araya gəlməyi bacardı.

"Dildə, dində və əməldə birlik". Əli bəy Hüseynzadənin, Ziya Göyalpın XX əsrin əvvəllərində irəli sürdüyü və bir zamanlar Türk dünyası aydınları üçün əsas ideya mənbəyi olan bu fikirlər artıq gerçəkliyə çevrilir. İdeyanı Azərbaycanda doğulub boya-başa çatmış, amma istəklərinə öz məmləkətində çatmamış Əli bəy Hüseynzadə irəli sürmüşdüsə, bunun gerçəkliyə çevrilməsini, o zaman müstəqil olmayan hazırda isə 15 ildən artıqdır ki, müstəqilliyini qazanmış, müstəqil Azərbaycanın prezidenti İlham Heydər oğlu Əliyev gerçəkləşdirir. Onun bu təşəbbüsü isə hansı cəbhədə və hər hansı türk dövlətində yaşamasından asılı olmayaraq özünü millətsevər adlandıran hər bir türk oğlu tərəfindən dəstəklənməlidir. Azərbaycan prezidentinin təşəbbüsü xüsusi olaraq ziyalılar tərəfindən müdafiə olunmalıdır və qeyri-hökumət təşkilatlarının fəaliyyətində bu yöndə yeni istiqamətlər müəyyənləşdirilməlidir.

9 mart 2007-ci il. Bakı şəhəri. "Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumu". Foruma qatılan insanların siyahısına diqqət yetirdikdə keçirilən tədbirin əhəmiyyətini bir daha görmək mümkündür. Azərbaycan Respublikasının prezidenti, Türkiyə Cümhuriyyətinin baş naziri, Kipr Türklərinin lideri, digər türk dövlətlərinin nazirləri, İraq türkmənlərinin nümayəndələri və Türkə sayğısı olan bir çox ölkələrin nazirləri və ziyalıları. Çıxışlar bütövlükdə türk birliyindən və bədxahlarımızın bizlərə yönəlmiş ittihamlarına necə cavab verilməsindən və diasporlarımızın fəaliyyətinin əlaqələndirilməsi üzərində qurulmuşdu. Eyni zamanda, diasporların fəaliyyətinin gücləndirilməsi üçün Türk dövlətlərinin üzərinə düşən missiya isə dövlət olaraq vətəndaşını xaricdə rahat yaşamasını təmin etməkdir. Fikrimizcə, bu ideyanın gerçəkləşməsi üçün Türk dövlətlərinin birgə dəstəyi ilə ilk növbədə bir televiziya kanalının yaradılmasına və bir neçə qəzet-jurnalın nəşrinə ehtiyac var. Bu ideyanı gerçəkləşdirməyə isə 7 türk dövlətinin maddi imkanları çatar. İndiyə qədər yalnız Türkiyə dövləti tərəfindən türklərin kompakt yaşadığı ərazilərdə gerçəkləşdirilən orta məktəblərin fəaliyyətini isə ümumtürk kontekstində formalaşdırmaq daha maraqlı olar. Bunun üçün ortaq türk tarixi, ədəbiyyatı proqramlarının hazırlanmasına ehtiyac var. Bir məqam xüsusi olaraq diqqəti çəkir ki, bu da ortaq dil məsələsidir. XX əsrin 90-cı illərində bu barədə ara-sıra fikirlər səslənsə də sonradan nədənsə unuduldu. Belə qənaətdəyik ki, hazırkı dövrdə bu məsələyə yenidən qayıdaraq telekanal və qəzet-jurnal yaratmaqla ortaq ədəbi dilimizi də formalaşdıra bilərik. Bundan ötrü isə bütövlükdə şəxsi mövqeydən imtina edib ümumtürk təşəbbüskarlığı göstərmək lazımdır.

Qeyd etmək lazımdır ki, son ay ərzində harada yaşamasından asılı olmayaraq bütün türk etnoslarının problemləri Bakıda müzakirə obyektinə çevrilir. Bu müzakirələrin sonunda isə yalnız və yalnız türk toplumları qazanacaqlar. Çünki uzun illərdir bir-birindən uzaq düşmüş insanlar həm düşüncə tərzi ilə bir-birlərinə yaxınlaşır, həm də çətin anlaşılan sözlərin yeni sinonimləri meydana gəlir. Anadolu türkləri Azərbaycana ata yurdu deyirlər. Bu deyim də artıq özünü doğrultmaqdadır. Ata yurddan gedənlər məhz ata yurdlarına yenidən birləşirlər və dünya ictimaiyyətinə yeni türk toplumu təqdim olunur. Ata yurdun paytaxtı Bakı şəhəri isə türk dünyasının mərkəzinə çevrilir. Bu məqamda Qırğızıstan Respublikası Prezidentinin müşaviri Bolodtbek Şəmiliyevin forumdakı çıxışından bir fikrə diqqət yönəltmək istərdik: "...35 ildir Bakıda olmamışam, buraya ilk dəfə 1972-ci ildə gəlmişəm. Bilirsinizmi, yeni bir şəhər gördüm, yeni millət gördüm. Ən böyük uğurlar, yer üzərində olan ən böyük səadət arzulamaq istərdim, çünki Bakı qədim türk dilindən tərcümədə səadət şəhəri deməkdir". Deməli Bakı Türk dünyasını səadətə qovuşduracaq bir mərkəzə çevrilə bilər. Bunun üçün bütün türk dünyasının fəaliyyət göstərməsi zəruridir. Bu zərurətin gerçəkliyə çevrilməsi üçün gəncliyin üzərinə daha böyük bir yük düşür ki, bu işdə hər birimizə uğurlar arzulayırıq.



# Millətlərin yaşaması nə ilə mümkündür?

**Həsən Səbri**

Keçən zamanlarda bir neçə maarifçi yoldaş ilə yaxşı dostlardan olan çox hörmətli bir şəxsin evində idim. Zəruri maddi ehtiyacımız olan yemək və filandan sonra qəzet və jurnallar oxundu. Rusiyanın hazırkı siyasi vəziyyətindən və milli iqtisadiyyatımızdan bəhslər açıldı.

Get-gedə mövzu qövm və millətlərin tarixlərinin ortaya çıxmaları, tərəqqi etmələri, onların batmaları və yox olub getmələrinə çevrildi. Millətlərin yaşaması haqqında böyük mübahisə və fikir ayrılığı oldu. Bu xüsusda məclis fərdlərindən hər biri öz xüsusi fikri olaraq məclisin əksəriyyəti: "Bir qövm, bir millət nə qədər tərəqqi etsə və mədəniləşsə, nə qədər şan və şöhrət əldə etsə, aqibəti yenə məhv və yox olmaqdır" fikrinə tabe oldular.

Onun üçündə bu fikrin doğru və düzgün olduğuna dəlil olaraq bəzi millətlərin, qövmlərin tam inkişaf mərhələsinə çıxıb, şan-şöhrət və böyüklükləri ilə yox olub getdiklərini irəli sürdülər və Roma mədəniyyətini buna misal göstərdilər!..

Mən isə dostlarımın bu fikrinə şərik deyildim və olmayacağamda... Mənim şərik olmamağımı onlar inadkarlıq kimi hökm etsələr də, mən inadkar deyiləm. Lakin həqiqi olan bir məsələ üçün bəlkə də inadkarlıq edərəm.

Romalıların və s. yox olub getmiş millətlərin süqutları təbii qanunauyğunluq olmayıb, bəlkədə ictimai həyatlarını qoruyub və davam etməsinə xidmət edən maddi və mənəvi gücə malik olmadıqlarından irəli gəlmişdir.

Məlum olduğu kimi, romalılar şan-şöhrətli ölkələri fəth edən bir dövlət idilər. Bu cahangirlikləri qənimət sərvəti ilə əldə edilən qüvvət üzərində təsis edilmişdir. Romalılar o zamanlarda dünya idarəçiliyini tamamilə öz hakimiyyətləri altına keçirib, bütün dünyanın sərvətini öz məmləkətlərinə gətirmişdilərsə də, Romanın gələcəyi ilə birgə sərvət və mal-mülklər də çəkilib getmişdir. Çünki güc ilə əldə edilən bir gələcək, bir mədəniyyət nə qədər parlaq olsa da, onu məğlub edəcək digər bir qalib güclə məhv olacağı təbiidir. Ölkələri fəth edən millətlərin qənimət sərvəti üzərində qurulduğu maddi həyat qüvvələri daimi olmadığı kimi, hərbi, əsgəri qüvvələr də itib gedər.



Daimi olacaq ictimai həyat, maddi həyat ərkanından sayılan ticarət, sənət, kənd təsərrüfatı, xidmət sayəsində cəm olunub qurulan həyati qüvvədir ki, belə bir gücə sahib olan millət, ictimai həyatının şanını, böyüklüyünü itirsə də, milli sərvətini qoruyub saxlaya bilər.

Yoldaşlarımın fikri ilə şərik olmamağımın səbəbini ətraflı yazım ki, hörmətli oxucularım da bizi mühakimə etsinlər!

Bir millətin, bir qövmün həyatı o qövmü təşkil edən fərdlərin həyatı kimi deyildir. Hər nə qədər bu fani dünyada adəm oğlunun yoxdan var olub dünyaya gəlməsi, tədricən kamilliyə çatması və nəhayət yenə yox olub getməsi bir təbii qanun, bir Ilahi qanunauyğunluqdursa da, bir qövmün birdən ortaya çıxıb kamillik həddinə çatdıqdan sonra yox olub getməsi təbii qanunauyğunluq deyildir, zənn edirəm.

Bəli, millətlərin fərdlərdən təşkil olduğu və fərdlərin həyatlarının da məhdud olduğu nəzərə alınarsa, bir millətin həyatının da bir həddi, sonu və yox olub getməsi lazım oldugu kimi bir müqayisə edilərsə də, bu müqayisə doğru və düzgün deyildir. Çünki bir milləti təşkil edən fərdlərin yox olması ilə millət əskilərsə, doğulması ilə də o millət artır. Bəzən müharibədə və yaxud yoluxucu və həlakedici xəstəliklərin (taun, xolera kimi) meydana çıxması ilə ölənlər artır, bəzən də bəzi xoş olmayan səbəblərə görə dünyaya gəlmələr əskilir. Lakin bunlar, yəni bu yoluxucu və həlakedici xəstəliklər hər nə qədər ortadan qaldırılması vacib olan əlamətlərdən isə də, vacib olma səbəblərinin dəf edilməsinə çalışılırsada, o millətin həyatını yenə keçmiş halına gətirmək mümkündür. Bu halda qeyd edilən əlamətlər təsadüfi hesab edilə bilər. Onsuzda qeyd olunan afətlər çox nadir hallarda baş verir. Hələ sağlamlığın qorunmasına riayət edilən və təbabətin layiqi ilə nüfuz etdiyi məmləkətlərdə bu afətlər yox dərəcəsindədir...

Buna görə də əmin-amanlıq içində yaşayan millətlərdə müşahidə olunan əhali sayının artmasına baxılarsa, millətin fərdlərinin əksilməkdən çox, artmağa hazır və meyilli olması ortaya çıxır.

Madam ki, belədir, belə olduqca da bir millətin həyatını o milləti təşkil edən fərdlərin həyatı kimi qəbul etmək, millətlərin həyatlarının fərdlərin həyatı kimi məhdud olduğu qənaətində olmaq doğru bir fikir, sağlam bir etiqad deyildir, zənn edirik...

Həqiqətən "tarix" bizə bir çox millətlərin, dövlətlərin meydana çıxmasını və məhv olub getməsini göstərirsədə, bu yox olub getmələr millətlərin həyatlarının məhdudiyyətinə bir dəlil olaraq göstərilə bilməz. "Tarix" yalnız filan millət filan əsrdə ortaya çıxdı və filan əsrdə yox olub getdi demir. Bəlkə də yox olub getmə səbəblərinin vacib olan hallarını da bəyan edir.

Millətlərin yox olub getməsində təbiətin, iqlimin, havanın təsiri varsada, əsas səbəbləri millətlərin həyatlarından ictimai həyatın intizamsızlığı və ya tamamilə intizamın olmaması ilədir.



*Davamı var.*
*26 Noyabr 1906 №3*



**Həzrəti Muhəmmədin**
(səllallahu aleyhi və alihi və səlləm)
**torpağını qoxulayan bir insana başqa ətir axtarmağa nə gərək var?!**

*Həzrəti Fatimə (s.ə)*

*İlahi təcəllidən "cana" Rəsul ətirindən "hala" gələn günbəz! -*
*Bilirsənmi nə qədər sevdalılar sənin yerinə olmaq istərdi.*
*Şərəfli bir xidmət üçün durmusan orda.*
*- Səndə duruşunla insanların sevgisinə yerləşdin.*
*Nə olar hər şeyi bilənə, eşidənə üz tut, sadiq xidmətçi kimi;*
*içində yerləşən o baxçadan - gözü yaşlı sevdalılara ordan - o*
*könül Sultanının baxçasından ətir paylasın...*



# Kainatın Fəxrinin Mövludu

## Mövludi-nəbi

## 1906

*Əli bəy Hüseynzadə*

Bu il mövludi-nəbi münasibətilə Bakı əhli ikinci dəfə olaraq məzhəb fərqi olmadan birləşərək bayram edir və vəhdət binasına müəyyən bir təməl daşı atır. Keçən ilki ilk vəhdət addımımız, 14 əsr əvvəl peyğəmbərin(s) doğumuna rast gələn əzəmətli hadisələrə oxşar hadisələr baş verdi ki, vaxtilə "Həyat" qəzeti buna toxunmuşdur. Burada diqqəti cəlb edən bir şey varsa o da, bu illər Peyğəmbərin(s) doğulduğu şəmsi tarixinin ayı ilə qəməri ayının bir-birinə təsadüf etməsidir. Bu da vəhdət əmrinin başlaması üçün ayrıca bir xeyir sayılsa layiqdir. Məlumdur ki, peyğəmbərin(s) doğumu həm rəbiül-əvvəl, həm də nisan (aprel) ayının ortalarında gerçəkləşdi. Peyğəmbərimiz(s) asimandan rəhmət yağışının yağdığı və dənizlərdə dürrlərin meydana gəldiyi bir zamanda dünyaya bir dürri-yetim (misli olmayan dürr) olaraq gəldi. Səhih hədisə görə, fəxri-kainat həzrəti-Muhəmməd(s) miladi-İsanın(ə) 569-cu ilində "hicrətdən 53 il əvvəl fil hadisəsi ilində Nuşirəvani-adil hökumətinin qırx ikinci ilində rəbiül-əvvəlin on ikinci bazar ertəsi günü günəş çıxmazdan əvvəl Məkkeyi-Mükərrəmədə dünyanı şərəfləndirmişdir. Atası Bəni haşimdən olan Abdullah ibn Əbdül-müttəllib, anası Aminə binti Vəhab və süd anası da Bəni Səd qəbiləsindən Həlimə binti Əbu Zueybdir. Peyğəmbərimiz(s) öz dilinin fəsahətinin səbəblərini bildir-



# Vəhdət, bir millətin birliyi, bütövlüyü, sarsılmazlığı və tərəqqi yoludur

mək üçün bir hədisi şərif buyurmuşdur ki, o hədis onun başlanğıc və mənşəyini göstərir.

"Mən ərəblərin ən fəsahətlisiyəm, başlanğıcım qureyş qəbiləsindən, böyüyüb boya-başa çatmağım da Bəni Səd ibn Bəkr qəbiləsindəndir".

Fəxri-kainat peyğəmbərimizin(s) vilayəti haqqında bu qədər məlumat verməklə kifayətlənirik. O həzrətin tərcümeyi halından, vəsf və məziyyətlərindən bəhs etmək lazım gəlsə cildlərlə kitablar yazmaq olar ki, bu həm bizim imkanımızın xaricində, həm də bu işin sahiblərinə məxsus bir vəzifədir. Biz burada peyğəmbərin(s) mövludu münasibətilə bir anlıq vəhdətdən bəhs etmək istəyirik. Bizə elə gəlir ki, vəhdətin həqiqi mənasını anlayanlar hələ içimizdə çox azdır. Hər kəs vəhdətə bir cür məna verir və hər kəs vəhdətə verilən mənadan bir cür məmnun və razı olur.

Bizə qalırsa vəhdəti haqqı ilə anlamaq üçün əvvəlcə 17 oktyabr manifesti ilə elan olunan hürriyyətlərdən "hürriyyəti vicdan"(vicdan azadlığı) ilə "hürriyyəti kəlamı"nı (söz azadlığı) layiqli şəkildə dərk və təqdir etmək lazımdır. Hürriyyəti vicdanın mənası budur ki, hər kəs hər hansı bir etiqad və fikirdə, vicdanilə əldə etdiyi əqidə və fikirlərdə hürr və azaddır. Nə hökumətin nə də bir fərdin etiqad və fikirlərinə görə kiməsə təcavüz etməyə haqqı yoxdur. Hürriyyəti kəlama gəlincə isə hər kəs etiqad və fikirlərini aşikar şəkildə söyləyib yazmaqda ixtiyar sahibidir. Buna görə də heç bir şəxs digərini məcbur edərək təzyiq göstərə bilməz. Bunun ən birinci faydası budur ki, hürriyyətlər sayəsində insanlar riyakarlıqdan xilas edilirlər. İndi insan istər sünni istər şiə, istər də yeni ortaya çıxmış orta yolu tutan məzhəb olsun fikir və etiqadını aşikar şəkildə söyləyib nəşr etməkdə ixtiyar sahibidir. Vəhdətin mənası bu deyildir ki, şiələr öz batini etiqadlarını gizlədib sünni və sünnilərdə öz etiqadlarından əl çəkib şiə, yaxud da hər iki tərəf "onda da oldu bunda da" olub orta yol tutan məzhəb olsunlar. Xeyr, vəhdətin mənası bu deyildir. Vəhdətin mənası hər bir fərdin öz həmcinslərini hansı məzhəbdə olurlarsa olsunlar hamısına hörmət edib, hamısını qardaş bilməkdir. Öz etiqadlarından, atababalarından gördükləri, ana südü ilə əmdikləri yaxud əldə etdikləri etiqadlarına görə tənə və danlaq etməmək, hər kəsi öz məzhəbində getməyi, öz fikirlərini nəşr və təlimdə sərbəst buraxmaqdır. Vəhdətin mənası ictimai işlərdə xalqın mənafeyi uğrunda əlbirliyi ilə iş görməkdir.

Vəhdətin orta bir yol ilə meydana gəlməsinə gəldikdə bu mümkün olmayan və fövqəladə çətin bir işdir. Bu xüsusda iki tərəfdən heç biri imam və müctehidlərinin fikirlərindən əl çəkməzlər. Əl çəkiləcək bir şey varsa o da hökumət siyasəti ilə məzhəbləri bir-birindən uzaqlaşdıran və sonda ortaya çıxan təbəqədir ki, bundan xilas olmağa çalışmaq lazımdır. Millətlər cəhalət vadisində gəzdikləri zaman hökumətlər istədikləri kimi onları öz gizli amallarına xadim etmişdilər. Bu qəbahət xüsusilə Şah İsmail ilə Sultan Səlim dövrünə aiddir. İndi camaat yavaş-yavaş ayılır və ona görə də hökumətlərə oyuncaq olmayacaqlar. O dövrlər çoxdan keçdi, indi islam hökuməti belə nicatın vəhdət dairəsində olduqlarını dərk etdilər. Bu nöqtəni izah etmək üçün oxucularımı aşağıda yazılan hadisədən xəbərdar etmək istəyirəm.

Bu günlərdə köhnə vərəqlərimi vərəqləyərkən içlərində 12 il bundan əvvəl İstanbulda hərbi tibbi məktəbində təhsil almış "Turani" tərəfindən o vaxtlar yazılmış bir məktub tapdım. Bu məktubun mündəricatı olduqca mühümdür. Dostum yazır ki: "Əfəndim məktəbimizdə məzhəblər barəsində nəticəsi olduqca xeyirli olan bir hadisə baş verdi. Bazar günü xristian yoldaşlarımız dərsdən azad olub bunların tibb dərslərində müsəlmanlardan geri qalmaması üçün nəzarətcə qərar verildi ki, müsəlman tələbələr bazar günləri ancaq dini elmlərlə məşğul olsunlar və məscidə yığılıb moizə dinləsinlər. Müsəlman tələbələrin hamısı məzhəb fərqi olmadan məscidə gedib dini elmlərin təlimi üçün təyin olunan xacənin dərslərini dinləməyə məcbur oldular. Bir bazar günü xacə dörd məzhəbin (hənəfi, şafei, maliki, həmbəli) haqq olduğundan bəhs edib, beşinci məzhəbi zikr etməyi unutdu. Bu səbəbdən sonrakı bazar günü şiə olan tələbə: "məzhəbimiz haqq olaraq zikr olunmur" deyib və bütün tələbələr məscidə getməkdən imtina etdilər. Bu isə nəzarət heyətinin təlaşına səbəb oldusada yenə müsəlmanlar üçün istisna ola bilməz bəhanəsi ilə bütün tələbələri məscidə getməyə məcbur etdilər. Tələbələr də əmrə itaət etdilər. Lakin məsciddən çıxdıqdan sonra lazım gələn yüksək yerlərə şikayətə ehtiyac olduğunu anladılar. Bu hadisənin sədası xilafətin yüksək yerlərinə, "Ulduz" sarayına qədər gedib çıxdı. Məsələ də çox asan bir şəkildə həll olundu. Böyük İsgəndərin cahangir olmaq üçün Qordi düyününü bir qılınc zərbə ilə kəsib atdığı məlumdur.

Məhs əzəmətli Sultan Əbdül Həmid də məsələni İsgəndəranə bir şəkildə həll etdi. Sultan tərəfindən xacə əfəndiyə bir töhmət gəlib beşinci Cəfəri məzhəbinin də haqq olduğunu bəyan etmək üçün qəti surətdə əmr edildi. Məhz xəlifənin bu əmrindən sonra şiə tələbələr sair tələbələr ilə məscidə getməyə başladılar. Xacə əfəndi isə əleyhində yüksək yerlərə şikayət olunduğu üçün özünü bir az incimiş halda göstərib dedi ki: "keçən dərslərdə beşinci məzhəbi hələ zikr etmədiyim üçün mənim və ya ümumiyyətlə sünni xacələrinin Cəfəri məzhəbini guya haqq tanımadığımız qənaətində olub bihudə yerə şikayət etmisiniz". Bizim daima etiqadımız budur ki beş məzhəb haqdır. Bu sözlərdən sonra Xacə əfəndi İmam Cəfəri Sadiq(ə) haqqında təfsilatilə məlumat verdi və dedi ki, İmami-əzəm Əbu Hənifə həzrətləri o həzrətin şagirdlərindən olub, təlim və tədris halqalarında olmuşdur və ancaq fövqəladə bir məhəbbət ilə bağlandığı o İmamın sayəsində mənəvi feyzləri əldə etməklə içtihad məqamına çatmışdır. İmam Əzəmin tutduğu yol İmam Cəfəri Sadiqin(ə)ın göstərdiyi yoldan başqa bir şey deyildir...

Məhs xilafət məqamı olan İstanbulda vəziyyət bu cür olduğu halda bizə vəhdət üçün ayrı bir yol axtarmaq əbəsdir, zənn edirik...

*13 aprel 1907 №15*



# TÜRKLƏRİN ATAYURDU

## rənglərin "dilində"

*F.Ağasıoğlunun "Doqquz Bitik" (Türklərin İslamaqədərki tarixi) kitabından*

Elmdə dərin kök salmış yanlış bir nəzəriyyəni rədd etməyin vaxtı çoxdan çatsa da, türkoloq, etnoloq və tarixçilər bu problemin üzərinə getməyə risk etmirlər, çünki iki əsrdən artıq elmi ədəbiyyatda kitabdan-kitaba ötürülən, az qala, aksiomaya çevrilən bir fikri təkzib etmək, o qədər də asan deyil. Bu, "Altay dilləri ailəsi" nəzəriyyəsidir. İsbat olunmamış bu nəzəriyyəyə görə, guya türklər monqol və tunquz-mancur xalqları ilə qohumdur və onlar nə vaxtsa, Altay dil ailəsi adlanan protoaltay dili parçalanandan sonra bir-birindən ayrılmışdır. Guya türklər Altaydakı monqoloid qohumlarından ayrılıb, batı ölkələrə göçmüşlər. Bu baxımdan, Azərbaycan türklərinin mənşəyi də Altay və Monqolustan çölləri ilə bağlanır.

Doğrudur, bu nəzəriyyə bütün türkoloqlar tərəfindən qəbul olunmur və vaxtaşırı tanınmış dilçilərdən G.Dörfer, B.A. Serebrennikov, M.S.Şerbak, F.Zeynalov və başqaları monqol-türk qohumluğunun sübut olunmadığını söyləmişlər. Əvvəllər bir neçə yazımda mən də Altay nəzəriyyəsi əleyhinə antropoloji, linqvistik bəlgələrlə fikir söyləmiş, Azər türklərinin Azərbaycanda gəlmə xalq yox, yerli xalq olduğunu yazaraq, Altaydan gəlmə fikrinə qarşı çıxmışdım. Həmin məsələlər üzərində təkrar dayanmadan, burada diqqəti Azər türklərinin Azərbaycanda yerli xalq olduğunu sübut edən əlavə dəlil kimi boya (rəng), cəhət, istiqamət bildirən sözlərin verdiyi informasiyaya çəkək.

**1. Boya bildirən sözlərdə "cəhət" anlamı:** Akademik A.N.Kononova görə, türk xalqları Dünyanın cəhətlərini bildirmək üçün iki üsuldan istifadə etmişlər; biri solyar sistem, digəri boya (rəng) sistemi. Azər dilində "qara quzey" deyimi qara və quzey sözlərinin sinonim anlamda işləndiyini göstərdiyi kimi, türk dillərində boya bildirən sözlərin cəhət mənalı çaları vardır. A.Qaben və A.N.Kononov azacıq fərqlə türk boya-cəhət sistemini belə verirlər:

**qızıl = *güney*, ağ = *batı*, sarı = *batı / özək***
**qara = *quzey*, göy = *doğu***




TÜRK harada olmasından asılı olmayaraq, dayandığı yerə "sarı", quzeyə "qara", güneyə "qırmızı" (altun, qızıl), batıya "ağ", doğuya isə "göy" boyanın simvolu kimi baxacaq. Bu boya – cəhət sistemi sxemdə boyaların "diliminde" belə görünür:

Əgər bu sistemi xəritə üzərində axtarmaq istəsək, ən münasib üsul kimi göl və dənizlərə verilən adlara baxmaq lazım gələcək. Bütöv Avrasiya məkanında isə belə bir yer yalnız İkiçayarasının quzeyindədir:






Aydınlıq olsun deyə, qədim mənbələrdə güney sularının "qırmızı", doğu sularının isə "göy" adlandığını xatırlayaq. Belə ki, Aralıq dənizindən (Ağ dəniz) aşağıda Nil çayının doğusundakı Qırmızı dəniz kimi, qədimdə Fars körfəzinin də Qırmızı dəniz adlanması bəllidir (Herodot, IV. 39; Strabon, XI. 13. 9). Göycə gölü kimi, Urmu gölünün adı da keçmişdə Göy-göl idi. Urmu gölünün adını Strabon λίμνη καποῦτα (kapauta) şəklində verir və "tünd göy" (κυάνη) mənası olduğunu bildirir. (Strabon, XI. 14. 8). Plini də bu gölü capotes (Kapot) kimi qeyd edir. Hay qaynaqları da bu adı "göy" (kaput) anlamında verir.

Xəzər dənizinin isə 70-dən artıq adı var və bunlardan biri də çox güman ki, xalq deyimi kimi "Göy-Xəzər" olmuşdur. Görkəmli tədqiqatçı B.Ögəl bu barədə yazır: "Dədə Qorqud kitabının çərçivəsi içində bu dənizin harada olduğunu dəqiq söyləyə bilmək çətindir. Əslində Gökçə dəniz Xəzər dənizidir". Yaqut əl-Həməvi də bu dənizin perscə "Əfkud Dəryav" (Göy dəniz) adlandığını qeyd etmişdir ki, bu da gəlmə perslərin türklərdən eşitdiyi yerli adı pers dilində kalka ilə verməsidir. Bu dənizə xalq arasında "Göy Xəzər" deyilməsi şeir və mahnılarda əks olunmuşdur.

Xəritədəki dairə ("türkün" durduğu yer) dünyada ilk əkinçilik mərkəzi olmuşdur. Dəclə hövzəsində dalbadal yaranan Xasun, Xalaf, Ubeyd kulturlarının geniş yayılması sıx əlaqələr və kiçik köçlərlə gerçəkləşirdi. Dünyada ilk təkərli araba da Erkən tunc dövründə burada icad olunub. Arxeoloqların üzə çıxardığı qədim bəlgələrə görə, Daş dövrünün sonundan Tunc dövrünün sonunacan burada maddi-mədəni iz buraxmış xalqın adı 5 minil öncə subar kimi şumer-akkad yazılarına düşmüş, ərazi Subar ölkəsi adlanmışdır. Eneolit dövründən sonra m.ö. IV minillikdə isə buradan doğu ölkələrə böyük miqrasiyalar başlanmışdır:

Türklərin boya – cəhət sözlərinin rus onomastikasında əks olunması uzmanların diqqətini çəkmiş, onlar belaya (ağ), çyornaya (qara) və çervonnaya (qırmızı) sözlərində türk dilinə uyğun cəhət çaları yaranmasını türk dilinin təsiri ilə izah etmişlər. Maraqlıdır ki, hələ m.ö. II əsrdə çin tarixçisi Sıma Tsyan hun-çin savaşında Metenin (Mao-dun) süvari qoşunu haqqında yazır ki, batıda ağ-atlılar, doğuda boz (mavi)-atlı-

lar, quzeydə qara, güneydə isə kürən-atlılar sıralanmışdı. Göründüyü kimi, artıq ilk hun çağına aid bu bəlgə türk boylarının batıdan doğuya getməsi tarixini çox geri çəkir.

**2. Yön bildirən sözlərdə cəhət anlamı:** Türk kosmonimiyasında üç vertikal və dörd horizontal məkan bölgüsü vardır: aşağı, orta, yuxarı; ön, arxa, sağ, sol. Öncə dörd cəhəti təyin edən prototürklərdən sonra bəzi türk boyları səkkizbucaqlı bölgüdən də istifadə etmişlər. Bunu uyğur, tatar və azər dillərində görmək olur:

| Uyğur | Tatar | Azər |
|---|---|---|
| öngdün-tağdın bulunq | tönyak-könçıqış | quzey-doğu |
| kidin-tağdın bulunq | tönyak-könbatış | quzey-batı |
| kidin-kündin bulunq | könyak-könçıqış | güney-doğu |
| öngdün-küntün bulunq | könyak-könbatış | güney-batı |

A.N.Kononov tuva dilində yön və cəhət bildirən sözlərin monqol dillərinə uyğunlaşdığını, Göytürk yazıları, çuvaş, yakut (saxa), tofalar dilləri isə türk sistemini saxladığını yazır. O bu dillərdə arka (geri) tərəfin "batı", ön (iləri, ilqaru) tərəfin "doğu", sağ tərəfin "güney", sol tərəfin isə "quzey" anlamı daşıdığını deyir.

Y.İ.Ubryatova düzgün olaraq qeyd edir ki, saxa dilində soğoru/ soñoru (yuxarı) və xotu (aşağı) sözlərinin "quzey" və "güney" anlamı Lena çayının hövzəsində yerləşəndən sonra yaranıb, çünki bu çay aşağıdan yuxarı (güneydən quzeyə) axır. Eyni rəng türk və monqol dillərində müxtəlif yönləri bildirdiyi kimi, yönlərin bildirdiyi cəhətlərin də bu dillər üzrə fərqlənməsi bir daha göstərir ki, monqol və türk etnoslarının ələqəsi genetik yox, sonrakı olaydır:

| | Monqol: | Türk: |
|---|---|---|
| arxa | = quzey | = batı |
| ön | = güney | = doğu |
| sağ | = batı | = güney |
| sol | = doğu | = quzey |

Nə üçün azər dilində yön bildirən sağ-sol, arxa-irəli sözləri doğu türklərdə olduğu kimi, cəhət bildirən termin anlamında işlənmir? Məncə, bu suala cavabı doğuya gedən türk boylarının qədim miqrasiya olayında axtarmaq lazımdır, çünki arxanı batı, önü doğu, sağı güney, solu isə quzey sayanlar batıdan doğu yöndə böyük köçün yaşamını dadmış və bu olayı nəsillərin yaddaş saxlancına sızdırıb, günümüzə qədər dilində yaşadan boylardır. Ön Asiyadan Altaya gedən boylar bu yolu beş-on ilə deyil, yüzillər boyunca nəsilləri dəyişə-dəyişə getmişlər. Protoazər boylarısa kiçik lokal yerdəyişmələr istisna olmaqla, yurdlarından uzaq ellərə getmədiyindən onların dilində istiqamət bildirən sözlərə də əlavə cəhət anlamı yüklənməsinə zərurət yaranmamışdır.

Göytürk yazılarında istiqamət bildirən irəli, bəri, geri, yuxarı sözləri uyğun olaraq, cəhət bildirən doğu (gündoğan), güney (günorta), batı (günbatan), quzey (gecəortası) sözləri ilə qoşa işlənir. Bunu Kültigin abidəsindəki bu mətndə aydın görmək olur:







Tokuz-Oğuz bəqləri, budunu! Bu sabımın edgüti esid, katıqdı tinlə: ilgerü – kün toğuşka, birgerü – kün ortusınaru, kuriğaru – kün batıskına, yırğaru – tün ortusınaru anda içreki budun kop mana körür [anc]a budun. ("Doqquz-Oğuz bəyləri, xalqı! Bu sözümü yaxşı eşit, qatı dinlə: İrəli – gündoğana, bəri – günortaya, geri – günbatana, yuxarı – gecəortasına qədərki xalqların hamısı mənə itaət edir").




Prototürklərin ilkin Atayurdunun Güney-Doğu Anadolu və Azərbaycan olduğunu nəzərə alsaq, aydın olar ki, türk boylarının doğu sözündə "ön", geri sözündə isə "batı" çaları onların batıdan doğuya miqrasiyasını göstərir.

**Prototürk boylarının m. ö. IV-II minillərdə Ön Asiyadan miqrasiyaları**




Təbəri qədim qaynaqlarda Azərbaycanın türk ölkəsi (məmləkəti) kimi verildiyini yazır. O qeyd edir ki, Musa peyğəmbərin vaxtında İranın mifik hökmdarı Mənuçehrə tabe olan və müharibələrdə göstərdiyi igidliklərə görə Er-Ra'iş ləqəbini alan Yəmən hakimi Haris bin Ebu-Südad yürüşlərindən birini Mosula yönəldir. Süvari bölüklərinə Şemir bin Attaf adlı birini başçı təyin edib, onları türk məmləkətinə göndərir. Bu münasibətlə Təbəri yazır:

"Şemir Azərbaycana sahib olan türklər üzərinə yürüdü, savaş ərlərini öldürərək çoluq-çocuqlarını əsir aldı. Sonra bu səfərdə olub-bitənləri iki daşın üzərinə yazdırdı ki, bunlar Azərbaycanda marufdur" (Təbəri. Tarix. II t. İstanbul, 1991, 540).

Azərbaycanın türk yurdu olması, türklərin buradan doğuya köçməsi türk dastanlarından Çin qaynaqlarına sızan bilgilərdə də öz əksini tapmışdır. Türk (turuq) adını tukyu kimi verən Çin qaynaqları onların Azərbaycandan çıxdığını qeyd edir. Qaynağa görə, öncə Xəzərin (Batı dənizin) batı tərəfində (yəni Azərbaycanda) yaşayan tukyular Su çarlığından çıxmış və Aşina soyu Xəzərin doğusunda Kao-Çanq ölkəsinə, sonra buradan cücenlər ölkəsinə keçmişlər. Azərbaycan bayrağındakı ulduz, əslində, qədim türk simvolikasıdır. Bu iki dördbucaqlının üst-üstə çarpaz qoyulması ilə alınan səkkizbucaqlı işarədir və Şumer çağından tanrı, ulduz və göy anlamı daşıyan damğa ilə eyni mənşəli olub, Ön Asiyada yayılmışdır. Saxa türkləri də 8 cəhəti fərqləndirir. Prototürklərin ilkin Atayurdu probleminə düzgün yanaşaraq, bu yurdun Güney-Doğu Anadolu olduğunu və türklərin buradan batı, doğu və quzey yönlərə miqrasiyası ilə türk dillərinin üç bölümə ayrılması olayının m.ö. II minildən öncə baş verdiyini söyləyən və hindavropa xalqlarının dilində güney anlamlı sözün "ön" çaları ilə bu xalqların güneyə miqrasiyasını müəyən edildiyini vurğulayan F. Latıpov yazır ki, eyni üsulla türk boylarının da doğu sözündə "ön", geri sözündə "batı" çaları onların batıdan doğuya miqrasiyasını göstərir.

Göytürk yazısında Qapağan vurğulayır ki, idarə etdiyi dövləti 65 ulu babası tərəfindən qurulub. Əgər bu 65-i soy (nəsil) tarixi (35-40) ilə hesablasaq, təxminən m.ö. XIX-XVII əsrlərdə Urmu yaxasında qurulmuş Turuk bəyliyinin tarixinə uyğun gələr. Turuk boylarının buradan doğuya getməsi onların adına "doğu" anlamlı göy sözünün qoşulma səbəbi də aydınlaşır. Batıda qalan turuk boylarından fərqli olaraq, göytürklər (doğu türklər) Doğuda möhtəşəm Göytürk Elini (dövlətini) qurdu.

Türk boylarının yeni (ikinci) Atayurdunun "Türküstan" adlanması ora miqrasiya edən turuklarla bağlı olduğu kimi, orada Su bəyliyinin yaranması da Azərbaycanda özünü göstərən daha qədim sub (suv, su) boylarının Subar (Suv-bi, Su-bi) adlı bölgə-ölkə və bəyliklərinin təkrarı idi.

Beləliklə, boya-cəhət və yön-cəhət sözləri aydın göstərir ki, Altay nəzəriyyəsi yanlışdır, çünki türklər Azərbaycana doğudan gəlməmişlər, əksinə, onlar Güney-Doğu Anadolu və Azərbaycandan doğuya getmiş və çox sonralar bəzi türk boyları Atayurda qayıtmışdır.

16988
M.F.Axundov adına



# Bahar Bayramı

Professor Məhərrəm Qasımlı

**Humanizm, quruculuq, abadlıq, xeyirxahlıq, xoş münasibət, insanı ucaldan, kamilləşdirən mənəvi dəyərlərə ehtiram və sayqıyla yanaşmaq tarix içində olduğu kimi indi də Azərbaycan novruzunun əsas göstəricisidir.**



Yüzillər boyunca el-ulusumuzun cəmi şadlıqlardan, çal-çağırlardan başda saxladığı istəkli bir bayram var: Novruz bayramı! Bu bayram gur tonqalları, gözoxşayan, könül tərpədən noğul-nabatlı xonçaları, yamyaşıl səmənisi, gül qanadlı, yelqanadlı düzgü-qoşquları, mübarək niyyətləri, tumurcuq diləkləriylə tanınır, sevilir. Gün-güzaranımız hər zaman bu ulu bayramın qədəmlərinin uğuruna, sayasına güvənib. Əski çağlardan üzü bəri elimiz Çillələr, Xıdır Nəbi, Bozay boyu Novruzun mübarək gəlişini gözləyə-gözləyə, çal-çağırlı yığnaqlar qurub, bayrama yetməkdən ötəri vaxtı-zamanı söz söyləməklə, düzgü-qoşquyla yorub yola salıb...

Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının əsgi çağlardan daşıyıb gətirdiyi mənəvi dəyərlər sistemində Novruz bayramının da özünəməxsus yeri vardır. İbtidai çağlara məxsus ilkin dünyaduyumu və arxaik mifoloji inanclardan qaynaqlanan yaz – yeni günü qarşılama mərasimi yüzillikləri çevrələyən tarixi təkamül prosesi nəticəsində zəngin mədəni-mənəvi keyfiyyətlər qazanaraq geniş miqyasa malik xalq bayramına – Novruza çevrilmişdir. Bu baxımdan Novruz təkcə bir neçə günü əhatə edən bayram deyil, həm də uzun bir təqvim müddətini öz ətrafında cəmləşdirən irimiqyaslı mərasim kompleksidir. Uzun sürən qış dönəminin çətinlik və məşəqqətlərindən (soyuq, qida sıxıntısı və s.) qurtulub yaşayışa müsbət təsir edən işıq, istilik, qida imkanları açan yaz dönəminə başlamaq arzusu əcdadlarımızı bu mürəkkəb və zəngin mərasim kompleksini yaratmağa təşviq etmişdir. Bilindiyi kimi, ilkin – ibtidai sivilizasiyanın digər üzvləri kimi qədim azərbaycanlılar da öz ətraflarında baş verən kosmoloji prosesləri, xüsusən də təbiət hadisələrini yaşayışa, güzərana necə təsir etməsinə görə çeşidli bölümlərə ayırır və həmin dəyişiklikləri özünün ilkin bədii təxəyyülündə ibtidai şəkildə olmuş olsa da, obrazlaşdırmağa çalışırdı. Həyatı çətinliyə salan, qida, istilik çatışmamazlığı və başqa bu kimi sıxıntılarla imtahana çəkən qışın obrazı, heç şübhəsiz ki, ulu babalarımızın təsəvvüründə qorxulu, qara cizgilərlə canlanırdı. Elə buna görə də canlı danışıqda geniş yer alan "Qara qış", "Böyük çillə", "Kiçik çillə" kimi adlar təbiətin sərt iqliminin, diriliyə uyar olmayan çağının tarixi-semantik məzmun daşıyıcısı kimi ortaya çıxmışdır. Elə buradaca diqqət önündə saxlayaq ki, bir çox hallarda "qış"ın əvəzedicisi kimi işlənən "Çillə" sözü dərd-bəla, ağrı-acı, çətinlik, müşkül anlamındadır. Deməli, ulularımız qışı dərd-bəla, müşkül, çətinlik kimi qəbul etdiklərindən onu iki yerə bölərək "Böyük çillə" (böyük çətinlik – dekabrın iyirmi ikisindən yanvarın otuz birinədək olan qırx günlük dönəm) və "Kiçik çillə" (kiçik çətinlik – fevralın birindən iyirmisinədək olan iyirmi günlük dönəm) adlandırmışlar. Qış yerini yaza təhvil verən zaman yandırılan tonqala el arasında "çillə qovan tonqal" deyilməsi və Novruzqabağı keçirilən mərasimlərə (qulaq falı, üzüksalma, oddan, sudan atlanma və s.) "çillə çıxartma", "çilləkəsmə" adı verilməsi də qışın ağrı-acı, dərd-bəla, sıxıntı kimi "çillə" obrazında folklor biçimi qazandığını göstərir.

Qışı – çilləni yola salmaq, yazı – yeni günü qarşılamaq məqsədi ilə keçirilən "Novruz çərşənbələri" adlı silsilə rituallarda da qədim azərbaycanlının təbiətə təsir etmək, onu mülayimləşdirmək, işığı, günəşi çağırmaq arzuniyyəti öz əksini tapmışdır. "Oğru çərşənbələr" və "Doğru çərşənbələr" adıyla iki qismə ayrılan "Novruz çərşənbələri"nin ümumi sayı bəzi elmi ədəbiyyatlarda qeyd olunduğu kimi dörd yox, yeddidir. Sadəcə olaraq, onların dörd sonuncusu əsas çərşənbələr sayılır. Əsas çərşənbələrə qədərki üç çərşənbə el arasında "oğru çərşənbələr" adlanır və Kiçik çilləyə düşür. İnama görə, oğru çərşənbələrdə yazın nəfəsi oğrunca yer üzünə – suya, torpağa, ağaclara toxunub geri qayıdır, bu minvalla yaxın zamanlarda gəlib çıxacağına işarə etmiş olur. Oğru çərşənbələrdən sonra başlayan əsas çərşənbələr "doğru çərşənbələr" tanınır.

El inamına görə, doğru çərşənbələrdə yazın nəfəsi növbəylə suyun, ağacların, torpağın canına hopub onları oyadır. Yazın nəfəsi öncə suya toxunur və bununla da, el arasında deyildiyi kimi: "sulara ixtiyar verilir". Sulara ixtiyar verilməsi, daha doğrusu, suların ixtiyarının özünə qaytarılması o deməkdir ki, həmin gündən başlayaraq daha sular donmur, şaxta – qış onu dondurub ixtiyarını əlindən ala bilmir. İkinci çərşənbədə torpağa ixtiyar verilir. Torpaq qarını-buzunu əridib, nəfəsinin buğuyla toxumu cücərdir, əkini dikəldir. Torpaqdan



sonra növbə ağaclara çatır. Doğru çərşənbənin üçüncüsündə ağaclara ixtiyar verilir. Həmin çərşənbədə ağaclar qış yuxusundan oyanır və tumurcuğa dolmağa başlayır. Ən sonda – axır çərşənbədə yazın nəfəsi canı-qanı olanları tərpədir – heyvanların, quşların, adamların qanı yerindən oynayır. Beləcə, yaşayış, varlıq yeni bir axara düşür.

Doğru çərşənbələrin el arasında çeşidli adları vardır. Bu sıradan olan birinci çərşənbə "Əzəl çərşənbə"dir. "Əzəl çərşənbə"yə Azərbaycanın müxtəlif bölgələrində "Sular novruzu" və "Yalan çərşənbə" də deyilir. İkinci çərşənbə "Müjdəverən", "Muştuluqçu", "Külə", "Kul", "Xəbərçi" adlarıyla tanınır. Üçüncü "Gül çərşənbə"dir. Bu çərşənbədə rəhmətə gedənlərin ruhu xatırlanıb qəbir üstünə gedildiyindən ona "Ölü çərşənbəsi" və ya "Ata-baba günü" də deyilir. Sonuncu, ən təmtəraqlı, təntənəli qeyd olunan "Axır çərşənbə"dir.

Çərşənbələrin ümumi sayının, yəni oğru və doğru çərşənbələrin birgə sayının yeddi olması təbii və qanunauyğundur. Türk folklor düşüncəsində evolyusion-irəliləyiş rəqəmləri təklik (3, 5, 7, 9) sistemi üzərində qurulduğundan çərşənbələr də təbii olaraq bu qanunauyğunluq içərisində sıralanmalıdır.

XX əsrin səksəninci illərinin sonlarından başlayaraq əvvəlcə elmi ədəbiyyatda, az sonra isə kütləvi informasiya vasitələrində – televiziya, radio və qəzetlərdə novruz çərşənbələrinin "yeni" – qurama adlarla görünməyə başlamış, hətta "su çərşənbəsi", "od çərşənbəsi", "külək çərşənbəsi", "torpaq çərşənbəsi" kimi adlar orta məktəb dərsliklərinə də yerləşdirilmişdir. Xalqımızın folklor və etnoqrafiya mədəniyyətində tarixən bu adların heç birisinə təsadüf olunmur. Bu gün folklor sərvətimizin daha saf şəkildə qorunduğu Cənubi Azərbaycanda – Təbrizdə, Urmiyada, Zəncanda heç kəsin yuxarıdakı uydurma çərşənbə adları barədə təsəvvürü yoxdur. Bu barədə hər hansı bir tarixi qaynaqda da söz açılmır. Azərbaycanda səksəninci illərin sonlarından əvvəl bu adların mövcudluğunu əks etdirən hər hansı bir mənbə yoxdur. Elə isə, bu adlar haradan və necə uydurulmuşdur? Həyatı, yaranışı şərtləndirən məşhur "abi-atəş-xaki-bad" dördlük sistemi farscadan tərcümə edilərək buradakı hər bir ünsürə uyğun şəkildə bir çərşənbə adı (ab – su, atəş – od, xak – torpaq, bad – külək) düzəldilmişdir. Bu adların çərşənbə adı kimi qeyri-dəqiqliyi sıravi məntiqlə də ortaya çıxır: hansı çərşənbə axşamında od yandırılmır? Elə isə, "Od çərşənbəsi" adlı ayrıca bir çərşənbənin olması hansı məntiqə əsaslanır? Yaxud, Azərbaycan dilində, xüsusən də folklor – xalq danışıq tərzində "Torpaq çərşənbəsi" ifadəsi nə qədər səlis səslənir? Bəzilərinin təxəyyül məhsulu kimi ortaya çıxardıqları bu adların "folklorlaşdırılması" istiqamətində kor-koranə şəkildə kütləvi təbliğatların aparılması təəssüf doğurur...

Çərşənbələrdə (daha dəqiq desək, çərşənbə axşamlarında) tonqal qalanması, göyə yanar fişənglər, tarixən üsgü-lopa atılması, bayram süfrəsi düzəldilməsi ululardan qalma qədim el adətidir. Tonqal qalamaq, oddan atdanmaq, başı üzərində yanar fişəng, lopa-üskü fırlayıb göyə atmaq əski mifik dünyagörüşlə bağlı bir məsələdir. İşığın, günəşin gücünə inanan qədim insan odun-alovun köməyi ilə neqativ səciyyəli yad-yabançı ruhları, soyuq, qaranlıq, xəstəlik gətirən, yaşayışa sıxıntı verən pis – şər qüvvələri qovub uzaqlaşdırmağın mümkünlüyünə inanırdı. Burada bütün məqamlarda od – Günəşin rəmzi kimi düşünülürdü. Çillədən – qışdan çıxmaq üçün tonqal, od yandırılması əslində dolayısı ilə həm də Günəşin – yazın çağırılması mərasimidir. Bu aktın icrası zamanı tonqalın üstündən atılarkən:

Ağırlığım, uğurluğum
Tökülsün, bu odda yansın, –

söylənməsi də əski təsəvvürlə, çillədən, qışın ağrı-acısından qurtulmaq üçün oda – mikrogünəşə bir xilaskar kimi yanaşılması qənaəti ilə bağlıdır. Yeri gəlmişkən, aydınlıq üçün deməliyik ki, bir sıra araşdırıcılar Novruz mərasimindəki od-tonqal ünsürünü yalnız zahiri əlamətlərinə istinadən yanlış olaraq atəşpərəstliklə bağlayırlar. Bəllidir ki, atəşpərəstlər odu ilahiləşdirərək ona sitayiş edirdilər. Onlar ilahi qüvvə saydıqları oda-atəşə o dərəcədə müqəddəs bir şey kimi baxırdılar ki, hətta oda öz nəfəslərinin belə toxunmasını istəmirdilər. Zərdüştlüyə görə, insanın nəfəsi təmiz deyildir və onun müqəddəs oda-atəşə toxunması günahdır. Buna görə də atəşgahlarda oda-atəşə qulluq edən kahinlər üzlərinə xüsusi niqab örtürdülər ki, nəfəsləri oda toxunmasın. Bu gün Abşeron kəndlərində və bir sıra başqa yerlərdə yanar neft lampasının üfürülərək söndürülməsinin günah sayılması da atəşpərəst inanışının qalıntısıdır. Göründüyü kimi, oda Novruz mərasimindəki yanaşma ilə atəşpərəstlik inancı – Zərdüşt sisteminin yanaşması arasında kəskin fərq vardır. Atəşpərəstlər öz nəfəslərinin belə od-atəşə toxunmasını yasaq saydıqları halda, Novruz mərasimində od-tonqal üstündən atılan mərasim iştirakçıları: "ağrım-acım tökülsün, bu odda yansın" – mövqeyindən çıxış edir, öz çillələrini, ağırlıqlarını, dərd-bəlalarını odun üstünə töküb orada yandırmaq istəyirlər. Deməli, Novruz mərasimindəki od ünsürü "Avesta" – atəşpərəstliklə bağlı deyildir. Bu, odu, atəşi, işığı, günəşi xilaskar sayan, onun həyatı, yaşayışı ağrı-acıdan, müşküldən, sıxıntıdan qurtaran təmizləyici, saflaşdırıcı bir magik qüvvə olduğunu qəbul edən əski türk mifoloji inanışıdır!

Bəs Novruzaqədərki çərşənbə mərasimlərinin icrası üçün niyə məhz həftənin ikinci günü – çərşənbə axşamı seçilmişdir? Həftənin başqa bir günü – cümə axşamı, cümə və ya şənbə də seçilə bilməzdimi? Bu məsələnin təsadüfmü, yoxsa qanunauyğunluqmu olması həqiqətən də, düşündürücüdür. Bilindiyi kimi, el inamına görə, çərşənbə axşamı ağır gündür, uğurlu, düşərli sayılmır. Bu səbəbdən həmin gün nəsə bir işin binəsini – başlanğıcını qoymaq, ev tikintisinə başlamaq, toy-düyün etmək, səfərə yollanmaq, elçi getmək və s. məsləhət bilinmir. Sınayıblar ki, çərşənbə axşamında başlanan iş uğur gətirməz. Bu günün el arasında "Duz günü" adıyla tanınması da onun ağır bir gün olmasına işarədir. Anadolu türkləri arasında yayğın olan "salı gün sallanar" – ifadəsi də "salı"nın – çərşənbə axşamının ağır gün olması barədəki xalq inamından doğmuşdur. Görünür, çillədən çıxmaq, dərd-bəlanı, ağrı-acını bu ağır günün üstünə tökmək, qarşıdakı günlərə – xüsusən də ilaxır çərşənbə axşamından sonra gələn Novruza arınıb durulmuş halda, saf ruh, pak, sağlam bədənlə getmək el inamınca daha uyğun bilinmişdir. Bu barədə görkəmli maarifçi Məhəmməd ağa Şahtaxtinskinin 1880-ci ildə Tiflisdə çıxan "Obzor" qəzetində çap etdirdiyi "Novruz bayramı" məqaləsində də söz açılmışdır. Həmin mötəbər qaynaqda deyilir: "Çərşənbə ağır gün, ilaxır – ilin axır çərşənbə axşamı isə ondan betər hesab olunur. Odur ki, çərşənbənin ağırlığını yüngülləşdirmək üçün müxtəlif vasitələrə əl atırlar. Deyilənə görə, axır çərşənbəni quş kimi ötüb keçməyən adam təzə ildə dərd-sərə tutulur". İlaxır çərşənbədə icra olunan bütün mərasim, oyun və əyləndirici vasitələr bütövlükdə bir tam halında yüngülləşdiricilik, saflaşdırıcılıq funksiyası daşıyır və həmin funksiya yeni ovqatın, yeni ruhun – yaz ovqatının, yaz ruhunun, yeni günün – yaz gününün gəlişi və qəbulu üçün psixoloji-estetik zəmin hazırlayır.

Yaz mərasimi daha çox şimal yarımkürəsində yaşayan xalqlar arasında qeyd olunur. Cənub yarımkürəsində (Afrika, Hindistan, Cənubi Asiya və başqa bu kimi ərazilərdə) qış

demək olar ki, duyulmadığından belə bir mərasimin keçirilməsinə ehtiyac olmamışdır. Bunun əksinə, şimal yarımkürəsində yaz-qış əvəzlənməsi qabarıq görüntü yaratdığından bu yarımkürədə yaşayan bütün xalqlar qışın gedişini və yazın gəlişini bir-birinə bənzər mərasimlərlə qeyd edirlər.

Yaz mərasimi insanlığın ilkin çağlarından kök alıb gəldiyindən etnik fərqlərdən asılı olmayaraq müxtəlif xalqların çeşidli adlar altında keçirdiyi bu bayramın tərkibində əski mifik təsəvvürlərlə bağlı çox sayda oxşar ünsürlər müşahidə edilməkdədir ki, onların böyük əksəriyyəti tipoloji səciyyə daşıyır. Türk Novruzu ilə slavyan Pasxası arasındakı bənzəyiş və paralellər bu baxımdan təsir amili kimi yox, ilkin - ibtidai çağların mifik dünyaduyumundan gələn tipoloji oxşarlıq kimi dəyərləndirilməlidir. Eyni tipoloji bənzəyiş (tonqal qalanması, yumurta boyanması, şirniyyat hazırlanması, süfrə bəzənməsi, musiqi, rəqs, oyun, mahnı oxumaq və s.) digər xalqların yaz mərasimlərində də müşahidə edilməkdədir. Şimal yarımkürəsi insanı sadalanan mərasim ünsürləri ilə təbiətə təsir etmək, xoş ovqat, bayram əhvalı yaradaraq havanı mülayimləşdirmək, yaz, işıq, xeyir ruhlarını çağırıb gətirmək inamını simvollaşdırmışdır.

Novruz süfrəsinə bol nemətlərin düzülməsi də yeni ildən xeyir-bərəkət, bolluq-firavan həyat diləmək arzu-istəyini simvollaşdırır. Süfrəyə yeddi cür nemətin qoyulması müqəddəs sayılan yeddi rəqəminin uğur gətirəcəyinə inamla bağlıdır. Azərbaycanın bir sıra bölgələrində (Ordubad, Təbriz, Urmiya və s.) ilaxır çərşənbənin "Yeddi ləvin bayramı" adı ilə tanınması da bu səbəbdəndir. İslamdan əvvəlki dönəmdə süfrəyə "şin"(ş) hərfi ilə başlanan yeddi cür nemət qoyularmış: şərbət, şəkər, şam, şərab, şəkərbura və s. Sonralar islam dönəmində "şərab" yasaq olunduğu üçün "şin" (ş) hərfi "sin" (s) hərfi ilə əvəz olunmuş və süfrəyə "sin" (s) hərfi ilə başlanan yeddi cür nemət qoyulması məqsədyönlü bilinmişdir: su, süd, səməni, səbzə (göyərti), sumaq və s. Yuxarıda qeyd etdik ki, yeddilik sistemi çərşənbələrin sayında da qorunmuşdur.

Yazın gəlişinin daha yaxın iqlim qurşağında olan xalqlar tərəfindən eyni zamanda bayram edilməsi tamamilə təbiidir. Hər bir etnosun və bölgənin başqasında təkrarı olmayan bənzərsiz yaz mərasim və ayinləri mövcuddur. Məsələn, "Sayaçı", "Təkəçi", "Kosa-kosa" (əslində "kosa" da "təkə" deməkdir), "Xanbəzəmə", "Kilimarası", "Üzüksalma", "Maral oyunu", "Cangülüm" və başqa bu kimi sırf elat həyat tərzindən gələn mərasim-tamaşalar təbiətin oyanışı, ilin yeniləşməsi, güzəranın, yaşayışın canlanıb qaynaması ilə bağlı yaranmışdır və istisnasız olaraq hamısı türk bədii təxəyyülünün məhsullarıdır. Məsələn, Azərbaycan Novruzunun mühüm atributu olan "Kosa-kosa" mərasimində "Kosa" – köhnə ilin təmsilçisi olan qocalmış keçi obrazında çıxış edir və mərasimin sonunda oyun – tamaşaya daxil olan yeni, gənc keçi tərəfindən qovulur və ya öldürülür. Burada məclisə yeni gələn, gənc keçi yeni ilin, məclisdən qovulub uzaqlaşdırılan Kosa – köhnə keçi isə köhnə ilin simvolu kimi düşünülmüşdür. Yaxud, indi də Ordubadda keçirilməkdə olan "Xanbəzəmə" mərasimində qaraqabaq xanı əyləncəli oyun – hərəkətlərlə güldürmək və bundan sonra onu suya basmaq zəhmli, qorxulu, qaraqabaq qışı gülər günlə, yağışla, günəşli yazla əvəzləmək istəyinin rəmzi ifadəsidir. Bu sıradan olan folklor örnəkləri Novruzu bayram kimi qeyd edən başqa xalqların (fars, tacik, ərəb) yazı qarşılama mərasimlərində müşahidə olunmur.

Yuxarıda adı çəkilən mərasim – tamaşaların, xüsusən də sayaçı mərasiminin yurdumuzda keçirilən Novruz – yenigün şənliklərində folklor kollektivləri tərəfindən icra-ifa edilməsi soykökə – qan yaddaşına qayıdış üçün son dərəcə gərəkli və əhəmiyyətlidir. İlin yaza dönən çağlarında Türküstanda "sayal", Altay və Saxa-Yakutiyada "sağalqan" (süd bayramı) mərasimlərinin keçirilməsi və bu mərasimlərin bizim milli-etnik yaddaşımızdakı sayaçı mərasimi ilə genetik bağlara malik olması göstərir ki, həmin folklor ritualı yaz – yenigün mərasiminin başlıca özəlliklərindən biridir və olduqca dərin köklərə malikdir.

Novruz – Yenigün bayramının dirilik, oyanış, qurtuluş kimi ulusumuzun yaddaşında möhkəmlənməsinin bir səbəbi də bu günün bir sıra əlamətlərinin Ərgənəkonla bağlılığıdır. Əbül Qazı Bahadır xan özünün məşhur "Şəcəreyi-türki"sində yazır ki, türklər Ərgənəkondakı dəmir dağları yararaq Bozqurdun rəhbərliyi, yol göstəriciliyi ilə zülmətdən qurtuluşa çıxdıqları günü yadda saxladılar və hər il həmin vaxtı bayram elədilər. Bu mənada Ərgənəkondan çıxış-qurtuluş Yenigün kimi, Bozqurd bayramı kimi mübarəkdir. Ərgənəkon dastanının özündə də qurtuluşun mart ayına – yazın başlanğıcına düşdüyü xatırlanır. Türk etnik-mədəni sistemində 9 (doqquz) rəqəmi müqəddəs və uğurlu sayıldığından Ərgənəkondan çıxış – qurtuluş günü uzun müddət "mart doqquzu" deyə xatırlanmış və həmin gün çəkiclə dəmir zindanı döymək, yaxud dəmiri-dəmirə vurmaq uğur gətirən bir ritual kimi yerinə yetirilmişdir. Olsun ki, Ərgənəkondan çıxış – Yenigün türk etnik-mədəni sisteminin daxilində bir müddət ayrıca mərasim keçirməklə xatırlandıqdan sonra tarixi-siyasi şərait və şərtlərdən asılı olaraq tədricən Yaz-Yenigün-Novruz mərasimi ilə qaynayıb-qarışmışdır.

Novruz bir mövsüm mərasimi kimi irimiqyaslı coğrafi hüdudlara yayıldığından və hər il istisnasız olaraq uyğun təqvim məqamında böyük coşğuyla keçirildiyindən müxtəlif tarixi mərhələlərdə hakim ideoloji sistemlər ondan siyasi məqsədlər üçün istifadə etməyə cəhd etmişlər. Belə ki, atəşpərəstlər Novruzu zərdüştlüklə əlaqələndirməyə çalışmış (guya Zərdüştə bu gün peyğəmbərlik verilmişdir) və hətta böyük nüfuz sahibi olduqları zamanlarda bu bayrama özlərinin bir sıra cizgilərini (səməni, şam yandırmaq və s.) daxil də edə bilmişlər. İranda Novruza sırf İran hadisəsi anlamı vermək məqsədilə onu ədalət – xilaskarlıq simvolu olan mifik qəhrəman Firidunun şər-istibdad qüvvə sayılan Zöhhakı (Dehhakı) məğlub etdiyi gün və ya mifik Cəmşid Xaqanın taxta oturduğu gün sayaraq bu yöndə çoxsaylı rəvayətlər yaradılmışdır. Daha sonra Novruzu islama bağlamaq üçün çeşidli rəvayətlər düzəldilmişdir. İslamla əlaqəli rəvayətlərdə Novruz gah Həzrət Əlinin(ə) anadan olduğu gün, gah taxta oturduğu gün, gah Fatimeyi-Zəhra(s.a) ilə kəbin kəsdirdiyi gün, gah da onların övladlarının dünyaya gəldiyi gün hesab edilir. Bu yöndəki təbliğat bayrama məzhəbi don geydirmək kimi aşırı mövqeyə qədər gedib çıxır. Əlbəttə, bütün bunlar xalqın mənəviyyatına daha güclü şəkildə nüfuz etmək, öz siyasi-ideoloji məqsədlərini bu bayram mərasimi daxilinə yeridərək xalqın uzunmüddətli dəstəyini qazanmaq niyyəti ilə edilib.

Astronomik təqvim üzrə Novruzun yerinin təsbitlənməsi – gecə ilə gündüzün bərabərləşdiyi gün (21 mart) və saatın dəqiq müəyyənləşdirilməsi isə səlcuqlu hökmdarı Məlikşah Qəznəvinin göstərişi ilə dövrün böyük şair və alimi Ömər Xəyyam tərəfindən (1074–1079-cu illərdə) həyata keçirilmişdir. Səmərqənd rəsədxanasında bir neçə il çəkən müşahidə və tədqiqatların nəticəsində Ömər Xəyyam gecə ilə gündüzün bərabərləşməsinin dəqiq cədvəl-təqvimini hazırlamışdır. Onun Məlik şahın şərəfinə "Sultan təqvimi", yaxud "Təqvimi-cəlaliyyə" adlandırdığı bu astronomik təqvim indi də öz elmi dəqiqliyi ilə heyrət doğurur.

Beləliklə, indiki halda tarixin dərin qatlarından yol alıb gələn Novruz bayramının tərkibi aşağıdakı iki əsas laydan ibarətdir:

a) təbiətin oyanmasını əks etdirən əski mifoloji qat;

b) müxtəlif tarixi dönəmlərin ovqatını ifadə və inikas edən siyasi-ideoloji qat.

Birinci qat əsas və aparıcı axarı təşkil edir. Burada mövsüm mərasiminin genetik başlanğıcı, təkamül prosesi, tarixi-tipoloji səciyyəsi öz əksini tapır. İkinci qatda isə ayrı-ayrı epoxalara məxsus hakim sistemlərin mərasimdən məqsədli şəkildə faydalanmaq, onu öz ideoloji qəlibinə salmaq, siyasi mənafeyin icrasına çevirmək niyyəti qərarlaşmışdır. Yüzillər aşıb keçmiş, siyasi-ideoloji sistemlərin biri-digərini əvəz etmiş, hər yeni gələn sistem Novruzu özününkü etməyə çalışmış, ancaq buna axıracan nail ola bilməmişdir. Təbiətin oyanışını inikas edən ilkin mifoloji qat xalqın etnoqrafik həyatına qovuşaraq əsl xalq bayramını ortaya gətirmişdir.

Bu gün Azərbaycanda keçirilən Novruz hər cür siyasi-ideoloji rənglərdən azad olaraq, sözün həqiqi mənasında, ilkin qatla – təbiətin oyanışı, yazın gəlişi ilə bağlı insanın işığa, həyata, yeni günə, xoş güzərana, aydın sabahlara inamını ifadə edən saf və duru bir təqvim mərasiminə çevrilmişdir. Humanizm, quruculuq, abadlıq, xeyirxahlıq, xoş münasibət, insanı ucaldan, kamilləşdirən mənəvi dəyərlərə ehtiram və sayqıyla yanaşmaq tarix içində olduğu kimi indi də Azərbaycan novruzunun əsas göstəricisidir.

# XX əsrin tarixi - Azərbaycan qadınının taleyində

**Elmira Qasımova**
*Azərbaycan İncəsənət muzeyinin direktor müavini*

**Azərbaycan qadını ən ümdə, müqəddəs bir vəzifəni – zahirən dəyişsə də daxilən milli simanı – adət-ənənəni, mərasimləri, inam və inancları, şirin ləhcəli doğma dili və nəhayət bir çox dünya ölkələri üçün problemə çevrilmiş ailəni qoruyub saxlaya bilməsidir.**

Hər bir xalq, hər bir millət öz keçmişindən, tarixindən söz açan zaman sənət abidələrini nişan verir, şair, sənətkar və ziyalı övladları ilə fəxr edir, öyünür.

Yüksək elmi-texniki tərəqqi qazanmış, kosmosu fəth etmiş bəşəriyyət XX əsrdə keşməkeşli, təzadlı bir tarix yaşamışdır.

Təbii ki, bu surətli dəyişikliklər Azərbaycanda da öz əks-sədasını tapmışdır. Xalqımızın qəlbində, yaddaşında silinməz izlər salmış hadisələr burulğanında ən ağır mənəvi zərbələrə məruz qalan isə qadınlarımız olmuşdur. Son yüzillikdə qadınlarımız neçə dəfə dəyişməli (həm zahiri görkəmi, həm batini dünyası), nə qədər əzab əziyyətlərə dözməli oldu? Gəlin tariximizin bəzi məqamlarına məhz qadın prizmasından baxaq:

Əsrin əvvəlləri: dünyanı lərzəyə salan birinci cahan müharibəsi, Rusiyada "inqilab" adı ilə bolşeviklərin hakimiyyət uğrunda apardığı vətəndaş müharibələri, bu qarışıqlıqdan istifadə edən xəyanətkar Daşnak quldurların azğınlığı və bunların fövqündə dayanan Azərbaycan Cümhuriyyəti. Bolşeviklər hakimiyyətlə kifayətlənmədi, bir sıra qonşu dövlətləri, o cümlədən müstəqilliyin üçrəngli bayrağını ucaltmış vətənimizi işğal etdi. "Dövlətlisən" deyib anbarlardan taxılı, evlərdən, banklardan var-dövləti silah gücünə süpürüb aparırdılar. Dinib-danışmaq istəyəni lap elə evindən də çıxarıb – birbaşa Sibirə – "gedər-gəlməzə" göndərirdilər. Daim kişi himayəsində olan, bayatı deyib nəğmə oxuya-oxuya xalça toxuyan, tikmələrə bəzəklər vuran, övlad böyüdən, qadın həyatın sərt sınaqlarına tuş gəldi. Var-yoxundan olan qadın indi də əqidələr müharibəsi, "mənəviyyat çevrilişlərinin" qurbanı oldu. "Azadlıq" carçıları qadınları ərlərinə, qızları atalarına qarşı qaldırır, bütün vasitələrlə təbliğatı gücləndirirdilər (bizim bir sıra yazıçılarımız bu təbliğatda fəal iştirak edirdilər). Ana-nənədən gördüyü tərbiyə, ruhuna hopmuş mənəviyyat alt-üst edilirdi. Çadra "keçmişin qalığı", ərə, ataya ehtiram, hörmət korkoranə itaət kimi qələmə verilirdi. Özbaşnalığa təhrik edilənlər "əski dünya" üzərində qələbə çalmış "qəhrəman" kimi təqdim olunurdu.

Yeni həyatın tələblərinə qismən uyğunlaşmağa başlayan qadınlarımızı yeni bir bəla – 37-nin qaranlıq gecəsində qara kabusa bənzər maşınların gətirdiyi faciə haqladı. Dünənə kimi alim, nazir, şair – bir sözlə ziyalı bir şəxsin xanımı olan qadın bir anda "xalq düşməni" ailəsi damğası ilə möhürləndi. Ər, oğul, qardaş sorğu-sualsız, məhkəməsiz naməlum istiqamətə naməyyən vaxta aparıldı, sorğu-sualsız güllələndi. Azərbaycan qadınını maddi çətinliklərdən daha çox üzləşdiyi mənəviyyatsızlıq, simasızlıq sıxdı: qohum-qonşular üz döndərdilər, özünü işdən qovdular, uşaqları məktəbdə "gözükölgəli" oldu. Hələ bu harasıdır – bir qədər əsilli-nəcabətli, savadlı, bir qədər də gözəl olduğu qədər qürürlu, namuslu qadının əlindən balalarını güclə alıb uşaq evinə atdılar və orada onlara bir ağızdan "Yaşasın atamız Stalin" oxutdurdular, özlərini də göndərdilər düz Sibirə – zərif əlləri ilə ağır fiziki işlər görməyə vadar edirdilər. Bir qismi isə göz yaşını içində boğub, ürəyinə daş basıb – balalarının gününə yanıb "boşanırdılar".

Bu məşəqqətli dərd-bəla sovuşub qurtarmamış ikinci dünya müharibəsi başladı və qadınlarımıza yeni – əzab-əziyyətli günlər gətirdi. Ər, oğul, qardaş cəbhəyə getdi, qadınlar bu dəfə üz tutdular zavod-fabriklərə, tarlalara. Dörd ilin aclığına, bitib-tükənməyən yoxluğuna tab gətirən, azından 4-5 uşaq böyüdən qadınlarımız şücaəti kitablara, dastanlara sığan deyil. Gündüzlər kişi yerinə işləyib, axşam balalarını yarıac-yarıtox yatızdırandan sonra çıraq işığında yorğanını söküb yunundan cəbhə üçün əlcək-corab toxuyan qadınlarımız əsl fədakarlıq nümunəsidir. Evindən cehiz xalı-gəbəsini çörəyə dəyişdirən, üstünün qızıl-gümüşünü, hətta nişan üzüyünü müdafiə fonduna aparıb ürəklə təhvil verən Azərbaycan qadını üçün ən vacibi – yenə də vətəni, övladları, namusu-qeyrəti olub.

Belə düşünmək olar ki, müharibənin od-alovu ötüşəndən sonra, "qara kağızı" oğul-uşaqdan gizləyib, "bir saçını ağ, birini qara hörüb", övlad böyüdən qadının dərd-səri elə bununla da bitməli idi.

Azərbaycan qadını elə dərindən nəfəs dərib qayğıları ilə məşğul olmaq istəyirdi ki, bu dəfə yeni – əqidə müharibəsi, "tərbiyəsizlik" tərbiyəsi; və nəhayət "beynəlmiləlçilik" təbliğatı başlandı. Oğul-qardaş rus-erməni qızları ilə komsomol toyları keçirdilər, ana-bacı da əli qoynunda tutduğu xonçaya baxa-baxa qaldı.

Dilini laylalarda, adətini toylarında, ənənəni bəzək vurduğu novruz şəkərburalarında, mənəvi simasını əxlaqında qoruyub saxlayan Azərbaycan qadını üçün Sovet imperiyası yeni planlar cızırdı. Əfqanıstana, Çernobıla kim getməli idi? – bizim oğullar. Tümendə, komsomol tikintilərində soyuğun qabağında kim işləməli, konserv yeməklərin dadına kim baxmalı idi? – bizim oğullar. Rus sovet qardaşlarından dəstək alan, üstəlik silahlandırılan, "Böyük Ermənistan" planını həyata keçirən daşnaklar azərbaycanlıları dədə-baba yurdundan didərgin saldı, döydüyünü döydü, söydüyünü söydü, gözü tutub könlü istədiyini göz görəsi talan etdi. Sonra da bu "qəhrəmanlığından" cuşə gəldi, nə gəldi: Qarabağ torpağına müştəri çıxdı. Xocalı faciəsi tariximizin qanla, ölümlə imzalanmış ən ağrılı səhifəsidir. Çağdaş günümüzlə Qarabağın dünəni arasında sərhəd var: sərhədin bir tərəfində dədə-baba yurdu, igidlərimizin qanı hopmuş müqəddəs torpaqlarımız, boynubükük xarıbülbül, küskün dağlarımız, digər tərəfində isə torpaq quldurlarından alınmayan qisasımız qalıb. Qadınlarımız öz əlilə qurub-bəzədiyi ev-eşiyindən doğmalarından məhrum oldu, ər, oğul, qardaş itirdi, üstəlik namusu taptanmasın deyə özünü qayadan atdı, qucağındakı körpəsinin səsini – nəfəsini kəsdi...

Azərbaycan qadını çadıra sığındı, tələbə yataqxanalarında, pioner düşərgələrində, vaqonlarda özünə "ev" düzəltdi, bala böyütdü, yaşı ötən ərlik qızına baxıb köks ötürdü. Xarici ölkə qonaqlarının, kameraların qarşısında isə yalnız "Vətən" dedi!

Bax, beləcə gəlmişik XXI əsrə. Qazandıqlarımız və itirdiklərimiz tərəziyə qoyulası, ölçüyə gələsi deyil. İstər savadlı ziyalı olsun, istər kəndli, istər alim olsun, istər evdar – hər bir Azərbaycan qadını ən ümdə, müqəddəs bir vəzifəni – zahirən dəyişsə də daxilən milli simanı – adət-ənənəni, mərasimləri, inam və inancları, şirin ləhcəli doğma dili və nəhayət bir çox dünya ölkələri üçün problemə çevrilmiş ailəni qoruyub saxlaya bilməsidir.



# MİLLİ MƏDƏNİYYƏTİMİZİN BÖYÜK ABİDƏSİ

*Əvvəli ötən sayımızda*

**Ofeliya Bayramlı**
*filologiya elmləri namizədi*




Ə.Hüseynzadəyə görə XX əsrlə, Rusiya inqilabı ilə başlanan dövr, bəşəriyyət tarixində yalnız Rusiya üçün... Rusiya imperatorluğu üçün deyil, bütün aləmi-bəşəriyyət üçün... ən həqiqi bir dövrü, səadətin ən müəzzəm, ən həqiqi bir yeni dövrü olacaqdır.

O, "Mən çərxi fələyə də əsir olanlardan deyiləm" amalı ilə bu yeni dövrün "yeni mücahidi"nə çevrilərək, hürriyyət amalı ilə azəri və türk xalqlarının həyatında qəti dönüş yaradır. İctimai-siyasi fikir tariximizə həm azərbaycançılıq, həm turançılıq, həm türkçülük ideologiyalarının banisi kimi daxil olur. Lakin bəzi alimlərimizə görə, Ə.Hüseynzadə "böyük, əzəmətli bir aləmin, ümumiliyin (yəni türk dünyasına işarədir – B.O.) içərisində "...Azərbaycan türklərinin öz müstəqil dünyasını lazımınca görə və göstərə bilməmişdir. Onda belə fərqləndirmə yox idi". Onlara görə Ə.Hüseynzadə "Vətən" deyəndə Azərbaycanı deyil, "Turan"ı nəzərdə tuturmuş. Halbuki, Əlibəydə Vətən-Azərbaycanla, Vətən-Turan arasında fərqləndirmə vardır. O məsləkilə əlaqədar olaraq "vətən" məfhumunu üç mənada işlətmişdir. Bu haqda əsərlərinin birində açıqlama verərək yazırdı ki: "Vətən (Azərbaycan – B.O.) yurdumun dağlarında, obalarında, meşələrində gəzən hər bir çobanın, əkinçinin, odunçunun... alın tərilə çörəyini qazanan hər bir kasıbın, hər bir kürəkçinin, kürəkçi oğlunun qəlbində gizlənən atəşdir. Bu atəş vətənin səadəti yolunda uyuyur. Lakin ani təhlükə, fəlakət baş verən kimi əcnəbilərin, yadların hücumunu gördükcə oyanır, ayılır, qiyamətlər qoparır, vətəni düşmənlərin, əcnəbilərin vücudundan, zülmündən təmizləmədikcə sönməyir. Firəng dilində buna "patriotizm" müsəlman dillərində "həmiyyəti-vətəniyyə" deyilir".

Ə.Hüseynzadədə bu "Vətən-Azərbaycan"dan fərqli, ikinci bir vətən anlayışı vardır. Həmin anlayışa görə, "hübbül-vətən minəl iman" yəni "Vətəni sevmək imandandır". Bu isə bir etiqadda, bir dində olan müsəlman ölkələri arasındakı məhəbbətdir. Bu vətən məhəbbətini isə "atəş" deyil, "nur" adlandırırdı.

Ə.Hüseynzadədə "Vətən" məfhumunun üçüncü mənası "hübbülbəşər"dir. Hübbülbəşər ideyasının "atəş", "nur" mənasında olan "Vətən sevgi"lərindən fərqli mahiyyətini açıqlayarkən yazır ki: "Ancaq o hələ gizli qalıb, hökmünü həyata keçirmək üçün ayrı zamanları, ayrı dövrləri gözləyir. Bu vətəndə yaşayanlar... bu vətənə məxsus tarixin, ədəbiyyatın, etiqadın təsiri sayəsində zaman keçdikcə birləşəcəklər, bir qəlbə girəcəklər, bir vətənin övladı olacaqlar... Vay o biganələrin halına ki, bu arzuya qarşı çıxarlar, o vaxt mən vətənin göylərindən bir od parçası, alov yağmuru yağdıraram. Vətənin hər daşında, hər torpağında minlərcə atəş-paralar peyda edərəm. Bunların hamısını ətrafıma toplayıb "atəş" fırtınaları ilə düşmən ayağının nanəcibliyindən, murdarlığından təmizləyərəm. Çünki mənim bu atəşim atəşlərin ən yandırıcısıdır".

Ə.Hüseynzadənin bu şərhi "Turan" anlayışını açıqlayırdı. Doğrudur, burada o, "Turan" məfhumunu işlətməmişdir. Lakin onun yaradıcılığından bizə məlumdur ki, "Turan sevgisi"ni o, "hübbülbəşər" adlandırırdı.

Göründüyü kimi, Ə.Hüseynzadədə işlənən "Vətən" məfhumunda belə fərqli üç məzmun ehtiva olunmuşdur. Vətən-Azərbaycan, Vətən-islam aləmi, Vətən-Turan.

Hər üç "Vətən" anlayışı Ə.Hüseynzadənin məsləkilə əlaqədar yaradıcılığında vəhdət təşkil edir. Bu anlayışları onun əsərlərində kontekstdən ayırmaq çətin olduğundan bəzi tədqiqatçılar yanlış olaraq yalnız "Vətən-Turan" mənasını götürmüşlər. Halbuki, Ə.Hüseynzadəni turançı ideoloq kimi böyüdən də, tanıdan da onun Vətəni – Azərbaycana məhəbbətidir. Bunu, onun həyatı, yaradıcılığı və Azərbaycanın azadlığı yolunda göstərdiyi xidmətləri də sübut edir.

Azərbaycanda siyasi fəaliyyətə başladığı ilk gündən, onun ilk işi 1906-cı ildə Azərbaycanın milli istiqlal proqramını elan etməsi olur.

"Biz Qafqazlıyıq-Qafqaz əhlinin öz ümuri-idarəsinə özü baxa bilmək üçün lazım gələn muxtariyyət tələb ediriz".

Ə.Hüseynzadə bu yeni tarixi dövrün başlanğıcında milli istiqlal ideyasının yalnız ilk carçısı deyildir. O eyni zamanda həmin ideyanı həyata keçirmək uğrunda dünya şərinə-çarizmə qarşı mübarizədə Şeyx Şamillər kimi təkbətək mübarizədə məğlub olmamaq üçün türk xalqlarını birgə savaşa qaldırmağa çalışmışdır.

**Bizim zəmanəmizdə hər bir millət yalnız fiziki deyil, həm də mənəvi mənada qüvvətli olmağa can atır. Çünki xoşbəxtliyin, səadətin yeganə əsası qüvvətdir (yəni "ittihad"dır). Bu isə biliksiz, vəsaitsiz (yəni dilsiz), yüksək əxlaqi səviyyəsiz (dinsiz) və bir-birinə məhəbbətsiz mümkün deyildir.**

*Əli bəy Hüseynzadə, 1906*

**Ə.Hüseynzadə "ittihad və məhəbbətlə" nəinki sinfi və milli ziddiyyətlər içərisində çırpınan insanların, hətta bütün dövlətlərin "əbədi sülh və məhəbbət" amalı ilə bir qayda-qanun, rifah altında yaşamasını istəyirdi.**

Beləliklə, vətənin – Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizə amalı Ə.Hüseynzadəni "Bütün türk dünyasının mücahidi"nə çevirir. Ə.Hüseynzadənin hürriyyətə çağırışı, hər şeydən əvvəl istiqlaliyyət uğrunda çırpınan bütün türk xalqlarının, türk milli intibahının səsi idi.

O, humanist ideoloq idi. Onun hürriyyət məramı milli olduğu qədər də ümumbəşəri idi.

Ə.Hüseynzadədə hürriyyət məfhumu siyasi mahiyyətli, geniş, çoxcəhətli anlayışdır. "Hürriyyət" – dedikdə hər şeydən əvvəl cəmiyyətdə bütün insanların bərabərliyini nəzərdə tuturdu.

Zəmanəsinin mühüm qlobal əxlaqi-mənəvi problemlərini və həqiqətlərini Ə.Hüseynzadə humanist düşüncələrin, ümumbəşəri ideyaların "Nicat məhəbbətdədir" məramının güclü təfəkkür işığında təqdim edirdi.

Ə.Hüseynzadənin yaradıcılıq yolunu səciyyələndirən görkəmli alim Ə.Mirəhmədov haqlı olaraq yazır: "Onun yaradıcılıq yolu ədəbiyyat, mətbuat, fəlsəfəyə xidmət, sosial kredosu Azadlıq, milli tərəqqi naminə birliyə çağırmaqdır. Bir sözlə, bütün bunların canı, kökü, mayası – Məhəbbətdir! İnsana məhəbbət!.."

Ə.Hüseynzadəyə görə İsa və Muhəmmədin (səllallahu aleyhi və alihi və səlləm) əsrlərdən bəri bəşəriyyətə təlqin etdikləri "Nicat məhəbbətdədir" fəlsəfəsini, yəni "məhəbbəti-mütəqabilə"ni bu gün yalnız "hürriyyət və ədaləti kamilə ilə" təmin etmək olur. Çünki "ədl olursa, hürriyyət də olur, hürriyyət olursa məhəbbət də, ittihad da olur".

Ə.Hüseynzadə "ittihad və məhəbbətlə" nəinki sinfi və milli ziddiyyətlər içərisində çırpınan insanların, hətta bütün dövlətlərin "əbədi sülh və məhəbbət" amalı ilə bir qayda-qanun, rifah altında yaşamasını istəyirdi. Ona görə cahangirlik bir şəxsin bütün aləmə hökmfərma olmasından ibarət deyildir. Cahangirlik ümum insanlara hökumət və sərhəd üçün etdikləri müharibələrə, cəng və cidalara və bunların nəticəsi olan pərişanlıqlara birkərrəlik xatimə çəkmək deməkdir".

Ə.Hüseynzadə "ittihad və məhəbbət" dinlər və məzhəblər arasında da arayırdı. Çünki o, "ittihad və məhəbbəti ayrı-ayrı hər məzhəbin göstərdiyi səvabların hamısından əla biliyordu".

Ə.Hüseynzadənin ədəbiyyata, sənətə dair görüşləri də adibin milli, siyasi məramına xidmət edirdi. Türk xalqlarının, milli hüquqlarının dərk edilməsində, ayılmasında, tərəqqisində ədəbiyyatın roluna ciddi diqqət verirdi. "İlhamat ilə vücuda gələn" şeir və ədəbiyyatı "Maarif" məramının əsas vəsaitlərindən biri" kimi təqdim edir və yazırdı ki: "Füyuzat" məcmuəsinin əsl meydani-mücahidəsi bu təbəqələrdə olacaqdır. Bu vasitələrlə məlumati-fənniyyəmiz tövsi, adət və əxlaqımızı təhzib, əşar və ədəbiyyatımızı təsfiyə, lisanımızı, türkcə lisanımızı islah edə biləcəyiz"...

Bu sözlərdən aydın görünür ki, ədib ədəbiyyat və sənətlə zəmanəsinin nəbzini tutmaq, dövrünün böyük həqiqətlərini ifadə etmək, ictimai mühitin mühüm cəhətlərini göstərmək istəmişdir. Lakin onun "Füyuzat"ın proqram məqaləsində yazdığı: "Bəzi rəhbərlərimiz buna çarəsaz olmaq istədilər, şairlərimizi daha fəna yollara sövq etdilər. Bunlara dedilər ki, canım, bir az da elm və maarifə, sənayeyə məktəbə mədhiyələr yazınız, camaatı elmə, sənətə təşviq ediniz. Biçarə şairlər də məktəbin, elm və sənətin xidmətçisi olmağa başlayıb, şeiri bütün-bütün tədənniyə uğratdılar" – sözlərindən yanlış nəticə çıxaran həmkarlarını tənqid edən akademik M.C.Cəfərov yazırdı ki: "Məgər Ə.Hüseynzadə elmin, maarifin, tərəqqinin əleyhinə idi? Əlbəttə, yox! Bu etirazların mahiyyətinə dərindən fikir verdikdə aydın olur ki, onun Azərbaycan şairlərinin elmdən, maarifdən yazmasına etiraz etməsi bir bəhanə idi. Ə.Hüseynzadə qabaqcıl Azərbaycan ədəbiyyatının, o cümlədən şeirin ideya istiqamətilə razılaşa bilmirdi. Onu narazı salan da bu idi. Yoxsa o elmin, maarifin, məktəbin əleyhinə çıxacaq qədər fanatik deyildir".

Alimin bu sözlərinin təsdiqinə Ə.Hüseynzadənin "Vəlvələ və zümzümə" məqaləsində rast gəlirik. O, üstüörtülü ifadələrlə, rəmzlərlə yeni şeirə münasibətini bildirərkən: "güldən, bülbüldən, meydən bəhs etsək bizə





köhnəpərəst deyəcəklər, – deyə həm epiqonçu şeirə qarşı çıxır, həm də "aləmin vəlvələyi-qiyamətlərini, gurultularını, patırtılarını" tərənnüm edən, "əsarət", "hürriyyət", "zülmət", "qəflət" qafiyələrilə xalqı inqilaba səsləyən şeirləri də "vəlvələ" adlandıraraq "bizim qeylü-qallarla nə işimiz var", – deyə inqilabi ədəbiyyatı "hünər" hesab etməyirdi. Bu mülahizələrdən sonra: "Demək ki, zəmanəmiz nə musiqi, nə rəsm, nə də şeir zamanı deyilsə, o halda zaman nə zamandır?" – qənaətilə Ə.Hüseynzadə məqalədə "Canım, şairliyin hünər meydanı ayrıdır" – deyə özünün ədəbiyyatdakı yolunu təqdim edərək yazır ki: əsl hünər "Balam lay-lay qaydası ilə zümzümə" ilə camaatımızı oyatmaqdır. Ona görə əgər bu şeirlər "zəmanəmizdə modaya girmiş "maarif", "tərəqqi" sözlərindən ibarət olarsa, belə yeni şeirlər yazanlar da "tərzi-cədid" şüarasından hesab olunacaqlar".

Məqalədə ədib "zəmanəyə müvafiq" yeni şeirin məzmununa da toxunmuşdur. O yazırdı ki: "Həp gördüyümüz kimi yazmaqla (inqilabi hadisələrə işarə olunur) tərəqqi olmaz, bir az da düşündüyümüz kimi yazmalıyıq ...belə bir zamanda biz məmləkətdə hürriyyət, müsavat və ədalət vasitəsilə asayiş və intizamın təqərrürünə xidmət edə bilən firqələrin proqramını və hansının insaniyyət nöqteyi-nəzərindən haqlı, müsəlmanlara, türk və tatarlara və qafqazlılara nafe olduğunu mütaliə və təyin etməliyik... Bunu nasıl anlamalıyam?" Bu sual ilə Ə.Hüseynzadə müasirlərinin diqqətini yeni ədəbiyyatın, şeirin məramına yönəldir.

Lakin onun fikrincə bu şeirlər dekadent janrında yazılmalıdır.

Azərbaycan ədəbiyyatında "dekadent" termini ilk dəfə 1907-ci ildə Ə.Hüseynzadənin redaktorluğu ilə nəşr olunan "Füyuzat" jurnalında işlədilmişdir.

Ə.Hüseynzadə dekadentizmi, simvolizmi təbliğ etməklə, bəzi tədqiqatçıların dediyi kimi ədəbiyyatda ictimai ideyanı inkar etməyirdi. Əksinə, Ə.Hüseynzadənin simvolik üslubda yazılmış "Siyasəti-fürusət" əsərini ideya zənginliyi və siyasi kəsərliliyi etibarilə alimlərimiz məzmunca "Əsrin şahnaməsi" adlandırmışlar. Janrını isə müəyyənləşdirmək, mümkün olmadığından onu gah povest, gah "roman", gah da "elmi, fəlsəfi, ədəbi traktat" kimi təqdim etmişlər.

A.Şaiq onun bu fəaliyyətindən danışarkən yazırdı ki: "Əli bəy Azəri türklərinin ona böyük ehtiyac hiss etdiyi zamanda yetişmişdi. Azərbaycan ədəbiyyatını əcəm və rus təsirindən qurtarmaq, ona nə isə bir ruh, yeni bir cərəyan, müasirlik gətirmək və ədəbiyyatı məhdud çərçivədən çıxarmaq istəyirdi".

Ə.Hüseynzadə, ilk dəfə olaraq ədəbiyyatla türk xalqları arasında böyük və kiçik sədləri uçurur.

"Füyuzat" səhifələrində türk xalqlarından: onların tarixindən, ədəbiyyatından, mədəniyyətindən böyük iftixar hissilə danışır, oxucularda bu ədəbiyyata dərin məhəbbət oyatmağa çalışırdı. O, yazırdı: "Türkdə, türklükdə, türk qövmünün fitrətində bir əsəri-düha, bir istedadi-fövqəladə vardır: meydan müsaid, məkan və zaman müvafiq olduqca, o istedad, elm və hünər aləmində ətrafa bədiələr saçar, xarüqələr yağdırar: o düha cahangirlik asimanında yıldırımlar kibi bərq vurar, Teymurləng kibi atəşparələr nisar edər, o atəşi-zəka elm və fənn çəmənlərində şükufələrə, meyvələrə təhəvvül edər, Uluq bəy kibi nəxli-məalilər yetişdirər, o, şövqi-məali hikmət və fəlsəfə bəhrində mövcəni əmaq olur, sahili bəşəriyyətə Farabi kibi dürdanələr atar, o, əbri-tüluat övci-balayi-mənayə doğru süud edib, orada Mollayi Rumi, Əlişir Nəvai, Füzuli, Kamal, Hamid şəklində təcəssüm eylər, meydani süxənə əbri-neysan kibi dürərbar və gövhərriz olur".

Ə.Hüseynzadə bu fəaliyyətilə bütün türk ədəbiyyatında tamamilə yeni bir mərhələ açır. Bu ədəbiyyat, bütövlükdə milli vicdanı və milli şüuru oyatmağa yönələn, millət və vətən, türk və turan sevgisinin tərcümanı olan bir ədəbiyyat idi. Tarixin heç bir dövründə türk xalqları, onların müqəddəratı, keçmişi, bu günü və gələcəyi ilə bağlı məsələlər ortaya qoyulmamışdır.

Ədəbiyyat və sənət qarşısında irəli sürdüyü və əsaslandırdığı tələblər onu romantizm cərəyanına bağlayır.

Ədəbiyyatda açdığı bu yolu Azərbaycan şairləri də davam etdirərək, "Füyuzat" məcmuəsində romantizm ədəbi məktəbini qərarlaşdırırlar.

Ə.Hüseynzadə "Füyuzat" jurnalı ilə türk xalqlarının azadlıq və milli istiqlal ideallarını turançılıq məfkurəsilə şüurlara həkk etdirməyə çalışdığı kimi, həmin idealları ədəbi romantik lövhələrdə də açıb göstərməyi də vacib bilir, "Mirzə Fətəlidən başlayaraq davam edən realist ədəbiyyatın qarşısına yeni bir ədəbi cərəyan, romantizm cərəyanını çıxarır. O, bu məcmuə ilə "həmin ədəbi cərəyanın nəzəri-estetik prinsiplərini ortaya qoyur, ədəbiyyatı həm şəkil və həm də mövzu etibarilə zənginləşdirir".

Ə.Hüseynzadə "Füyuzat"da iştirak edən ziyalıların görüşlərini də məlum bir istiqamətə yönəltmişdir.

"Füyuzat" jurnalı və onun ətrafında mərkəzləşmiş romantizm ədəbi məktəbi və C.Məmmədquluzadənin rəhbərlik etdiyi mollanəsrəddinçilər arasında ideya cəhətdən yaxınlıq olsa da bu sənətkarların fərdi yaradıcılıq xüsusiyyətlərindən irəli gələn ciddi fərqlər vardır. Lakin bununla belə "Molla Nəsrəddin" realistlərin məfkurə, sənət dünyasının təşəkkülündə hansı işi görmüşdüsə, "Füyuzat" da, Ə.Hüseynzadə də Azərbaycan romantizminin M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət və S.Səlmasi kimi qüdrətli sənətkarlarının yetişməsində eyni müstəsna əvəzsiz bir xidmət göstərmişdi.

Bu baxımdan, "Füyuzat" dünya mədəniyyətinin (Xəyyam, Hafiz, Sə'di, Mollayi-Rumi, N.Kamal, T.Fikrət, Şekspir, Şiller, Höte, V.Hüqo, Bayron və.b) istibdada qarşı mübarizə, azadsevərlik hümanizm ideyalarının öyrənilməsi və təbliği işində böyük rol oynamışdır.

Ə.Hüseynzadə və "Füyuzat" məcmuəsi istər inqilabdan əvvəl, istərsə də inqilabdan sonra 1930-cu illərə qədər müasirləri (C.Məmmədquluzadə, Qafur Rəşad, Ə.Müznib, M.S.Ordubadi, A.Səhhət, A.Şaiq, M.Hadi) tərəfindən yüksək qiymətləndirilmişdi. Lakin 1930-cu ildən 1990-cı illərə qədər sovet hakimiyyəti illərində yazılmış elmi-tədqiqat əsərlərində Ə.Hüseynzadə "burjua ideoloqu", "Füyuzat" məcmuəsi isə "mürtəce mətbuat orqanı" kimi səciyyələndirilmişdir. Amma bu böhtanların heç biri türk ziyalılarının 70 ildə qəlbində gizli qalan həqiqətləri batıra bilməmişdi. Dünya dəyişən kimi dərhal, 1990-cı illərdə millətimizin ictimai-siyasi həyatında yaranan dönüş özünü ilk növbədə Əli bəy Hüseynzadəyə münasibətdə göstərdi. Bu da təsadüfi deyildir. Çünki, Ə.Hüseynzadənin amalı Azərbaycanın milli istiqlalı idi.

1994-cü ildə Ə.Hüseynzadənin əleyhinə çevrilmiş sükutu professor Rəfiq Zəka "Unudulmuş dahi" adlı dəyərli əsəri ilə pozdu. Bu əsər, Ə.Hüseynzadəni azərbaycanlı oxucularına "XX yüz il türk sənət dünyasının günəşi" kimi təqdim edir. Bir az sonra professor Yaşar Qarayev Ə.Hüseynzadə haqqında yazır: "Əli bəy yalnız Azərbaycanda yox, bütün türklük miqyasında qövmü özünüdərkin, istiqlal düşüncəsinin təkcə rəssamı deyil, həm də memarıdır... Məhz bu mənada nəinki Məhəmməd Əmin və Nəriman Nərimanov, üstəlik Ziya Göyalp və Kamal Atatürk də Əli bəy Hüseynzadədən başlayır".

Qısa müddətdə ədibin görüşlərinin öyrənilməsi və irsinin nəşri sahəsində xeyli işlər görülür.

Ə.Hüseynzadə irsi yalnız tarixi deyil, müasir irsdir. Bu irs, müasir səslənən misilsiz xəzinədir. Məcmuənin nəşri tarixindən yüz il keçsə də, Ə.Hüseynzadə irsini öyrənməyə bu gün də ehtiyac var.

"Füyuzat"da təbliğ olunan ideyalar bu gün də son dərəcə aktual və əhəmiyyətlidir. Yüz il bundan əvvəl zülmət səltənətində şimşək kimi çaxan "Füyuzat"ın təlqin etdiyi yeni ictimai-siyasi və fəlsəfi ideyalardan vahiməyə düşən, sarsılan mürtəce qüvvələr onu boğsa da parlaqlığını itirmədi. Əbdülhəmid istibdadı və Stalinin irticası dövrünü Əlibəy Hüseynzadə obrazlı şəkildə belə səciyyələndirmişdir: "Ucundadır dilimin həqiqətin böyüyü, nə qoydular yazayım, nə kəsdilər dilimi". Buna baxmayaraq, 1906-cı ilin noyabrından 1907-ci ilin noyabr ayınadək 32 nömrəsi çap olunan "Füyuzat"da Əlibəy Hüseynzadə "həqiqətin böyüyü"nü deyə bildi. Beləliklə, XX əsrin əvvəllərində "Əli bəy Hüseynzadə və "Füyuzat" dövrü" adlanan ədəbi, siyasi hərəkat yarandı. Sovet hakimiyyəti illərində, 70 il qara buludlar çulğasa da "Füyuzat"ın işıqlı ideyaları yaşadı, unudulmadı. Bu gün ədəbiyyatşünas alim, publisist Teymur Əhmədovun "Füyuzat" adı ilə məcmuəni bərpa etməsi, onu 33 nömrədən başlayaraq nəşrə başlaması bu fikri təsdiq edir.

Əgər XX əsrin "Füyuzat"ı Azərbaycan xalqının öz taleyinə sahiblik duyğuları oyananda meydana çıxmışdırsa, bu günün XXI əsrin "Füyuzat"ını da Azərbaycan xalqının uzun illərdən sonra bərpa etdiyi, sahib olduğu müstəqil dövlətin möhkəmlənməsi, qorunması zərurəti ortaya çıxarmışdır.

Çünki, bu gün türkçülük ideyaları türk xalqlarının qəlbini fəth etdiyi, bütün türk dünyasının üzərində əzəmətlə dalğalandığı bir zamanda yeni "Füyuzat" məcmuəsi qəlbini vətən məhəbbəti və birlik hissilə döyündürərək, qarşıda yeni, böyük vəzifələr qoyacaqdır.

Bu yolda, XXI əsrin "Füyuzat"ına uğurlar diləyirik.

"Füyuzat"ı öyrənmək, xalqın milli istiqlal uğrunda mübarizə tarixini, azadlıq, həqiqət yollarını öyrənmək deməkdir.

"Füyuzat"ı öyrənmək, bəşər mədəniyyətinə çox qiymətli sərvət vermiş, zəngin və qədim mədəniyyətə sahib olan böyük bir millətin təfəkkür xəzinəsini öyrənmək deməkdir.





***Bunlar cənnətdən enmiş təzə bir güldürlər.***
***Ona görə gülür, sevinir və fərəhlənirlər.***
***Yer onlara sinəsini açmış, ruzigarlar saçlarını oxşamağa gəlmiş,***
***günəş damarlarındakı qanı coşdurmağa müntəzir, sevinclərinə sevinc,***
***hisslərinə yeni dərinlik qazandırmış, ulduzlar buna qibtə edərkən***
***bir şəfqət əli onlara sahib çıxmış.***
***Dünyanın bütün uşaqlarının bu sevgiyə, bu yaxınlığa,***
***bu həyəcana ehtiyacı var.***

# Duyğuların Sultanı



# Sevgi

Abdullah Gənc

İnsanlığın həqiqi göstəricisi və meyarı sevgidir. Sevgi güc və qüvvət, ümid yeridir. Sevgi könül torpaqlarında yetişən fitrət gülüdür. Ətri könülləri fəth edər... Sevginin döyərək açmadığı qapı, gedərək çatmadığı hədəf, baxaraq oxşamadığı qəlb yoxdur. Ruhların sonsuzluq qazanmasına vəsilə, insanı taclandıran ünsürdür.

Sevgi yolu müsafirlərinə açıqdır, bu yolda olmayanın zirvələşməsi imkansızdır. Yüksəlmənin yolu sevmək və sevilməkdədir. Sevgisiz qəlb, tarlası susuz çöllər kimidir. Sevgi könül dərmanı, insanın ruhunun qidasıdır. Qəlbin ritmini dəyişən ünsürdür. İnsan təbiətində ən böyük fırtına yaradan, düşüncələri, baxışları dəyişən, insanı yenilməz, sarsılmaz edən Sevgidir. Sevgi qəlbi həlimləşdirir, aşılmaz sədləri aşılası hala gətirir və bağlı könül qapılarını bir göz qırpımında açır.

Ağaclar başında üzümüzə təbəssüm bəxş edən meyvələr, dilsiz-dodaqsız gülümsəyən güllər, əllərini göy qübbəsinə dua edircəsinə açan çiçəklər bunu sevdikləri üçün edirlər. Sevgi ömür payı, ən sadiq sirdaş, əminlik çırağı, fətanət nuru saflardan saf bir büllurdur. Sevgiylə qanadlanan kainatın dərinliklərinə müsafir olar, zirvələrdə dolaşar, insanlığa mərhəmət gözləriylə baxar. Sevənin təbəssümü simasından, sədaqəti vəfasından, isməti də həyasından az olmaz.

Yer sinəsini səmaya sevərək açar. Səma da buludlarıyla yerə sevgiylə rəhmət endirər. Günəş də ətrafındakı bu vəhdətə sevdiyi üçün qatılar. Sular, sellər dənizlərə, sevginin həyəcanıyla qovuşar. Qovuşdurmaq, vəhdət, qardaşlıq yalnız sevgi çeşməsindən içilməklə olar.

Çiçəklər yarpaqları üzərində şeh taxtını sevgiylə qurduğu kimi, həmçinin quşlar yuvasını, heyvanlar da balasını, sevgiylə mühafizə edərlər. Ruhundakı sevgini anlamayanlar başqasının dərdiylə dərdlənməzlər. Dərdi anlamayan ona şərik də ola bilməz.

Sevgi qəlbə yerləşdikcə kin, nifrət damarlarını söküb atar, sahibinin mənəvi dünyasında müsbət izlər qoyar. Ana sevgisiylə şəfqətin qibləsinə çıxar və övladı üçün canından keçər. Qəhrəman əsgər də sevgisinin gücüylə millətinin yolunda şəhidlik zirvəsini fəth edər, ölümsüzlük abidəsiylə sinələrdə taxt qurmağa müvəffəq olar.

Sevgi, düşmən əleyhinə yenilməz silah və hər cür könül qapısına düşən bir açardır. Ruhlara yol, sinələrdə taxt, candan keçmək, qəhrəmanlıq, əbədiləşmək "sehirli fitrət gülü" – yəni sevgiylə mümkündür. Ona haqqıyla sahib olanlar cahanın açılmaz, sirlərini açacaq keçilməz dağlarını keçəcəkdir.

İnsanlıq tarixində ən böyük əxlaq və mənəviyyat məktəblərinin qurucuları peyğəmbərlər olmuşlar. Onlar təbliğdən öncə dəvət etdiklərinin könül bağçalarına sevgi toxumlarını əkmiş, daha sonra toplumları, qövmləri haqqa döndərmişlər.

Sevgi peyğəmbər yoludur. Bu yolda olanlar həyat sıxıntısını rahat aşarlar. Çünki sevgi bəsirət gözünün işığı və fitrət nurudur. Bu nur insanın duyğularının sultanıdır. Sevgi qəlbdə hakimiyyətini qurdumu, deməli, çətinliklər həll yolunu tapacaq. Ruhu sevgidən yoğrulmuş insan dünyaya həris olmaz. Onun nəzərində dünya da, axirət də Allahındır. Başqasının mülkünə göz dikməz. Əsil mülk sahibinin lütf etdiklərinin qədrini bilər və israf etməz.

"Sevgi gözü kor edər" – demişlər. Kor edən hansı sevgidir? Allah sevgisi, yoxsa dünya? Göz könülün həm aynası, həm də elçisidir. Könül də Allahın evidir. Könül evini, Qəlbi dünya sevgisi və məşğuliyyətləri ilə dolduranda, yəni dünyanı sevəndə gözlər korlaşar. Amma dünyanın sahibini – Allahı sevəndə bəsirət açılar, ruh ölməzlik qazanar və kainat oxunası bir kitaba çevrilər.



# Humanist ideyalar carçısı

# Seyid Məhəmmədhüseyn Şəhriyar

(1906-1988)

*Teymur Əhmədov*
*Professor*

**Şəhriyarın "şeirləri mənə əczəxanasından alınan elə ərməğandır ki, bu hər varağı bahar güllərinin ətrini, bənövşənin rayihəsini həzin xatirələrdən silib aparır, yaralı ürəklərin döyüntülərini sakitləşdirir...**

Seyid Məhəmmədhüseyn Şəhriyar XX əsr Azərbaycan və İran poeziyasının ən qüdrətli sənətkarlarından biri kimi Yaxın və Orta Şərq ölkələrində tanınmışdır. Hələ sağlığında onun əsərləri İran, Azərbaycan, Türkiyə, İraq, Türküstan və digər ölkələrdə geniş yayılmış, ədəbi prosesə dərin təsir etmişdir.

Şəhriyarın lirik şeirlərinə, "Heydərbabaya salam" poemasına saysız-hesabsız nəzirələr yazılması, yalnız onun unikal ədəbi hadisə olmasında deyil, həm də xalqların tarixi taleyinə ustad şairin dərindən bələdliyində, onların taleyüklü, acılı-şirinli həyatını, arzu istəklərini, gələcəyə dərin inamını əks etdirməsində idi.

Məlum olduğu kimi, klassik ədəbi irsin ənənələrindən bəhrələnən şair şeirə-sənətə öz sözü ilə gəlmiş, ölməz sənət nümunələri yaratmışdır. Ona görə də Şəhriyar poeziyası sərhəd tanımamış, zaman-zaman xalqlar arasında yayılmış, milyon-milyon ürəklərdə özünə yer tapmışdır.

Şəhriyar yaradıcılığı İranda olduğu kimi, bir çox Şərq ölkələrində, həmçinin Azərbaycanda ədəbi ictimaiyyətin diqqətini cəlb etmiş, dövri mətbuatda məqalələr, rəylər, elmi tədqiqat əsərləri yazılmış, şeirləri kütləvi tirajla nəşr olunmuşdur.

Seyid Məhəmmədhüseyn Şəhriyar 1906-ci ilin baharında Cənubi Azərbaycanın Təbriz şəhərinin Bağmeşə bölgəsində Hacı Mirağa Xoşginabinin ailəsində anadan olmuşdur. Şəhriyarın təbirincə desək, Hacı Mirağa Xoşginabi "həddindən artıq şeir və musiqi sevən", "gözəl xəttat", "Hüquq elmində və məhkəmə işlərində çox bilikli və təcrübəli", "yoxsul və məzlum insanların dadına çatan", "son dərəcə pak, insaflı və ədalətli" birinci dərəcəli məhkəmə vəkili, mötəbər şəxsiyyət kimi tanınmışdır. Şəhriyarın anası Kövkəb xanım isə evdar qadın idi. O kiçik yaşlarından Şəhriyarda şeir-sənətə həvəs oyatmışdı, xalq ədəbiyyatına dərin bələd, sinədəftər idi. Şəhriyarın uşaqlıq illəri Xoşginab və Qayış-qurşaq kəndlərində keçmişdir.

Şəhriyara yazıb-oxumağı atası Hacı Mirağa öyrətmişdi. İlk müəllimi kənd mollası İbrahim şəxsi məktəbində ona "Qurani-Kərim"i və Sədi Şirazinin "Gülüstan"ını tədris etmişdi. Sonra Şəhriyar "Füyuzat" və "Müttəhidə" mədrəsələrində ibtidai, "Firdovsi" və "Məhəmmədiyyə" məktəblərində orta təhsil almışdır. Onun ilk mətbu şeiri Tehranda nəşr edilən "Ədəb" jurnalında çıxmışdır. Şəhriyar ilk qələm təcrübələrini də Tehran Darülfünunda təhsil aldığı dövrdə yazır. Tehran ədəbi-ictimai mühiti gənc Şəhriyarın dünyagörüşünə ciddi təsir göstərir. Şəhriyar 1924-cü ildə Tehran Darülfünunun tibb fakültəsinə daxil olsa da ədəbi mühitdən ayrılmır. İranın tanınmış ziyalıları və şairləri Seyid Əbülqasım Şəhriyar, Lütfulla Zahidi, Həbib Səlmasi, Qəmərülmülk Vəziri, Məlikül-şüaraye Bahar, Arif Qəzvini və İrac Mirzə ilə yaxından tanış olur. Şəhriyar məşhur xanəndə Əbülhəsənxan İqbalüssəltənədən musiqi, muğam dərsi alır, Əbülhəsən xan Səbadan setar musiqi alətində çalmağı öyrənir.

Milli azadlıq hərəkatının irtica qüvvələrin təzyiqi ilə süqut etməsinə baxmayaraq demokratik meyillər, milli özünüdərketmə və təəssübkeşlik ovqatı ilə ilhamı pərvəriş tapan şairlər öz şeirlərində xalqı zülmə, haqsızlığa, əsarətə qarşı barışmazlıq ruhunda tərbiyə edirdilər. Bunlar istər-istəməz Şəhriyarın dünyagörüşünə, onun ilham pərisinin romantik məhəbbət sehrindən uzaqlaşmasına, həyat hadisələrinə dərindən nüfuz etməsinə təsir göstərirdi. Qaynar gənclik dövrü öz şeirlərini "Behcət" təxəllüsü ilə yazan Şəhriyar ədəbi mühitdə ümidverici gənc şair kimi rəğbət qazanırdı. Onun bu zaman qələmə aldığı məhəbbət şeirlərində ictimai motivlər güclənirdi. Tehran mətbuatında, xüsusən "Ərməğan" jurnalında vaxtaşırı çap olunan şeirlərdə gənc şairin püxtələşməsi, ictimai hadisələrə ayıq, həssas münasibəti açıq-aşkar duyulurdu. Şəhriyarın istibdad rejiminə qarşı kütləvi iğtişaşlarda iştirakı, azadlıq mücahidlərini vəsf etməsi, cəsarətli çıxışları mürtəce hakim dairələri narahat edirdi. Odur ki, 1929-cu ildə Tehran Darülfünunun son kursunda, buraxılış imtahanları ərəfəsində Abbasabad məhəlləsindəki xəstəxanada təcrübə keçdiyi zaman həbs olunub, Dəjban həbsxanasına salınmış, az sonra Nişabur şəhərinə sürgün edilib nəzarət altında saxlanmışdır.

Şəhriyarın ilk şeirlər toplusu – "Dibaçə" kitabı "Xəyyat" nəşriyyatında kütləvi tirajla buraxılır. Məlikül-şüəraye Bahar, Pejman Bəxtiyari və professor Səid Nəfisi kitaba yazdıqları "Ön söz"də iyirmi yeddi yaşlı gənc şairin bədii yaradıcılığına yüksək qiymət verir, onun gələcəyinə böyük ümid bəslədiklərini bildirirdilər.

1929-1935-ci illərdə Şəhriyar Nişabur və Xorasanda Notariat kontorunda mühasib işləmişdir. 1935-ci ildə sürgündən qayıdan Şəhriyarın Təbrizə getməsi yasaq edildiyindən Tehranda "Fəlahət" bankında iş tapır. Burada sərt sürgün qaydalarına uyğun nəzarət altında saxlanan şair atası vəfat etdiyi zaman (1937) dəfn mərasimində iştirak etmək üçün Təbrizə buraxılmamışdır. O öz ağır dərdini "Atamın matəmində" şeirində ifadə etmişdir.

Atasının ölümündən sonra başsız qalan ailə də Təbrizdən Tehrana köçüb onun himayəsində yaşayır. Maddi və mənəvi sıxıntı girdabında əzab çəkən Şəhriyar ruhi sarsıntı keçirir. Əsəb xəstəliyinin böhranlı mərhələsində güşənişin həyat keçirməyə can atan Şəhriyar "şeirdən, musiqidən və bütün dostlarından uzaqlaşaraq, Tehranda əvvəlcə ruh axtaranlar, sonra dərvişlər cəmiyyətinə – onun Zəhəbiyyə təriqətinə daxil olur, tərkidünyalığa qədəm qoymaq istəyir" (Hökümə Billuri. Məhəmmədhüseyn Şəhriyar. Bakı, "Elm", 1983, səh.25).

Lakin yaxın dostlarının müalicə etdirməsi və qayğısı Şəhriyarı mənəvi sarsıntıdan, tərkidünyalıq meyillərindən xilas edir. Ana nəvazişi, qayğısı da şairin özünəqayıdışına ciddi təsir göstərir. Şəhriyar özü bu barədə yazır:

"Rəhmətlik anam Tehrana gəldiyi vaxtdan onun sehirli nüfuzunun təsiri ilə yaddaşında qoruyub saxladığı keçmiş xatirələrini mənə danışmaqla şirin nağıllar mənim yavaş-yavaş ölü ruhuma can verdi. Rəngləri solmuş xatirə lövhələri yenidən öz keçmiş rəngləri ilə mənim zehnimdə canlandı.

... Mənim dərd və işgəncə yatağında əgər anam mənə qulluq etməsə idi və mənim fiziki cəhətdən qüdrətimi özümə qaytarmasa idi, çox gec ola bilərdi. Onun mənə qulluq etməsindən sonra sanki həyata qayıtdım. Əlim anamın əlində keçmiş şirin xatirələr mənim daxilimdə gizli bir büsat yaradaraq təskinlik və təsəlli şərabını ruhuma axıtdı".

Bundan sonra Şəhriyarın yaradıcılığında ciddi dönüş yara-

nır. Onun əsərlərində ictimai-siyasi məzmun, xalq həyatının təsviri güclənir. Həmvətənlərinin qəhrəmanlıq salnaməsi, milli özünüdərk, soykökü, mənəvi dəyərlər, sadə adamların gün-güzəranı, əsarətə, haqsızlığa və cəhalətə qarşı mübarizəsi onun şeirlərinin leytmotivinə çevrilir. Şəhriyarın yaradıcılığının uğurlu dönüş mərhələsi onun ictimai-siyasi məzmunlu dəyərli şeirləri, eləcə də "Heydərbabaya salam" poeması ilə səciyyələnir. Bu əsərlər Cənubi Azərbaycan ədəbi aləmində böyük əks-səda doğurur, doğma ana dilində yeni ictimai-siyasi məzmunlu şeirlərin yaradılmasına təkan verir, ümumiyyətlə Şəhriyar ədəbi məktəbinin təməlini qoyur.

1952-ci ildə anası Kövkəb xanımın Tehranda hazarşahtab xəstəxanasında vəfatı şairi ağır, üzüntülü bir vəziyyətə salır, o işdən çıxır, Təbrizə köçür, burada Məqsudiyyə məhəlləsində məskunlaşır.

Şəhriyar "Ziraət" bankında işə düzəlir, bir ildən sonra bibisi qızı Əzizə xanımla ailə həyatı qurur. Lakin şairin Təbrizdə maddi və mənəvi sıxıntı içərisində yaşaması, yaxın dost və tanışlarını itirməsi, xalqın acınacaqlı həyatı onda tərki-dünyalıq ovqatı yaradır, adamlarla ünsiyyətdən üz çevirir.

Şəhriyarın güşənişin həyat keçirməsi xalq arasında geniş əks-səda doğurur, şayiələrin yayılmasına səbəb olur. Belə bir vaxtda "Seid o siyah" jurnalının əməkdaşı Ələsgər Zərrabi Təbrizə gedib şairlə şəxsən görüşür, ondan müsahibə alır. "Şəhriyar ilə görüş" adlı müsahibə şairin böhranlı əhval-ruhiyyəsinin xarakteri, həyat tərzi və şəxsi durumu barədə tam təsəvvür yaradır. Müsahibə şair haqqında şayiələri söz-söhbətləri rədd edir. Ələsgər Zərrabini yoxsul otağına təvazökarlıqla dəvət edən Şəhriyar zəif və yorğun görünür. Saçları pərişan, "rəngi qaçmış ay üzünün nuru azalmış", rəngi-rufu qaçmış, gözləri dərinə düşmüş şair heç kəsi qəbul etməyib qapalı həyat keçirməsi səbəbini belə şərh edir:

"Bilirsiniz, hər kəsdən gərək öz əməlini tələb etsinlər. Şairin əsəri onun kitabıdır. Onun özü, şəxsi və xüsusi həyatı ilə nə işləri vardır. Hamı bilir ki, hər bir mütəfəkkir və xüsusilə şairin dincliyi olmalıdır. Bir ömür tənhalığa adət etmiş adam adətən özgələrin varlığından, xüsusilə onun dincliyini pozan namünasib adamdan narahat olur. Həm də sənətkar təbimin tələbi ilə ömrümün əvvəlindən təkliyi və güşənişinliyi sevmişəm.

Tehranda iki-üç sənətkardan başqa digər əlaqə saxladığım adam yox idi. Özümün güşənişinliyim barədə deməliyəm. Fars şeirinin zəkası ürfandır. Ürfana əli çatmayan hər kəs yüngül bir şair olacaqdır. Siz Sədinin "Gülüstan"ının müqəddiməsini oxusanız onda mənim nə üçün belə olduğumu başa düşərsiniz. Bilərsiniz ki, nə üçün güşənişin oldum. Sədi elə bir hala düşmüşdü ki, əslən heç kimlə danışmırdı. Mənim buna iqtidarım yoxdur. Amma, onun yolu budur. Arif adam öz hərəkət və rəftarında bütün xarici aləmdən əlaqəsini kəsməlidir ki, özünün məqsədinə yaxınlaşsın".

Müsahibədən göründüyü kimi, Şəhriyarın ürfanı seçməsi onun yaradıcılıq axtarışları ilə sıx bağlı olmuşdur. Kamil insan problemi onu həmişə düşündürmüşdür.

Şəhriyarın köhnə dostu şair Bulud Qaraçorlu Səhəndin təkidli tələbini qəbul edib Tehrana getməsi, onun evində keçirilən şeir gecəsi, Cavad heyətin, Sahirin, Savalanın, Sönməzin onu qayğı ilə əhatə etməsi təsirsiz qalmır. Şəhriyar ailəlikcə Tehrana köçür, ömrünün son 16 ilini burada yaşayır. Tehrandakı Mehr xəstəxanasında ürək və ağciyər xəstəliyindən müalicə olunan Şəhriyar 1988-ci il sentyabrın 18-də dünyasını dəyişir. Onu öz vəsiyyətinə görə Təbrizin Surxab məhəlləsində "Məqbərətüş-şüəra" qəbiristanlığında dəfn edirlər.

Şəhriyar gənclik illərində ədəbi ictimaiyyətin diqqətini istedadlı şair kimi cəlb etmişdi. Onun qəzəl və qəsidələri ilə ilk tanışlıqdan sonra Məlikul-şüəraye Bahar Şəhriyarın "tərənnüm üslubunun yeni" olduğunu, hər qəzəlində "yeni mənalar", obrazlı "şirin tərkiblər" yaratdığını müşahidə etmişdir. Şəhriyarın 1929-cu ildə Tehranda Xəyyam kitabxanası tərəfindən çap edilmiş ilk şeirlər toplusuna – divanına yazdığı müqəddiməsində Məlikul-şüəraye Bahar həyatının gənclik çağlarında Şəhriyarın gözəl təbli "qüdrətli bir şair" kimi yetişdiyini, onun "yüksək zövqə, nisgilli təbə, ehsasatlı, vurğun, zərif qəlbə, sadə, özünəməxsus təbiətə "malik" olduğunu qeyd edir. O, Şəhriyarın "əlverişli və rəğbətli" mühitdə "gözəl uğurlar" qazanacağına əminliklə yazır: "Bu istedadlı gəncin sənətinin daha yaxşı və daha yüksək səviyyəli gələcəyi vardır".

Gənc Şəhriyarın şeirləri Səid Nəfisinin də diqqətini cəlb etmişdir. O, "Tərcümeyi-hal və müqəddimə" adlı yazısında Tehran Tibb məktəbinin son kursunda təhsil alan 27 yaşlı Gənc Şəhriyarın öz divanında "dərin zəka və sonsuz təbii istedadını nümayiş" etdirməsini yüksək qiymətləndirmişdir.

Səid Nəfisə görə, "şair o kəsdir ki, ağlatsın və göz yaşlarını məhzun ürəklərə şəfa verən vasitə etsin. Əsil böyük şair sağlam adamların ümid diyarına görüşə gələnlər, şadlıq məclisinin saqisi olanlar yox, naümid xəstələrin əhvalını öyrənməyə gedən, dərdli yataqlarının yanında oturan adamlardır".

Poeziyaya bu mövqedən yanaşan Səid Nəfisi Şəhriyarın "Kədər doğuran təranələr" toplusunun "Pərvanənin ruhu" şeir dəftərçəsinin onun köksündə ataş, böyük bir ocaq alovlandırdığını söyləyir. Onun fikrincə, kitabın "hər varağı xəzanın tanıdığı yarpaq, səhər nəsiminin qarət etdiyi bir şükufə idi".

Səid Nəfisi yazır: Şəhriyarın "şeirləri mənə əczaxanasından alınan elə ərməğandır ki, bu hər varağı bahar güllərinin ətrini, bənövşənin rayihəsini həzin xatirələrdən silib aparır, yaralı ürəklərin döyüntülərini sakitləşdirir...

Şairin divanı elə bir səhifədir ki, tərk edilənlərin, tənhaların göz yaşları ona tökülür və matəmlərin göz yaşları onu yuyur. Elə bir aynadır ki, dünyanın gözəlləri öz surətlərini onda görürlər, təravət və gəncliyin sübhündə ona baxıb gülümsəyirlər".

XX əsrin 50-ci illərinədək Şəhriyarın yazıb yaratdığı məsnəvi, qəzəl, qəsidə – bir sözlə bütün əsərləri şairin nəşr olunan üçcildliyində toplanmışdır. Bu külliyatı tərtib və nəşr etməyi özünə borc bilən Əli Zöhəri ikinci cildə müqəddiməsində (1949) yazır ki, sənətkar şairin şeirlərinin hamısı eyni səviyyədə olmasa da üçcilddə toplanmış "hər cəhətdən əla, misilsiz" şeirlər "farsdilli poeziyanın ən yaxşı nümunələridir". "Şəhriyarın poetik sözləri, təfəkkürü, şairanə təsəvvürləri o qədər zəngindir ki, bir neçə çatışmazlığı, o da nisbi qüsurları öz təsiri altına ala bilər".

Şəhriyara İran ədəbiyyatşünaslığında verilən qiymət onun fars dilində yaratdığı heyrətamiz, misilsiz, böyük sənətkarlıq nümunələri olan poeziyası ilə sıx bağlıdır. Şəhriyarın farsdilli şeiri onu İran poetik fikir çələnginin "baş gülü" kimi səciyyələndirməyə haqq qazandırır. Heç təsadüfi deyildir ki, fars ədəbi ictimaiyyəti Şəhriyarı müasir dövrün Nizamisi, Sədisi və Hafizi hesab edirlər. Əbdüləli Karəng "Heydərbabaya salam" poemasının birinci cildinə müqəddiməsində yazır: "Şəhriyar böyük və əfsunkar şairdir. Şəhriyar şeirin böyük ustadlarındandır. Şəhriyar müasir İranın ən böyük ustad və yeganə həqiqi, həssas şairidir. Şəhriyar təkcə İranın deyil, bütün Şərqin fəxridir..."

Ehsan Təbəri İran yazıçılarının I qurultayında Şəhriyarın farsca yazdığı qəzəllərin məziyyətlərindən söhbət açarkən demişdir: "Şəhriyarda sənətsevərlik qüdrəti var".

Yədulla Röyayi "Rövşənfikir" jurnalında (1346, N724) "Türk farsca şeir yaza bilməz" deyə düşünən həmkarlarına cavab olaraq yazırdı: "Şəhriyar farsca yaxşı qəzəl yazan sənətkarlardandır. Onun şeiri bizim dilimizdə qəzələ doğru keçid qapısı açmışdır".

Məhəmməd Pərvin Qonabadi Şəhriyarın fars ədəbiyyatı üçün son dərəcə misilsiz xidmətini, onun müasir fars poeziyasında mövqeyini müəyyənləşdirməyə çalışır. "Bünyad" jurnalında (N5, səh.36) yazır: "Şəhriyar fars qəzəlinin görkəmli sənətkarlarından biridir. Ana dilinin Azəri olmasına baxmayaraq İran şeirini bərpa etmək sahəsində çox böyük xidmətlər etmiş, yaratdığı bədii əsərlər öz möcüzəvari ahəngləri ilə Sahibdən sonra ölümə doğru gedən fars qəzəlini yeni zirvəyə yüksəltmişdir".

İran klassik ədəbiyyatının əsasını təşkil edən farsdilli mənzum əsərlərin keçdiyi tarixi inkişaf yolu, yüksəlişi və bu ədəbi prosesin fonunda poeziya məhrabında işıqlı ulduz kimi parlayan Şəhriyarın müasir dövrün ideal şairi səviyyəsinə qalxması Məftun Əmininin "İranın ədəbiyyat tarixində Şəhriyarın rolu" məqaləsində daha ətraflı şərh edilmişdir. Ədəbiyyatşünas alimin mülahizəsinə görə, elə bir məqam yetişmişdi ki, xalq poeziyada günün tələbinə cavab verə biləcək, "İrəc Mirzənin Tehranlı dili və Hafizin asimani təfəkkürü ilə şeir yazacaq adamı axtarırdı". Şəhriyarın şəxsində "cəmiyyətin ehtiyaclarından doğan və zəmanənin canlı hadisəsi olacaq belə bir varlıq meydana gəldi. Onun Şəhriyar adı və həyəcan doğuran qəzəlləri ədəbi mühitdə, hətta küçə və bazarlarda əks-səda doğurdu. Şeir və şairlik rövnəq tapdı".

Şəhriyar öz mənzum əsərləri ilə İranın poeziya dünyasına yeni ruh və təravət gətirdi. Məftun Əmini yazır: "Şəhriyar yeganə şairdir ki, poeziyanın bütün növlərində şeir yazmış, təkcə uğur qazanmaq deyil, əksər halda birinci olmuşdur. Əksər ədalətli münsiflər bu fikirdədirlər ki, ... o, əsrimizin böyük şairidir. İndiyə qədər heç bir söz əhli olmamışdır ki, mətbuat tərəfindən bu səviyyədə qarşılansın" (Bax: C.Əlizadə. Elə həmin sadəlikdə, həmin gözəllikdə. Tehran, 1995, səh. 51-53).

Səməd Behrəngi "Şəhriyarın "Heydərbaba"sını xatırlarkən" məqaləsində əsərin İranda, eləcə də xarici ölkələrdə kütləvi nəşri və xalq arasında geniş yayılması barədə məlumat verir. 1964-cü ildə Tehranda Şəhriyarın "Heydərbabaya salam" poemasına nəzirə yazan şairlərin şeir toplusuna – "Heydərbaba"nı xatırlarkən" antologiyasına öz münasibətini bildirir. Burada Şəhriyarın şəninə şeirlər istisna olunmaqla, əksəriyyəti "ruhsuz və təqlid" xarakterli mənzum əsərlərin toplandığını qeyd edir. Onun fikrincə, Məmməd Ra-

him, Coşğun və Səhənd Şəhriyarın mənzuməsindən təsirlənərək diqqəti cəlb edən əsər yarada bilmişlər.

Səməd Behrəngi öz məqaləsində Barizin (Abbas İslaminin) "El dayağına salam", Əli Kuşanın "Heydərbabanın Şəhriyara salamı" mənzumələrini təhlil etməyə və qiymətləndirməyə çalışmışdır.

Lakin Şəhriyarın "Heydərbabaya salam" poemasının xalq arasında şöhrət tapması və ona nəzirələr yazılması səbəbini izah edərkən Səməd Behrəngi əsərin mahiyyətini, xəlqiliyini və bədii dəyərini dərk edə bilmədiyindən yanlış mülahizələr söyləyir. O, "Heydərbabaya salam" poemasının "azəri-türki dilində danışanlara" təsirini bu əsərin kütləvi nəşrində və geniş yayılmaq imkanında görürdü. Səməd Behrəngi yazır: "Mən yalnız onu deyə bilərəm: ən böyük təsir ondan ibarət ki, Şəhriyardan qabaq və sonra yazanların əsərləri kütlələrin əlində yoxdur və onları nəşr edib yaymağa imkan olmamışdır" (Bax: "Xuşe", 1968, N 20, səh.114). O güman edir ki, belə bir imkan olsaydı, "görəsən, bu qədər yazıçı Şəhriyarın ardınca gedər və onu təqlid edərdimi?".

Şair Coşğun "Əziz Şəhriyara salam" adlı irihəcmli mənzuməsində ustad şairin ümumxalq şöhrətini, həmvətənlərinə böyük məhəbbətini doğma dilin saflığını, zənginliyini və şirinliyini vəsf edir.

Sən farsı şeirində məktəb yaratdın
Qəzəldə uca bir məqama çatdın.
şeirin ilahəsin təxtə çıxartdın,
Çulğadı şöhrətin bütün İranı
Nə təkcə İranı, bəlkə dünyanı.

(Bax.: Yadi əz Heydərbaba, Tehran, səh. 73).

Klassik Şərq ədəbiyyatında, eləcə də Azərbaycan ədəbiyyatında nəzirəçiliyin tarixi qədimdir. Nizami Gəncəvinin "Xəmsə"sindən bəhrələnən qüdrətli söz sərrafları – Cəlaləddin Rumidən (XIII əsr) ta Məhəmmədhüseyn Şəhriyaradək (XX əsr) nəzirəçilik ənənəsi ilə dəyərli əsərlər yaranmışdır. Şəhriyarın "Heydərbabaya salam" poemasına yazılan onlarla nəzirə və mənzum cavablardan göründüyü kimi bu ənənə XX əsrdə yeni vüsət almışdır.

Bu əsər elə bil ki, şairlərin bəsirət gözünü açdı, onları xalq həyatını hərtərəfli, dərindən qələmə almağa, xalqın adət-ənənələrini, mənəvi dəyərlərini sənətkarlıqla təsvir etməyə istiqamətləndirdi.

Təbrizli Məhəmməd Hüseyn Səhhaf Cənnətiməqam Şəhriyarın ana dilində yazdığı "Heydərbabaya salam" poemasını "Şəhriyara salam" mənzum cavabında böyük sevinclə qarşılayır:

İgid oğlum, şirin sözlü Şəhriyar!
Olsun sənə dünya boyu bəxt yar!
Öz əlimdə olsa mənim ixtiyar!
Yolun üstə əlvan çiçək səpərəm
Baş əyərəm, dodağından öpərəm.

"Heydərbabaya salam" İranda və onun hüdudlarından kənarda yayıldıqca, Şəhriyarın pərəstişkarları artırdı. Nüsrətulla Fəthi Atəşbəyli İran şairlərinin "Heydərbabaya salam" poemasına yazdıqları nəzirələri toplayıb tərtib etdiyi "Yadi əz Heydərbaba" (Tehran, 1964) kitabında nəşr etdirmişdir.

Burada Əli Təbrizinin qəzəlləri, Əli Azərinin "Şəhriyara ümid", Həbib Sahirin "Lirik şeirlər", Coşğunun "Əziz Şəhriyara salam", Cabbar Bağçanın "Heydər Babanın dilincə Şəhriyara", İnayətulla Əmirpurun "Pərkəzən" nəzirələri toplanmışdı. Nüsrətulla Fəthi Atəşbəyli özünün "Şəhriyara təzim" şeirini də kitaba daxil etmişdi. Nüsrətulla Fəthi Atəşbəyli iyirmi illik ayrılıqdan sonra Şəhriyarla görüşünü xatırlayıb yazır:

"Bu görüşümüzdə ustadın mənə zarafatla dediyi ilk sözü bu oldu:

– Tehranda bizim salamımıza cavab verməzdin, indi nə oldu, "Şəhriyara təzim" yazıb göndərirsən?

Mən də ustada cavab verdim:

"Ustada həmişə hörmətim olmuşdur, ancaq Siz o zaman hələ ölməz "Heydərbaba" əsərini yaratmamışdınız. Siz bu əsərinizlə təkcə məni yox, bütün Azərbaycanı özünüzə minnətdar etmişsiniz. Siz elə bir şeir məktəbi yaratmışsınız ki, hər kəs orada öz ürək arzularının və dərdlərinin məlhəmini tapır".

"Yadi əz Heydərbaba" kitabında toplanan bütün nəzirələrdən və mənzum müraciətlərdən göründüyü kimi, Şəhriyarın poeması onlarda böyük ruh yüksəkliyi yaratmış, onların yaradıcılığına ciddi təsir göstərmişdir.

Onların "Heydərbabaya salam" poemasını heyrət və sevinclə qarşılamasına səbəb əsərdə doğma ana dilində xalq məişətinin bədii lövhələrdə ustalıqla real təsviri idi. Şairlər, yeri gəldikcə öz əsərlərində Şəhriyarın mövqeyinə qiymət verir, onun sənətkarlıq qüdrətindən bəhs edirlər.

Cabbar Bağçaban "Heydərbabanın dilincə Şəhriyara" mənzuməsində ustad şairin gec də olsa doğma vətənə qayıdıb, doğma ana dilinə yeni rövnəq verməsini təqdir edir, bir el ağsaqqalı kimi "indiki, dil açdın susma" deyə onu yazıb-yaratmağa ruhlandırır. Şəhriyarın qələm dostu Səhənd də öz mənzum məktubunda ("Səhəndin Şəhriyara məktubu") onu "Heydərbaba" ənənələrini davam etdirməyə, doğma elin qayğısını çəkməyə çağırır (Bax.: "Azərbaycan" jurnalı, 1972, N1, səh. 195):





Özgə çırağına yağ olmaq bəsdir,
Doğma ellərimiz qaranlıqdadır.
Yanıb yandırmayaq yadın-ocağın,
Evimiz soyuqdur, qışdır, şaxtadır.
Çəkək şeir topun, haydı, qardaşım,
Sən Heydərbabaya, mən də Səhəndə.
Şairin silahı nəğmədir, sözdür.
Nəğməmiz yayılsın şəhərə, kəndə.
Yazaq hər misramız bir bayraq olsun,
Həqiqət bayrağı, zəfər bayrağı.
Parlasın mayaqtək, yansın çıraqtək,

Gələcək mayağı, ümid çırağı...
(orada səh. 197-198)

Şəhriyar yaradıcılığı İraqın türkdilli sakinləri-kərküklər arasında da geniş yayılmışdı. Kərkük ədəbiyyatının görkəmli xadimləri Əbdüllətif Bəndəroğlu, Əta Tərzibaşı, Hüseyn Əli Mübarək, Rza Dəmirçi Əhməd Otraqçı oğlu və başqaları Cənubi Azərbaycan ədəbiyyatına həddsiz maraq göstərmişdilər. Əta Tərzibaşının "Qardaşlıq" jurnalında (1964, N4) çap etdirdiyi "Şəhriyar" məqaləsindən məlum olur ki, "Heydərbabaya salam" poeması kərküklərin arasında geniş yayılmışdır. Əbdüllətif Bəndəroğlu "Heydərbabaya salam" poemasından təsirlənərək "Gur-Gur baba" şeirini yazmış, Kərkükdə olan dağa müraciət fonunda xalq həyatını vəsf etmişdir.

Kərkük şairi Hüseyn Əli Mübarək "Tuz Xurmatu" (1965) poemasını böyük ustadın əsərinə nəzirə yazmışdır. "Heydərbabaya salam" səpgisində qələmə aldığı poemasında Hüseyn Əli Mübarək öz doğma qəsəbəsi – Tuz Xurmatunu və onun təbii gözəlliklərini, kərküklərin məişətini, vətən sevgisini məhəbbətlə qələmə almışdır.

Azərbaycan oxucuları Şəhriyarın əsərləri ilə keçən əsrin 60-cı illərindən tanış olmuşlar. Görkəmli yazıçı və ədəbiyyatşünas alimlər – M.İbrahimov, R.Sultanov, B.Azəroğlu, H.Məmmədzadə, M.Əlioğlu, Ə.Hüseyni, Q.Beqdeli, İ.Cəfərpur Şəhriyar poeziyasının tədqiqi və təbliğində müstəsna rol oynamışlar. Şəhriyarın Azərbaycan dilində yazdığı şeirləri, eləcə də farscadan edilən tərcümələri şairlərin böyük marağına səbəb olmuş, onların yaradıcılığında əks səda doğurmuşdu. Süleyman Rüstəm "Şair qardaşıma məktub", "Ayrılıq", Məmməd Rahim "Şəhriyara açıq məktub", Bəxtiyar Vahabzadənin "Şəhriyara", Şamil Əsgərovun "Dağlar, arxalı dağlar", Qərib Aşkarinin "Şəhriyarın "Heydərbabaya salam" əsərinə cavab", Abbasəli Kərimovun "Göyçədən salamlar", Əlağa Vahidin "İlə" rədifli qəzəli, Tariyel Ümidin "Şəhriyarın ana dili", Murad Şeydanın "Salam sənə, Heydərbaba şairi", Xəlil Rzanın "Təbrizim", Əyyub Sədinin "Heydərbaba", Xıdır Alovlunun "Heydərbaba, Səhəndimə bir də de" şeirləri--ithaf, cavab və nəzirələr ustad şairə böyük məhəbbətin ifadəsi idi.

Səməd Behrəngi "Şəhriyarın "Heydərbaba"sını xatırlarkən" məqaləsində əsərin İranda, eləcə də xarici ölkələrdə kütləvi nəşri və xalq arxasında geniş yayılması barədə məlumat verir. 1964-cü ildə Tehranda Şəhriyarın "Heydərbabaya salam" poemasına nəzirə yazan şairlərin şeir toplusuna – "Heydərbaba"nı xatırlarkən" antologiyasına öz münasibətini bildirir. Burada Şəhriyarın şəninə şeirlər istisna olunmaqla, əksəriyyəti "ruhsuz və təqlid" xarakterli mənzum əsərlərin toplandığını qeyd edir. Onun fikrincə, Məmməd Rahim, Coşğun və Səhənd Şəhriyarın mənzuməsindən təsirlənərək diqqəti cəlb edən əsər yarada bilmişlər.

Səməd Behrəngi öz məqaləsində Barizin (Abbas İslaminin) "El dayağına salam", Əli Kuşanın "Heydərbabanın Şəhriyara salamı" mənzumələrini təhlil etməyə və qiymətləndirməyə çalışmışdır.

Lakin Şəhriyarın "Heydərbabaya salam" poemasının xalq arasında şöhrət tapması və ona nəzirələr yazılması səbəbini izah edərək Səməd Behrəngi əsərin mahiyyətini, xəlqiliyini və bədii dəyərini dərk edə bilmədiyindən yanlış mülahizələr söyləyir.

O, "Heydərbabaya salam" poemasının "azəri-türki dilində danışanlara" təsirini bu əsərin kütləvi nəşrində və geniş yayılmaq imkanında görürdü. Səməd Behrəngi yazır: "Mən yalnız onu deyə bilərəm: ən böyük təsir ondan ibarətdir ki, Şəhriyardan qabaq və sonra yazanların əsərləri kütlələrin əlində yoxdur və onları nəşr edib yaymağa imkan olmamışdır" (Bax: "Xuşe", 1968, N20, səh. 114).

O, tərəddüdlə düşünür, güman edir ki, belə bir imkan olsaydı, "görəsən bu qədər yazıçı Şəhriyarın ardınca gedər onu təqlid edərdimi?"

"Heydərbabaya salam" poemasında bəşəri və milli duyğuların vəhdətdə, sənətkarlıq qüdrəti ilə sadə poetik dildə təsvir etməsi Şəhriyara şöhrət qazandırmışdır. Ədəbiyyatşünas Esmira Şükürova öz tədqiqatında "Heydərbabaya salam" əsərinə saysız-hesabsız nəzirə həsr edilməsini şairin poeziyasındakı xəlqiliklə əlaqələndirir. Bu səpkidə əsərlərin yazılmasının ənənəyə çevrilməsinin, beləliklə türk dünyasında Şəhriyar ədəbi məktəbinin yaranmasının təsadüfən olmadığını əsaslandırır. O, haqlı olaraq yazır: "Dərin humanizm, insanpərvərlik ideyaları, həyata, gözəlliyə, insanlığa sevgi, xəbisliyə, pisliyə, zülmkarlığa, şər qüvvələrə nifrət üzərində köklənmiş bu şeir dünyası duyğuları vəcdə gətirmiş, əhli-qələmlərin ilhamını qanadlandırmışdır (Esmira Şükürova. "Məhəmməd-Hüseyn Şəhriyar (həyatı, mühiti, yaradıcılığı), Bakı, "Maarif" nəşriyyatı, 1999, səh.169).

"..."Heydərbabaya salam" mənzuməsini doğma ana dilində qələmə almaqla Şəhriyar... mənəvi inqilab yaratdı, türk dünyasını sözün ecazkar qüdrəti ilə oyatdı. "Heydərbaba" ilə ədəbiyyatda Şəhriyar möcüzəsi baş verdi. Dilini, dinini, mədəniyyətini, mənəvi böyüklüyünü danlara şair göstərdi ki, illərlə dili, mədəniyyəti – dəmir buxovlar, məngənələr arasında saxlansa da, Cənubi Azərbaycanda ədəbi-mənəvi proses davam edir; mövcud istibdad rejimi müstəbidlər tərəfindən parçalanmasına baxmayaraq bu xalq mənən bütövdür, tamdır və dünyanın inkişaf etmiş ölkələrində yaşayan xalqlar kimi orijinal, təkrarsız mədəniyyətə, hünərvər dilə, vahid dinə, zəngin ədəbiyyat xəzinəsinə, ümumbəşəri maddi və milli-mənəvi dəyərlərə sahibdir" (Yenə orada, səh.214).

Əlbəttə, yox! Səməd Behrəngi bu həqiqəti dərk etdiyindən fikrini dəyişir, məqalələrinin birində yazır:

"Şəhriyar "Heydərbabaya salam"ı ilə Azərbaycan yazılı şeirində yeni səhifələr açdı. "Heydərbaba"nın böyük bir hissəsi bədii sözün əsl səviyyəsində oldu ki, çoxları onu təqlid edəcək əsər yazdılar, hətta, onun qafiyələrin vəznindən, formasından, şəklindən, bəzən məzmunundan da istifadə etdilər".

Fars dilində yazıb-yaratdığı əsərlərlə İran ədəbiyyatı tarixində yüksək mövqe tutmasına və müasir fars poeziyasının yaranmasında misilsiz xidmətlərinə baxmayaraq Şəhriyar görkəmli Azərbaycan şairi kimi tanınır. Şəhriyarşünas alim Esmira Şükürova yazır: "Bu – hər şeydən əvvəl, şairin Təbrizdə doğulması, türkəsilli, türk ruhlu olması və əsasən də bütün Şərq aləmində əks-səda doğurmuş "Heydərbabaya salam" mənzuməsinin, eləcə də "Səhəndim", "Türkün dili", "El bülbülü", "Behcətabad xatirəsi", "Türkiyəyə xəyali səfər", "Aman ayrılıq", "Şatır oğlan" və s. əsərlərinin Azərbaycan türkcəsində yazılması ilə bağlıdır". (Bax: Esmira Şükürova. Şəhriyar poeziyasında xalq həyatı, B., Elm, 1996, səh.7)

Şəhriyar əlinə qələm aldığı ilk gənclik dövründən doğma dildə şeir yazmaq niyyətində olsa da yalnız otuz yaşından sonra arzusunu həyata keçirmək imkanı tapa bilmişdir. Onu öz vətənləri haqqında az-çox yazan həmyaşıdlarının şeirləri qane etmirdi. Ürəyindən keçirdi ki, həmyerlilərinə, eləcə də həmyaşıdlarına xoş gələn, şirin olan "yerli tərənələr formasında bir şey" yazsın. Ancaq uzun müddət Tehranda yaşadığından "Azərbaycan kənd ləhcəsinə xas olan şirin ləhcə, zarafat və təbirlərdən demək olar ki, uzaq" düşmüşdü, uşaqlıq çağlarındakı xatirələrinin zehnində "solğun və anlaşılmaz tablolar" kimi qalmışdı.

1941-ci ildə, 36 yaşında Şəhriyarın ağır xəstələndiyi, fiziki və mənəvi sarsıntı keçirdiyi ona görə də bütün dünya nemətlərindən bezikdiyi, hər şeydən imtina etdiyi bir vaxtda Tehrana gələn anası öz nəvaziş və qayğısı ilə təkcə şairin fiziki qüdrətini özünə qaytarmadı, həm də mənəvi aləmində "gizli bir büsat yaratdı. "Şəhriyar yazır: "Rəhmətlik anam Tehrana gəldiyi vaxtdan onun sehirli nüfuzunun təsiri ilə yaddaşında qoruyub saxladığı keçmiş xatirələrini mənə danışmaqla şirin nağıllar yavaş-yavaş mənim ölü ruhuma can verdi. Rəngləri solmuş xatirə lövhələri yenidən öz keçmiş rəngləri ilə mənim zehnimdə canlandı".

Bu hadisədən sonra şairin qəlbindəki arzular oyanmışdı. Onun ilham pərisinin tuti dili açmışdı. Şəhriyar doğma dildə şeirlər yazmağı, anası, qohum-qardaşı, el-obası qarşısında övladlıq borcunu yerinə yetirməyi qarşısına məqsəd qoymuşdu. O özü yazır ki, "Bu dağ basılmış yanıqlı çağlarım mənə "Heydərbaba" mənzuməsini və "Ey vay, anam!" şeirini yaratmağa imkan verdi".

Şəhriyar yaxın həmkarı Nikəndiş Nobərlə söhbətində demişdir: "Heydərbaba" azəri dilində yazılmış bir şedevrdir ki, onun meydana gəlməsində özümü bütünlüklə anama minnətdar bilirəm. Elə bil onu anam yazıb yaradıb. Əgər o olmasaydı "Heydərbaba"da olmazdı. Onun xalq tərəfindən hərarətlə qarşılanması mənim başucalığıma və sevincimə səbəb oldu".

Şəhriyarın "Dərya elədim" şeirində də ana dilinə məhəbbət, iftixar və qürur ifadə olunmuşdur. Şair "Heydərbabaya salam" poemasını doğma dildə qələmə almaqla hünərvər bir iş görməsinə diqqəti cəlb edir:

Türki bir çeşmə isə, mən onu dərya elədim,
Bir soyuq mərəkəni məhşəri-kubra elədim.
Mənə bir işıltıydı Süha ulduztək görsənməz,
Göz yaşımla mən onu Üqdi Sürəyya elədim.
...Bax ki, "Heydərbaba" əfsanətək olmuş bir Qaf,
Mən kiçik bir dağı sərmənzili – ənqa elədim.

Burda Rövşənzəmirin də hünərin yad elədim.
Mən onun da qələmin tutiyi-quya elədim.
Nə tək İranda mənim vəlvələ salmış qələmim,
Bax ki, Türkiyədə, Qafqazda nə qövğa elədim.
Bax ki, Tehranda da Fərzanələr olmuş Valeh.
Bax ki, Təbrizdə nə şairləri Şeyda elədim.





Həm "Səhəndiyyə" Səhəndin dağın etdi başuca
Həm mən öz qardaşımın haqqını ifa elədim.
Acı dillərdə şirin türki olurdu hənzəl.
Mən şirin dillərə qatdım onu, həlva elədim.
Hər nə qalmışdı keçənlərdən ona bal pətəyi.

Əridib mumlu balın şəhdi-müsəffa elədim.
Türki, vallah, analar oxşağı, lay-lay dilidir,
Dərdimi mən bu dəva ilə müdəva elədim.
Şəhriyar, heyif, soyuqdur bu dəyirman hələ də.
Dartmağa yoxdu dəni, mən də müdara elədim.

"Heydərbabaya salam" poemasında şair həmvətənlərinin məişətini, gün-güzəranının, həyat tərzini və adət-ənənəsini xalq şeri ruhunda əlvan poetik boyalarla təsvir etməklə həyatın canlı, real bədii lövhələrini yaratmışdı.

Xalqın keşməkeşli həyatını zaman və məkan daxilində real lövhələrdə, canlı vermək üçün Şəhriyarın Heydərbabaya müraciət etməsi təsadüfi deyildi. Şəhriyar dağı təbiətin şah əsəri, tarixi hadisələrin canlı şahidi hesab edirdi. Ona görə də qəlbindən qopan nalələrinin göylərə yüksəlib ucalıqlarda əks-səda doğurması üçün Heydərbaba dağına tapınır, dərdi-sərini onunla bölüşür. Çünki Şəhriyarın uşaqlıq çağlarının beşiyi Qaraçəmən yolu ilə Şəngüləva kəndləri arasında yerləşən Qayışqurşak kəndi ilə üz-üzə dayanmış Heydərbaba dağı tarixin canlı şahidi idi, "bütün hadisələri öz gözü ilə görmüş"dü. Şəhriyar ancaq onunla həmsöhbət ola bilərdi.

Şəhriyarın "Heydərbabaya salam" poemasında ən başlıca uğur, onun dilə münasibətində təzahür edir. Mahmud Müşərrəfi-azad Tehraniyə görə, "Şəhriyar özünün anadilli şeirlərində daha çox sadə, daha qüdrətli"dir.

Rza Bərahəni isə yazır: Şəhriyar "türk dilində şeir yazanda çox ciddi şəkildə milli dilə əsaslanır və yerli sözlərdən istifadə edir, əslində adi deyimləri xalqın kütləvi dilinin dərinliklərindən, onun adət-ənənələrindən tapıb üzə çıxardır və bəzən gözəl şeir səviyyəsinə qədər yüksəldir". (Bax: Pişin" cild 3, səh. 1623).

Şəhriyar "Heydərbabaya salam" poemasında doğma dilə son dərəcə qayğı ilə yanaşmışdır. O yazırdı: "... mənim ana dilim Azəri-türkü dilidir – çox zəngin, geniş mənalı, şirin, həssas bir dil.

...Azəri dili neçə qərinədir ki, yaşayır. Böyük şairlər bu dildə elə əsərlər yaratmışlar ki, ondan bircə beyt oxumaqla insan dəyişir, ləzzət alır. Xazin, Seyid Əzim Şirvani, Sabir, Füzuli, Raci, Ləli, Möcüz, Sərraf kimi şairlərə nöqsan hesab edilən odur ki, onların türki-azəri şeirləri fars dili ilə çulğalaşıb.

Mənim "Heydərbaba", "Səhəndiyyə" və azəri dilində yazdığım digər şeirlərdə çox nadir hallarda fars sözləri taparsınız. Azəri dilinə sicil vermişəm. Görürsünüz ki, "Heydərbaba" mənzuməsindən sonra yüzlərlə nəzirələr yazmışlar. Halbuki onlar əvvəllər olmamışlar" (Bax: Şəhriyarın xəlvət dünyası, cild III, Təbriz, 1990, səh, 249).

Şəhriyarın Azərbaycan dilində qələmə aldığı şeirlər, xüsusən "Heydərbabaya salam" poeması İranda birmənalı qarşılanmamışdı. Xalq həyatının ensiklopediyası olan bu əsər zülmət qaranlıqda çaxan şimşək kimi İran hakim dairələrini sarsıtmışdı. 1951-ci ildə əlyazma şəklində yayılan poema böyük əks-səda doğurmuşdu. 1954-cü ildə "Heydərbabaya salam" poeması Şəhriyarın müqəddiməsi ilə nəşr olunmuş, geniş xalq kütlələrinin rəbğəti ilə qarşılanmışdı. Bu əsərin yenidən çapına icazə verilməmişdir. Mədəniyyət və incəsənət idarəsinin müdiri Ağaye Dövlətşahi narahatçılıq və təşviş içərisində qəzəblə demişdir:

"..."Heydərbaba"nı yazmaqda Şəhriyar səhv etmişdir. Bilirsinizmi, əgər Şəhriyar bu əsərini yazmasaydı indi hansı məqama yüksələrdi? Dövlət hər yerdə onu təbliğ edirdi, onun şöhrətini artırırdı, yüksək maaşla yaxşı bir iş verirdi. Bu pula o, ailəsini yaxşı təmin edər, həyatını istədiyi kimi qura bilərdi.

"Heydərbaba" Şəhriyara böyük zərər vurmuşdur. Şairi dövlətin nəzərindən hörmətdən salmış və onun qəzəbinə səbəb olmuşdur. Siz əgər Şəhriyarın xətrini istəyirsinizsə məsləhət görün ki, türk dilində daha şeir yazmasın" (Bax: Böyük Nikəndiş-Nobər. Şəhriyarın xəlvət dünyası, Təbriz, "Azərvan", 1995, səh. 233).

Ağaye Dövlətşahi əslən azərbaycanlı olsa da "biz iranlıyıq, bizim dilimiz fars dilidir, türki monğolların dilidir" təsəvvürü ilə yaşayır. Onun fikrincə, Azərbaycan dili yad dildir, bu dildə söhbət etmək, şeir yazmaq və onu çap etmək olmaz. Odur ki, qətiyyətlə deyir: "Mən Şəhriyar ədəbi məclisinin məhsuluyam, heç vaxt, hətta bir beyt belə olsun türk dilində şeir oxunmasına icazə vermərəm." (yenə orada, səh. 234.)

Şəhriyar doğma ana dilində yazdığı şeirləri ilə, xüsusilə "Heydərbabaya salam" əsəri ilə fars şovinizminə, eləcə də öz dilini, milli mənşəyini unudanlara tutarlı cavab verdi, klassik Azərbaycan poeziyasının ənənələri, öz soykökü üzərində Azərbaycan milli poeziyasının həmişəyaşar, həmişəyaşıl və təravətli şeh budağı kimi əbədiləşdi.

*Davamı var...*

# YARADANIN MÖCÜZƏSİ BƏŞƏRİYYƏTİN XİDMƏTİNDƏ



**Bundan əvvəlki məqaləmizdə biz ekoloji problemlərdə bəşəriyyətə yardımçı olan Yaradanın möcüzəsi – Eyxorniyadan bəhs etdik. İndi isə ondan heç də az aktual olmayan – əhalinin ərzaqla təmin edilməsi problemi və bu xüsusda Allahın başqa bir hədiyyəsindən söhbət açacağıq.**

**XXI əsrdə bəşəriyyətin qarşısında duran ən qlobal məsələlərdən biri də ərzaq təhlükəsizliyi problemidir. Bu səbəbdən də planet əhalisinin durmadan artdığı bir vaxtda insanların normal miqdarda və keyfiyyətdə qida məhsulları ilə təminatı bütün dövlətlərdə, o cümlədən Azərbaycanda da əsas müzakirə predmetlərindən biridir. Əlbəttə, bəşər tarixi boyunca qidalanma problemi ilə mübarizə aparan insanlar uzun əsrlərin təcrübələrinə və elmi araşdırmalara əsaslanaraq bu sahədə əhəmiyyətli və mühüm nailiyyətlər əldə etmişlər. Bununla yanaşı isə biz sizlərə sözügedən sahədə insanlara uca Yaradanın daha bir hədiyyəsi olan – amarant barədə məlumatları təqdim edəcəyik.**



# AMARANT

*Babək Tatlıyev*
*Müstəqil ekspert*

Yunan dilindən tərcüməsi "solmaz çiçək" olan amarantın vətəni Cənubi Amerikadır. Həmin qitənin aborigenləri olan inklər, mayyalar, asteklər bu unikal bitkinin xeyirli xassələrini hələ qədim zamanlardan kəşf edərək yetərincə yararlanır, amarantı "tanrıların yeməyi", "1001 dərdin dərmanı" adlandırırdılar.

İlk dəfə XVIII əsrdə dekorativ bitki kimi Avropaya gətirilmiş amarantın sahələri XX əsr boyunca Çində, Hindistanda, Afrikada, ABŞ-da, Kanadada çoxalmağa başlamışdır. Bu ölkələrin əhalisi amarantı dənli bitki, tərəvəz və yem kimi istifadə edirlər.



İlk növbədə amarant çox qiymətli zülal mənbəyidir. Cavan yarpaqlar və gövdələr istənilən dənli bitkidən daha çox miqdarda – 16-18% yüksək lizin paylı (5%) zülala malik olurlar. Həmçinin, bitkinin toxumlarında və gövdəsində linol turşusu, yarpaqlarında linolen turşusu (özü də yüksək konsentrasiyada), toxumlarında isə 48% dənəvər nişasta mövcuddur. Amarant A, C, V – karotin vitaminləri ilə zəngin olmaqla bərabər, onun yarpaqlarında B-12 vitamininin izləri aşkarlanmışdır.

Halbuki, bitki mənşəli məhsullar üçün həmin vitaminin tam yoxluğu xarakterikdir. Ən əsası isə, bütün bunlarla yanaşı, amarantın ən qiymətli xassələrindən biri də, tərkibində asan həzm edilə bilən qida liflərinin olmasıdır. Məlumdur ki, qida lıfləri – birləşdirici toxumalar, pektin, helisellüloza qidalanma rasionunun kaloriliyini aşağı endirir, böyük miqdarda qəbul etdiyimiz piylər və karbohidratların mübadiləsi prosesinə mənfi təsirləri azaldır, mədə-bağırsağın mühərrik funksiyasını tənzimləyir. Özü də, demək olar ki, yer üzünün bütün ünlü mütəxəssislərinin fikrincə, qida liflərinin bizim menyumuzda azlığı – ilkin aterosklerozun, ürəyin işemik xəstəliyinin, şəkərli diabetin, öd kisəsi xəstəliklərinin və hətta bədxassəli şişlərin yaranmasının əsas faktorlarından biridir. Bu maddələrin insan sağlamlığının qorunub saxlanmasında rolu, dünyada ekoloji vəziyyətin pisləşdiyi bir dövrdə xüsusilə artmışdır. Çirkli hava, sənaye tullantıları ilə zəhərlənmiş torpaq və su, qeyri-sağlam qida insanla-

rın immun sistemini, orqanizmin müdafiə gücünü zəiflədir. Amarantın tərkibində olan qida lifləri isə müxtəlif kimyəvi, o cümlədən konserogen maddələri toplayaraq orqanizmdən xaric edirlər. Ona görə də, qida lifləri ilə zəngin yeməklər insanların süfrəsindən əskik olmamalıdır. Bu nöqteyi-nəzərdən amarant bir çox yeməklərə əla qida əlavəsidir. Amarantın yarpaqlarını qaynadıb yağda qovurmaq, istənilən göyərti kimi çiy-çiy yemək, qayğanağa, duru xörəklərə, müxtəlif salatlara əlavə etmək olar. Onun unundan və dənindən cürbəcür sıyıqlar, çörək və qənnadı məmulatları bişirmək, quru səhər yeməyi kimi istifadə etmək olar. Amarantı necə yeməyinizdən asılı olmayaraq, orqanizminiz zülalların, mineral duzların, vitaminlərin və qida liflərinin zəruri dəstini özü qəbul edəcəkdir.

Amarantın toxumlarından çəkilən yağı isə "1001 dərdin dərmanı" adlandırırlar. Amarant yağını bu cür unikal edən əsasən üç komponentdir: skvalen, tokotrinol formada E vitamini və Omeqa seriyalı yağlı turşular. Bitkinin tərkibində olan skvalen heyrətamiz yarasağaldıcı xassəyə malik olub, əksər dəri xəstəliklərinin, o cümlədən ekzemaların, psoriazların, hətta trofik xoraların öhdəsindən asanlıqla gəlir. İnsan orqanizminə düşdükdə skvalen bərpa proseslərini aktivləşdirir ki, bu da öz növbəsində daxili orqanların xoralarının və digər zədələrinin daha sürətlə sağalmasına xidmət edir.

E vitamini insanlara (xüsusən yaşlılara) ürək fəaliyyətini normallaşdırmaq, qanda xolesterin balansını yaxşılaşdırmaq, antioksidant qismində xərçəng xəstəliklərinin profilaktikası üçün son dərəcədə zəruridir. Özü də ən önəmlisi odur ki, amarant yağında olan E vitamini çox nadir tokotrienol növdə olub, adi tokoferol formada olan E vitaminlərindən 40-50 dəfə effektivdir.

Amarant yağında 50%-ə qədər mövcud olan linol turşusu isə qanda xolesterinin miqdarını aşağı salan və qan təzyiqini normallaşdıran ən güclü təbii vasitədir. O, damarların divarlarında olan xolesterin düyünlərini tez bir zamanda əridə bilir.



Beləliklə, bu üç unikal komponentə malik amarant onkoloji; doğuşdan sonrakı zədələr nəticəsində yaranan; soyuqdəymə və viruslu; dəri; ürək-damar (ateroskleroz, infarkt, insult və s.); qastroenteroloji (xoralar, qastritlər və s.); endokrin; qara ciyər, böyrək və digər orqanların; şüa xəstəliklərinin profilaktikası və effektiv müalicəsini aparır. Artıq son təcrübələr amarantın hətta radiasiyanı orqanizmdən çıxarma kimi bir unikal xassəyə də malik olduğunu sübuta yetirmişdir. Həmçinin amarant yağı ən elitar kosmetik vasitələrin hazırlanmasında da istifadə olunur.

Bütün bu əhəmiyyətli müalicəvi xüsusiyyətlərlə yanaşı, amarant həm də istənilən növ mal-heyvan və quşlar üçün çox keyfiyyətli yem mənbəyidir desək, yanılmarıq. Amarantın fantastik dərəcədə yüksək məhsuldarlığı isə, onun digər otlardan keyfiyyətlə yanaşı, kəmiyyət baxımından da üstün edir. Belə ki, amarantın dənlərinin və biokütləsinin məhsuldarlığı 1 hektardan müvafiq olaraq 30-60 sentner və 2000 sentner təşkil edir ki, bu da hazırda Azərbaycanın bütün bölgələrində əsas bitki mənşəli yem komponenti kimi istifadə olunan yoncadan ən azı 10-12 dəfə çoxdur. O da əhəmiyyətlidir ki, 1 hektara əkin üçün 200-250 kq taxıl, 50 kq qarğıdalı tələb olunduğu halda, cəmi 0,5-1 kq amarant kifayət edir.

Bu bitkinin köməyilə torpağın məhsuldarlığını yüksəltmək də mümkündür. Biçilib yenidən şum aparılan zaman onun qalıqları əla sederat, yəni yaşıl orqanik gübrə rolunu oynayır.

Azərbaycanın aqrar sektorunu, xüsusilə quşçuluğu, heyvandarlığı və yemçiliyi inkişaf etdirmək üçün amarantın əhəmiyyətini təsəvvür etmək çətindir.

Kiçik bir yaşıl canlıda bu qədər sayda xeyirli və vacib xassələrin olması, bir daha Uca Yaradanın insanlara təbiəti korlamadan, ona zərbə vurmadan öz rifahını yüksəltməyə, sağlamlığını qorumağa imkan sərgiləyən hədiyyəsi kimi qəbul edilməlidir.

Bizlərə isə, Rəbbimizin bu möcüzələrindən bəşəriyyətin, o cümlədən vətənimizin rifahı üçün effektiv yararlanmaq qalır.



Azərbaycan–Türk dostluğunun şərəfinə ucaldılmış abidə

# 1918-ci il:

# Türk Ordusu Azərbaycanda

*Lətifə Məmmədova, Gülağa Cəbrayılov*

1917-ci il oktyabr çevrilişindən sonra keçmiş Rusiya imperiyasının hər yerində olduğu kimi Cənubi Qafqazda da milli azadlıq hərəkatı başlandı. Azərbaycan da bu proseslərdən kənarda qalmadı. Lakin sovet Rusiyası zəngin təbii sərvətləri olan Azərbaycanı əldən vermək istəmirdi. Ona görə də S.Şaumyanın rəhbərliyi altında Bakıda 1917-ci ilin noyabr ayının 2-də Bakı Soveti hakimiyyəti yaradıldı.

Şaumyan sovet Rusiyasının köməkliyi ilə ermənilərin "Böyük Ermənistan" yaratmaq planlarını reallaşdırmaq niyyətində idi. Lakin onların bu niyyətinin həyata keçirilməsinə ən yeganə maneə – böyük nüfuza malik Müsavat partiyası idi. Bu siyasi maneəni aradan götürmək və Azərbaycan xalqına divan tutmaq məqsədilə ruslar tərəfindən güclü erməni birləşmələri 1918-ci ilin mart ayının 30-dan aprelin ortalarınadək Bakıda, daha sonra Şamaxı, Quba, Salyan, Hacıqabulda, Lənkəranda azərbaycanlıların soyqırımını həyata keçirdilər.

S.Lalayevin rəhbərlik etdiyi erməni ordusu Bakıdan Qozluçay çayının sahili ilə Şamaxının molokanlar yaşayan Hilmilli kəndinə gəlir. Onlar gündüzlər burada dincəlir, gecələr Şamaxı şəhərinə və yaxın kəndlərə hücum edərək günahsız insanları qətlə yetirirlər. Hücumlar gecələr olduğundan yarıyuxulu, vahimə içində qaçan qadınlara, uşaqlara və qocalara fərq qoymadan hamını məhv edirdilər. Bu hücumlar zamanı Şamaxı ərazisindən 12 minə yaxın insan qətlə yetirildi.

Belə bir tarixi dövrdə Azərbaycan xalqının soyqırımının qarşısını Azərbaycan Xalq Cumhuriyyətinin yaradılması və onun dəvəti ilə Osmanlı qoşunun gəlməsi aldı. 1918-ci ilin iyun ayının 4-də Azərbaycan Xalq Cumhuriyyəti ilə Türkiyə arasında qarşılıqlı hərbi yardım haqqında müqavilə bağlandı. Həmin müqaviləyə əsasən Nuri Paşanın başçılığı altında Türk ordusu Azərbaycan xalqının köməyinə gəldi.

**Azərbaycan torpağının düşmənlərdən təmizlənməsi uğrunda gedən döyüşlərdə 1130 nəfər Türk zabit və əsgəri şəhid oldu.**



Türk zabitinin məzarı

Bakıda öz hakimiyyətini möhkəmləndirən Şaumyan digər əraziləri tutmaq məqsədilə qərb istiqamətdə işğalçılıq yürüşünə başladı. O, Gəncə şəhərini ələ keçirməklə Azərbaycan Xalq Cumhuriyyətinin hakimiyyətinə son qoymaq istəyirdi. Birləşmiş Türk-Azərbaycan ordusu onların qarşısını Göyçayın yaxınlığında kəsdi. 1918-ci il 18-30 iyun tarixlərində Göyçay ətrafında gedən döyüşlərdə daşnak-bolşevik qoşunları məhv edilərək geri oturduldu. Türk ordusunun müzəffər yürüşü nəticəsində 5-6 iyulda Ağsu, 8-10 iyulda isə Kürdəmir azad edildi. İyulun 19-da Şamaxının Mədrəsə kəndi, 20 iyulda isə Şamaxı şəhəri azad edildi.

İyul ayının 21-də Şamaxı yaxınlığında Acıdərə adlı yerdə baş verən qanlı döyüşlərdə düşmən ordusu ağır məğlubiyyətə uğradı. 28 iyulda Cəngi postu, 30 iyulda Qobu kəndi azad edildi.

1918-ci ilin sentyabr ayının 15-də Bakı şəhəri erməni-bolşevik işğalçılarından azad edildi. Azərbaycan torpağının düşmənlərdən təmizlənməsi uğrunda gedən döyüşlərdə 1130 nəfər Türk zabit və əsgəri şəhid oldu.

Türk ordusunun 28-ci Tabor komandiri mayor İzzət Əfəndinin uyuduğu yer geniş qanlı toqquşmaların şahidi oldu. Acıdərə adlanan bu yer Şamaxı-Bakı yolunun 10-cu kilometrliyində, indiki Təklə kəndi ərazisində yerləşir. Hadisənin şahidi 120 ildən çox yaşamış nənəm Bəyim Sərxanqızı deyirdi ki, döyüşün sonunda biz hadisə yerinə gəldik. Dərənin hər iki tərəfi erməni meyitləri ilə dolu idi. Kiçik körpünün altında gizlənmiş iki erməni mayor İzzət Əfəndini yaraladılar. İzzət Əfəndi yaralı vəziyyətdə hər iki ermənini məhv etmişdi. Xilaskar türk zabiti cənnətməkan İzzət Əfəndini öz vəsiyyətinə görə, onun ilk damla qanı düşən yerdə Təklə kənd əhalisi dəfn edir. Qəbir üzərinə qəbir daşı Təklə kənd sakini Məlikməmməd Məlik oğlu tərəfindən salınır. Daşı Sündü kəndindən olan usta Nəhmətov Balanəhmət kişi düzəldir.

1933-cü ildə Məlikməmməd Məlik oğlu həbs edilərək 4 ildən sonra azadlığa buraxılır. 1937-ci ildə o təkrar həbs edilir və güllələnir. Sonradan onun bir qardaşı və iki oğlu həbs edilir.

Dəhşətli bir faktı da qeyd edim ki, 1937-ci ildə Təklə kəndində 70 nəfərə yaxın kişi olduğu halda 60 nəfər kişi həbs edilərək Sibirə sürgün edilmiş, bir neçəsi isə güllələnmişdir. Bunlardan biri babam zəhmətkeş iman əhli Həbib Cəbrayıloğlu olmuşdur.

Həbs edilənlərin övladları sonrakı illərdə təzyiq və təqiblərə məruz qalmışlar. Bütün bu təzyiq və təqiblərə baxmayaraq, kənd əhalisi, o cümlədən qonşu kəndlərin əhalisi İzzət Əfəndinin qəbrini Pirə çevirmiş, bu günədək oranı ziyarət edirlər. Yol gedən insanlar İzzət Əfəndinin ruhuna dualar oxuyurlar.

Hər il 31 mart Azərbaycanlıların soyqırımı günü Qobustan rayon ictimaiyyəti rayon rəhbərliyi ilə birlikdə cənnətməkan İzzət Əfəndinin məzarı önündə mərasim keçirir, yad edir və ruhuna dualar oxuyurlar.

Müstəqillik illərində İzzət Əfəndinin qəbrinin yaxınlığında Türk-Azərbaycan dostluğunun rəmzi olaraq abidə kompleksi ucaldılmışdır.

# Beyin qrupunun ortaya qoyduğu təhlükə –

# ATOM BOMBASI

*Elşad Abdullayev*

Bəşəriyyət yarandığı gündən insanlar bir-biri ilə daim mübarizə aparmış və bu mübarizədə qarşı tərəfi üstələmək, məhv etmək üçün müxtəlif üsullar düşünmüşdür. Adi ox, qılınc və qalxan ilə başlayan mübarizə getdikcə daha da təkmilləşməyə başlamış və bu da müharibələr zamanı tələf olanların sayını yüz min dəfələrlə artırmışdır. "Silah gücdür" düşünən dövlətlər bu məqsədlə müxtəlif tədqiqat işləri aparmış, külli miqdarda vəsait sərf etmiş və bütün bunların nəticəsi olaraq insanları və ətraf aləmi məhv edən silahlar kəşf edilmişdir. Bu silahların kəşfi isə atom bombası ilə özünün ən yüksək zirvəsinə çatdı.

Əslində atom dedikdə ağıla kütləsi 10-23-10-24 q tərkibində olan hissəciklər gəlir. Atom müsbət yüklü nüvə, mənfi yüklü elektron və yüksüz hissəciklər olan neytronlardan ibarətdir. Lakin bu kiçik kütlələr özlərində o qədər enerji saxlayır ki, bir atom bombasının partlaması bir və ya bir neçə şəhəri yerlə-yeksan edə bilir.

Atom bombası – kütləvi qırğın silahı olub, ağır uran və plutonium nüvələrinin bölünməsi və ya yüngül hidrogen izotopları (deyterium və tritium) nüvələrinin sintezi zamanı ayrılan nüvədaxili enerjinin istifadə olunmasına əsaslanır. Bu zaman idarə olunmayan zəncirvari nüvə reaksiyası baş verir və elə böyük miqdarda enerji ayrılır ki, təsəvvür olunmaz dağıntılar yaradır. Nüvə partlayışı ani olaraq müdafiəsiz insanları, açıq dayanıqlı texnikanı, istehkamları və vasitələri məhv etməyə qadirdir. Nüvə partlayışını xarakterizə edən əsas dağıdıcı faktorlar isə bunlardır:

– zərbə dalğası – öz yolunda olan insanları və binaları məhv edir;

– işıq şüalanması – insan bədənində yanıqlar əmələ gətirir, bərk materiallar isə əriyir və ya deformasiyaya uğrayırlar;

– radiasiya – γ – şüalar və ya neytronlar selidir ki, təxminən 10-15 saniyə müddətində təsir göstərir, xarici şüalanma baş verir və nəticədə insanlarda şüa xəstəliyi meydana gəlir;

– elektromaqnit impulsu – partlayış zamanı yaranan qısamüddətli elektrik və maqnit sahəsi yaradır ki, bu da antenaların, rabitə kabellərinin və avadanlıqların işini pozur;

– radioaktiv çirklənmə – ətraf mühitin radioaktiv izotoplarla çirklənməsidir.

Bütün bunlar da bu bombanın qurbanlarının sayını daha da artırır. Əgər beş atom bombası eyni yerdə və eyni zamanda partladılarsa yer kürəsi öz oxu ətrafından çıxa bilər. Sonuncu dağıdıcı faktordan başqa digərləri bomba partladığı an təsir göstərir və bir müddətdən sonra öz təsirini itirir. Lakin radioaktiv çirklənmənin təsiri isə uzun müddət özünü göstərir. Belə ki, əraziyə səpələnmiş radioaktiv izotopların yarımparçalanma dövrü yüzlərlə il olur və onlar da bu müddət ərzində γ – şüalar və ya neytronlar seli mövcudluğunu qaçılmaz edir. Həmçinin bu izotoplar hava, su və qida məhsulları ilə insan orqanizminə keçir və insanın ömrü boyu daxili şüalanmasına səbəb olur. Beləliklə, atom bombasının qurbanları bomba partladılan an ilə məhdudlaşmır və illərlə onun təsirindən əziyyət çəkən insanlar olur. Deməli, bir bombanın partlaması ən azı 3-4 nəslin sağlamlığına təsir etmək deməkdir.







Atom bombasının kəşfi İkinci Dünya Müharibəsinə təsadüf edir. Amma əslində bu heç də bir təsadüf deyil. Çünki Amerika Birləşmiş Ştatları artıq bu məsələ ilə bağlı əməlli-başlı tədqiqatlara başlamışdır. 1942-ci ildə "Manhattan proyekti" adı altında Nyu Mexiko əyalətinin Los Alamos bölgəsində gizli olaraq məşhur alimlər qrupunun (bu qrupa bəzən "beyin qrupu"da deyilir) ilk çalışmaları başladı. Robert Oppenheimerin başçılığı ilə 3 il çalışdıqdan sonra ilk bombanı hazırlamağa başladılar. Bununla paralel olaraq Tennesse əyalətinin Oak Ridge qəsəbəsində daha gizli bir qrup quruldu. Burada da partlayacaq bir bombanın istehsalı üçün çalışmalar başladı. İlk atom sınağı 16 iyul 1945-ci ildə Meksikanın sərhədlərinə yaxın olan Alamoqordo düzündə həyata keçirildi. Alınan nəticə inanılmaz idi – bu vaxta qədər olan ən güclü partlama baş verdi və onun gücü 16 min ton dinamitin partlamasına bərabər idi. Bu müvəffəqiyyətdən sonra ABŞ atom bombasının Yaponiyanın iki şəhərində istifadəsini qərarlaşdırdı. 6 Avqust səhər, ilk atom bombası bombardıman təyyarəsi ilə Hirosimaya, 3 gün sonra isə ikinci bomba Naqasakiyə atıldı. Bu iki bombanın enerji və radiasiya təsirləri ilə iki yüz mindən çox adam tələf oldu. Amerika bombalamanı davam etdirəcəyini elan edərkən 15 avqustda Yaponiya təslim oldu.

Bundan sonra digər dövlətlər də atom bombası ilə əlaqəli tədqiqatlara başladı. Məqsəd bu silahı əldə edərək Amerika şantajına son vermək və onunla hakimiyyəti bölüşmək idi. Ona görə də atom bombasının "sirri" çox sürmədi, 1947-ci ildə akademik Kurçatovun başçılığı ilə sovet alimləri məqsədlərinə nail oldular. Artıq 1949-cu ilin avqustunda təcrübi sınaq həyata keçirildi. Keçmiş SSRİ-nin ardınca Böyük Britaniya, Fransa və Çin də bu silaha sahib olaraq sınaqların həyata keçirilməsinə başladılar. Atom bombasının sınaqları havanın üst qatlarında, yerin dərin qatlarında və su altında keçirilirdi.

Hal-hazırda da bəzi dövlətlər nüvə silahı adı ilə tanınan atom bombasının istehsalı və təkmilləşdirilməsi sahəsində işlər aparır və demək olar ki, bütün bunlar irimiqyaslı siyasi məsələlərə istiqamət verir, cəmiyyətdə yaranan tarazlığı pozur.

# Mövludi-Fəxri-Aləm

Bu gün sübhi-əzəldən doğdi bir şəmsi-ziyapərvər,
Sərasər nura qərq oldi bu zülmətgahi-insiyyət.
Təməvvüc eylədi dəryayi-fəyazaneyi-qüfran,
Kənarə düşdi bir dürri-səfadari-yetimiyyət.

Bu gün fəxri-cahan pirayeyi-məhdi-vücud oldi,
Bu gündə bəxş olundi kainatə tazə zinət.
Zəlami-şirkdə puyanü sərgərdan ikən aləm,
Bu gündə şölədar oldi çirağı-məclisi-vəhdət.

*Məhəmməd Hadi Şirvani*

Ziyapərvər - işıq saçan, işıqlı
Təməvvüc - dalğalanma
Dəryayi-fəyazaneyi-qüfran - əfv və mərhəmətlə coşub daşan dəniz
Dürri-səfadari-yetimiyyət - misli olmayan səfalı inci
Pirayeyi məhdi vücud - varlığı ilə beşiyi bəzəyən
Zəlami-şirk - şirk qaranlığı
Puyanü sərgərdan- başını itirmiş halda gəzən

*13 aprel 1907, №15*



# Bir nəğmə

*Əli bəy Hüseynzadə*

Almaniya şairlərindən Henri Hayne qaranlıq, fəqət saf və bərraq bir gecədə dərya üzərində bir gəmi ilə seyrü səfər edərkən şu qiteati-şeriyyəyi söyləmişdir ki, vaxtilə tercümə olunub İstanbulda çıxan "Məlumat" məcmuəsində "Səlyani" imzasilə dərc olunmuşdur.

Ziynət verən asimanə əncüm,
İncilər ilə tolu şu dərya;

Könlümsə diyor, diyor ki, könlüm:
Var bəndə də nəcmü dürri-sövda!

Yox bəhrü səmayə həddü-payan,
Lakin yenə tar bu könlə nisbət;

Həm gövhərü nəcmdən dirəxşan,
Könlümdəki nəyyiri-məhəbbət!

Ey sevgilim, ey misali-huri!
Sən füshəti-qəlbimi qıl imla;

Dəryayi, səmayi, qəlbi, ruhi,
Həp yakmada nari-eşqü sövda!

Əncüm - ulduzlar
Tolu - dolu
Nəcmü dürri-sövda - sevda dürrünün ulduzları
Bəhr - dəniz
Payan - son
Dirəxşan - parlayan
Nəyyir - nurlu
Füshəti-qəlb - qəlb genişliyi
Nar - atəş, od

*26 noyabr 1906, №3*

# GÖY CİSMLƏRİ

**Samir Rzasoy**
*samir_rzasoy@box.az*

Buludsuz gecələrin birində səmaya baxsaq, ulduzları, ayı və s. görəcəyik. Amma biz fərqinə varmadan keçmişə səyahət edirik. Soruşacaqsınız niyə? Çünki ulduzlar bizdən çox uzaqdırlar (Bir neçə hətta milyonlarla işıq ili məsafədə). İşıq ili - işığın bir ildə getdiyi yoldur. (İşığın sürəti 300000 km/saniyə-dir). Bu o deməkdir ki, ulduzun işığı bizə gəlib çatana qədər neçə-neçə illər keçir. Əgər hər-hansı bir ulduz bizdən 100 işıq ili uzaqlıqdadırsa, biz onun 100 il əvvəlki vəziyyətini görürük. Həmin ulduz sönsə, biz onun söndüyünü 100 il sonra biləcəyik.

Göy cisimləri müəyyən qrup yaradırlar. Bürclər – bir neçə ulduzdan ibarət olub, müəyyən fiqur üzrə düzülmüşlər. Məsələn: Böyük ayı, Əkizlər və s. 88 bürc var. Onlardan 12-si zodiak bürcüdür. Yəni astrologiyada istifadə olunur. Qalaktikalar isə çox böyük sistemdir. Onlar ulduzlardan, planetlərdən, meteoritlərdən və s. ibarətdir. Bizim sakini olduğumuz qalaktika Samanyolu qalaktikasıdır. Günəş sistemi bu qalaktikanın kənarında yerləşir. Günəş sistemi 8 planetdən, onların peykindən, meteoridlərdən və s. ibarətdir. Son vaxtlara qədər 9 planet var idi. Lakin 2006-cı ildə ən uzaq planet olan Pluton Kiçik Planet Mərkəzinin qərarı ilə meteorit hesab edilərək 134340 adlandırıldı.

Quyruqlu ulduzlar (kometlər) buz (su və donmuş qazlar) və ( Günəş sisteminin əmələ gəlməsi prosesində hansısa bir səbəb üzündən planetlərdə qərar tuta bilməyən) kosmik tozdan ibarətdir. Onlar Günəşə yaxınlaşarkən görünür. Kometlərin çoxu həvəskar astronomlar tərəfindən kəşf olunmuşdur. Kometlər Günəşin yaxınlığından təxminən 500 dəfə keçdikdən sonra quyruqlarını itirərək asteroidə bənzər bir şəkil alırlar. Orbiti günəşə yaxınlaşan kometlərin günəş və planetlərlə toqquşma, bəzən isə planetlərin yaxınlığından keçərsə (xüsusilə Yupiterin yaxınlığından keçərsə), günəş sisteminin xaricinə atılma ehtimalı var. Ən məşhur komet Halleydir. Bu komet Çin mənbələrinə görə eramızdan əvvəl 240-cı ildən bəri tanınır. Yaxın keçmişdə görülən kometlər – 1994-cü ildə Yupiterlə toqquşan SL (Someyker-Levy), 1997-ci ildə adi gözlə görünən Heyl-Bop və 2002-ci ildə görülən İkaye Zanq kometləridir.

Asteroidlər (meteoritlər) onlar müəyyən orbit (yol) üzrə hərəkət edirlər. Planetlər üçün təhlükə mənbəyidirlər. Diametri 1 km-dən çox olan meteoridlər ən böyük təhlükə mənbəyidirlər. Bu meteoritlər 1 materiki tamamilə məhv edə bilərlər.

Ulduzlar özlərindən işıq saçan, çox isti və nəhəng səma cisimləridir. Ən isti ulduzlar mavi, ən soyuq ulduzlar isə qəhvəyi rəngdədir. Bizim Günəş orta ölçülü sarı ulduzdur. Onun səthində 6000 dərəcə, daxilində isə 2 milyon dərəcə istilik var. Ulduzlar əsasən hidrogen, helium, oksigen və karbondan ibarətdir. Onların daxilində hidrogenin heliuma çevrilməsi reaksiyası gedir. Ulduzun həyat müddəti onun ölçüsündən asılıdır. Cırtdan və orta ölçülü ulduzlar bir neçə milyard il yaşadığı halda, nəhəng ulduzlar 1 milyard ildən çox yaşamır. Ulduzlar yaşama müddəti ərzində həmişə eyni bir ölçüdə olurlar. Buna səbəb ulduzu daima çökməyə məcbur edən cazibə qüvvəsi ilə istilik reaksiyaları prosesində sərbəstləşən enerjidən yaranan və maddəni bayıra doğru itələyən təzyiq qüvvəsinin tarazlıqda olmasıdır. Əgər ulduzun kütləsi 1;4 günəş kütləsindən çox deyilsə, həmin ulduz son nəticədə əvvəl ağ cırtdan ulduza, sonra isə qəhvəyi rəngli ulduza çevrilir. 1928-ci ildə gəmi ilə İngiltərəyə fizika üzrə doktorluq müdafiəsinə gedən Hind alimi Çandrasekar (1910-1995) öz kayutuna qapanaraq çox maraqlı bir kəşfə imza atdı: "Əgər ulduzun kütləsi Günəş kütləsinin 1,5 misli və daha çoxdursa, bu ulduz ağ cırtdandan dəfələrlə çox kiçilə bilər" 20 milyon dərəcə istiliyə malik olan nəhəng ölçülü ulduzların daxilində dəmir, kobalt və s. ağır metallar yaranır və daxildə toplanır, yüngül elementlər isə səthdə toplanır. Son nəticədə ulduzun tarazlığı pozulur və ulduz öz içinə çökməyə başlayır. Maddənin tərkibində olan atomlar arasındakı uzaqlıq yox olur. Protonlar (müsbət yüklü hissəciklər) elektronları (mənfi yüklü hissəciklər) ələ keçirir və neytronlara çevrilir. Bu proses üst təbəqələrə keçdikdə ulduz bir neçə saniyənin içində böyük bir partlayışa məruz qalır. Ulduzun bir hissəsi güclü partlayış nəticəsində ayrılır (Bizim geniş istifadə etdiyimiz dəmir bu partlalamaların sonunda kosmosa yayılır, bir neçə müddət sonra isə müəyyən miqdarda hissə müxtəlif yollarla Yer planetinə gəlib çatır). Bu hadisələrin sonunda kiçik diametrli (30 km) ancaq son dərəcə sıx və sürətli bir neytron ulduz qalır. Ancaq mərkəzdə yaranan ağır elementlərdən yaranan mərkəz 3 günəş kütləsindən böyüksə, artıq ulduzun çökməsinə heç bir qüvvə mane ola bilmir və o müəyyən ağırlığa çatana qədər sıxlaşmanı davam etdirir. Və sıxlıq o həddə çatır ki, kütləsi 10 Günəş kütləsi və daha böyük olan bir cismin 60

km-lik diametri olur. Təsəvvürünüzə gətirin, 1 kub santimetrlik həcmdə milyardlarla, hətta trilyonlarla ton kütlə yerləşir. Müqayisə üçün deyək ki, əgər Yer kürəsi ölçüsündə bir ulduz qara dəliyə çevrilə bilsəydi, diametri 2 sm olardı. Qara dəlik termini ilk dəfə fizik Con Veler tərəfindən 1968-ci ildə yazdığı məqalədə işlənmişdir. Ancaq qara dəliklərin təbiətinin öyrənilməsində Alman alimi Eynşteynin "Nisbilik nəzəriyyəsi"nin rolu böyükdür. Qara dəliyin lap mərkəzində geriyə yolu olmayan hadisə üfüqü yerləşir. Qara dəliyin cazibə sahəsinə düşən heç bir şey qaça bilməz, onlar yüksək sürətlə qara dəliyin mərkəzinə doğru gedirlər. Bu müəmmalı obyektlərin öyrənilməsində çətinlik yaradan əsas amil onların görünməməsidir. Çünki işıq buradan xaricə çıxa bilmir. Onları ancaq "ovuna hücum edərkən" yeni hansısa cisim onun maqnit sahəsinə daxil olarkən görmək olur. Astronomlar belə hesab edirlər ki, hər bir qalaktikada qara dəlik var. Son vaxtlara qədər bizim Samanyolu qalaktikası istisna təşkil edirdi. Amma son vaxtlar NASA-nın "Çandra" teleskopu ilə müşahidələr nəticəsində Samanyolunun mərkəzindən heç bir şüa gəlmədiyini gördülər. Və bu nəticə mərkəzdə qara dəliyin olması barədə şübhə yaratdı. Bir müddət sonra Amerikalı və yapon astronomları Çandra teleskopu vasitəsilə Samanyolu qalaktikasında parlaq, lakin qısa sürən bir işıq gördü. Bu qrupun astronomlarından birinin dediyinə görə, "işığın enerjisi 50 günəşin çıxardığı enerjidən çox idi. Buna baxmayaraq 3 saat çəkdi. Həmin yer sonra təkrar qaranlığa qərq oldu". Bu işığın mənbəyi qara dəlik tərəfindən sovrulan ən az günəş böyüklüyündə bir ulduz idi.10 dəqiqə fasilələrlə sönmə əlamətləri göstərən ulduz birdən yoxa çıxdı. Astronomlar belə hesab edirlər ki, Samanyolunun mərkəzindəki qara dəliyin kütləsi 2,5 milyon günəşə bərabərdir.

Qara dəlik tərəfindən udulan cisimlərin taleyi haqqında iki nəzəriyyə mövcuddur. Birinciyə görə onlar yüksək cazibə nəticəsində əzilərək kütləyə əlavə olunur, İkinciyə görə isə həmin cisimlər kainatın başqa bir nöqtəsindən bayıra püskürdülür. Qara dəliklər üzərində 30 ildən çox çalışmış Stefen Havkinq sonda belə bir nəticəyə gəlmişdir ki, udduğu maddəni yox etdiyi hesab edilən qara dəliklərin, milyard illər keçsə belə bəzi maddələri bayıra sızdıra biləcəyi mümkündür.

Bəzileriniz maraqlanacaqsınız Günəş qara dəlik ola bilərmi? Xeyr çünki yuxarıda qeyd etdiyimiz kimi Günəş qara dəlik ola bilmək üçün indiki kütləsinin ən azından 3 qatına sahib olmalıdır. Təqribən 5 milyard il əvvəl doğulan Günəş ömrünün tən ortasındadır. Burada hidrogen hər an heliuma çevrilir. Bu tərzdə gedərsə, hidrogenin 7,5 milyard ilə qədər tükənməsi gözlənilir. Sonra Günəş nəhəng bir qırmızı ulduza çevrilərək Merkuri və Veneranı ağuşuna alacaq. Yarım milyard il sonra ağ cırtdan ulduza dönəcək və onun da sönməsi bir neçə milyard il çəkəcək.

Eyni zamanda qara dəliklər zaman maşını da hesab edilir. Çünki onun daxilindəki hadisə üfüqündə zaman tamamilə dayanmışdır. Ora sanki ətraf mühitdən təcrid olunmuşdur. Bunları dərk etmək bizim ağlımız xaricindədir. Stefen Havkinqin iş dostu Gerri Gibson müsahibələrin birində çox maraqlı ifadələr işlətmişdir: "Əgər bir insan qara dəliyə düşərsə, qara dəlik kiçiksə qısa zamanda hissələrə ayrılır əgər böyüksə ölməyi bir az çəkər, əvvəlcə bədəninin uzandığını görər. Buradan dünyaya baxdıqda zamanın sürətlə getdiyini görər. Yeni dünyanın gələcəyini görər. Əgər qara dəliyə kosmik gəmi göndərsə, həmin gəmi orada bizim zamanımızdan irəli bir zamana keçər. Və biz o aparatla bağlantı qura bilmərik"



# 1918-ci il mart faciəsi

*Vüsal Hicranoğlu*



1918-ci ilin martında Bakıda ictimai-siyasi vəziyyət gərgin idi. Cənubi Qafqazın ən güclü siyasi partiyasına çevrilmiş "Müsavat"ın Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamlı və qətiyyətli mübarizəsi Stepan Şaumyan başda olmaqla Bakı Sovetini ciddi narahat edirdi.

Fevral inqilabından sonra leqal fəaliyyətə başlayan Müsavat Partiyası 1917-ci ilin oktyabrında Bakı Sovetində keçirilən seçkilərdə Bolşeviklərə nisbətən 2,5 Daşnaklara nisbətən isə 18 dəfə çox səs almışdı. Bundan qısqanan digər partiyalar, xüsusən Bolşeviklər və Daşnaklar "Müsavat"a qarşı vahid cəbhə yaratdılar.

Rusiyada oktyabr çevrilişindən sonra Bakı Sovetində çoxluq təşkil edən Bolşeviklər hakimiyyəti ələ aldılar. Stepan Şaumyan başda olmaqla Bakı Soveti Qırmızı Qvardiya dəstələri yaratdı. Dünya müharibəsi cəbhələrindən qayıdan 5 min əsgəri qvardiya sıralarına göndərdilər. Beləliklə 10-12 minlik ordu təşkil edildi ki, bunun da 70 faizi ermənilərdən ibarət idi. Bütün bu qüvvələr "əksinqilabi" qüvvə kimi qələmə verilən Müsavat Partiyasına, azərbaycanlılara, müsəlmanlara qarşı çevrilmişdi. Erməni Bolşevik N. Əsriyans sonralar öz xatirələrində yazırdı:

"...Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, biz hücum edib "Müsavatın qərargahını tutaq və belə də oldu". 1918-ci ilin yanvar ayında Müsəlman korpusunun komandanı general Talışinskinin Bakıda həbs olunması şəhərin azərbaycanlı əhalisini ciddi narahat etdi. Bu zaman erməni daşnakları şəhərin müsəlman əhalisi ilə bolşeviklər arasında silahlı toqquşma yaratmaq istədilər. Azərbaycanın siyasi xadimləri və ziyalılarının səyi ilə toqquşmanın qarşısı alındı.

Erməni millətçiləri hər vechlə rus əsgərləri arasında yerli əhaliyə qarşı nifrət ruhunda təbliğat aparır, milli barışığa mane olmağa çalışırdılar.

1918-ci il mart ayının 15-də Şaumyan Bakı sovetinin iclasında: "Bakı Soveti cənubi qafqazda vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir" – deyərək, əslində azərbaycanlıların soyqırımına başlamağa göstəriş verdi. Bunun üçün bəhanə olaraq "Evelina" münaqişəsi törədildi. Martın 24-də şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisi tərk-silah edildi. Bakı Sovetinin min cür şayiələrə əsaslanıb müsəlman zabitlərini Lənkarana aparan "Evelina" gəmisini tərksilah etməsi şəhərin müsəlman əhalisi arasında həyacana səbəb oldu. Onlar silahların qaytarılmasını tələb etdilər. Bu, 1918-ci il 30 mart – 1 apreldə Bakıda Azərbaycanlılara qarşı törədilmiş soyqırımı üçün siqnal oldu. Məhəmməd Əmin Rəsulzadə alınmış silahların Hümmət təşkilatı vasitəsilə qaytarılması barədə razılığa nail olsa da, bolşevik-daşnak hökuməti öz vədlərinə əməl etmədi: Martın 30-da döyüşlərə rəhbərlik etmək üçün Bakı Sovetinin inqilabı müdafiə komitəsi yaradıldı. Bakının ayrı-ayrı yerlərində azərbaycanlıların əleyhinə kütləvi mitinq və yığıncaqlar keçirməyə başladılar. Bu ərəfədə öz bitərəfliyini elan etmiş Daşnaksutyun Partiyası və erməni milli şurası Bakı Sovetini müdafiə etdi. Martın 30-da saat 16:40 dəqiqədə erməni kilsəsi yanında toplaşan daşnak dəstəsi müsəlmanlara ilk atəş açdı. Martın 31-də səhər çağı bolşevik-daşnak dəstələri azərbaycanlıların yaşadığı "Kərpicxana", "Məmmədli" və digər məhəllələrə hücuma keçdilər. Bu məhəllələr havadan təyyarələr, dənizdən hərbi gəmilər tərəfindən bombalanmağa başlandı. Ermənilər rus matroslarını içəri şəhərdə azərbaycanlıların rusları qırmasına inandırmışdılar. Lakin matroslar nümayəndə heyəti göndərib bunun təxribat olduğunu bildikdən sonra atəşi dayandırdılar.

Qeyri-bərabər döyüşdə soyqırıma məruz qalan müsəlmanlar martın 31-də müqaviməti dayandırdılar. Erməni millətçiləri şəhərin dinc müsəlman əhalisinə divan tutdu.

Nəriman Nərimanov yazırdı: "Müsəlman hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə müsəlman olmağın kifayətdir."

Mart faciəsinin canlı şahidi olan S.C. Pişəvəri həmin hadisəni aşağıdakı kimi xarakterizə edirdi:

"Mən 1918-ci ilin mart ayında daşnakların vəhşiliklərini, saysız-hesabsız günahsız adamların öldürülüb, karvansaralarda meyitlərin yandırılmasını öz gözümlə görmüşəm. Bu, çox faciəli və nifrətləndirici bir hərəkət olmuşdur." (S.C.Pişəvəri. Seçilmiş əsərləri. Bakı, 1965, səh 398.)

İnqilabi müdafiə komitəsinin azərbaycanlıların ultimatumunu qəbul etdikdən sonra döyüşün dayandırılması barədə göstəriş vermələrinə baxmayaraq müsəlmanların soyqırımı aprelin 2-si gecədən xeyli keçənədək davam etdi. Bolşevik-daşnak birləşmələri azərbaycanlılara məxsus ictimai binaları, məktəbləri mədəniyyət ocaqlarını dağıdır və yandırırdılar.

"Kaspi" mətbəəsini, "Açıq söz" qəzetinin redaksiyasını "İsmailiyyə" binasını (indiki Azərbaycan EA Rəyasət Heyətinin binası) yandırmış, "Təzə pir" məscidinin minarələrini gülləbaran etmişdilər. Soyqırım zamanı təkcə Bakı şəhərində 12 mindən çox azərbaycanlı qətlə yetirilmişdi. Onların törətdikləri bu vəhşiliklər Bakı ilə məhdudlaşmamışdı. Şamaxı, Quba, Kürdəmir, Salyan və Lənkaran qəzalarında da soyqırım davam etdirildi. T.Əmirovun və S.Lalayansın daşnak dəstələri aprelin 3–16-da Şamaxı əhalisinə qanlı divan tutdular. Yerli erməni və rus-malakan kəndlilərinin köməyi ilə daşnaklar tərəfindən 7 mindən artıq dinc azərbaycan əhalisi öldürüldü, 72 kənd dağıldı. S. Şaumyan



törətdiyi cinayətlərə görə S. Lalayansı həbs edilməkdən xilas etmişdi. Aprel ayında Quba qəzasına göndərilən daşnak dəstəsinin komandiri Hamazasp bildirmişdi: "Mən erməni xalqının qəhrəmanı və onun müdafiəçisiyəm.... Mən buraya qayda-qanun yaratmaq və Sovet hakimiyyətini qorumağa gəlməmişəm. Mənə xəzər dənizindən Şahdağadək olan ərazidə bütün müsəlmanları məhv etmək əmri verilmişdir". Onun başçılıq etdiyi daşnak dəstələri Quba qəzasının 122 kəndini yandırdılar. Bakı quberniyasında soyqırım 1918-ci il sentyabrın ortalarına qədər davam etdi. Soyqırım zamanı ümumilikdə 20 mindən çox azərbaycanlı öldürüldü.

1918-ci il aprel ayının 13-də S.Şaumyan V.İ.Leninə ünvanladığı məktubda daşnakların milli qırğında iştirakının bolşeviklər tərəfindən qəsdən təşkil olunduğunu etiraf edirdi: ..."Daşnaksutyunda 3-4 min nəfərlik milli hissələr var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin (daşnakların ) iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdir. Lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verirdik. Bakıda onlar qalib gəlsəydilər Cənubi Qafqaz Rusiya üçün itirilmiş olardı." V.İ. Leninə yazılmış bu məktubda hər iki tərəfdən həlak olanların sayı qəsdən azaldılaraq, onların 3 min nəfərə yaxın olduğu göstərilmişdi.

M.Ə.Rəsulzadə 1918-ci il mart soyqırımını siyasi-milli amil kimi səciyyələndirirdi... "Martın 18-dən 20-nə (köhnə stillə) qədər Bakı türk demokratiyasının qafasında partladılan toplar, müsəlmanlara edilən ədalətsizlik Azərbaycan fikrini daşıyanları, muxtariyyət və istiqlal əqidəsi ilə yaşayanları məhv etmək üçün idi".

İngilis arxivlərini öyrənən türk tarixçisi Salahi Sonyel belə qənaətə gəlib ki, 1918-ci ilin martında 8-12 min azərbaycanlı qətlə yetirilib.

ABŞ tarixçiləri C. və K.Makkartilər də 1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda ermənilərin 8 mindən 12 minədək müsəlmanın öldürdüyünü və şəhərin türk əhalisinin yarısının qaçdığını yazırlar.

Mart soyqırımının qurbanları Dağüstü parkda dəfn olundu və eləcədə 1990-cı il Yanvar faciəsinin qurbanlarıda 1918-ci il 31 mart soyqırımının qurbanlarının uyuduğu torpaqda dəfn olundu . Mart faciəsinin qurbanları ilə 20 Yanvar şəhidlərinin ruhu bu torpaqda birləşdi. Elə o vaxtdan "Dağüstü park" "Şəhidlər xiyabanı" adlandırılmağa başlandı.







# Bilirdim gələcəksən...

Şükran Umud

Vətənimizin ərazisinə təcavüz edən erməni daşnaqları hər vəchlə öz çirkin əməllərini həyata keçirməyə çalışırdı.

Doğma Qarabağımızda qızğın döyüşlər gedirdi, qan su yerinə axırdı. Hər tərəfi atılan mərmilərin, silahların səsi bürümüşdü.

Bəzən elə anlar olurdu ki, mütamadi itgi verilir və bəzəndə geri çəkilmək qaçınılmaz olurdu.

Belə anlardan birində əsgərlər sürətlə arxadakı səngərə çəkilmək məcburiyyətində qaldılar. Əsgərlərdən biri ən yaxın dostunu yanında görməyincə, "görəsən dostum səngərə doğru geri çəkilərkən düşmən tərəfindən vuruldumu?" – deyə narahat oldu. Düşündüyü doğru çıxmışdı. Əsgər yoldaşı döyüş meydanında qalmışdı, nə edəcəyini bilmirdi. Özü səngərdə ikən dostunun döyüş meydanında qalmağına heç cür razı ola bilməzdi. Komandirə yaxınlaşıb, "Cənab komandir", – dedi, "Dostum səngərə doğru geri çəkilərkən düşmənlər tərəfindən vuruldu, icazə verin onu döyüş meydanından səngərə doğru gətirim" Komandir "xeyir olmaz" – "Görmürsən güllələr üzərimizə yağış kimi yağır, ehtimal ki o, dünyasını çoxdan dəyişib. Önə çıxmağın sənin ölümünə səbəb ola bilər. Biz isə çox az qalmışıq. İndi bir nəfər belə bizim üçün çox önəmlidir. Növbəti itgilər bizim məğlubiyyətimizə səbəb ola bilər". Əsgər isə dayanmadan israr edərək komandiri razı salmağa çalışırdı. Nəhayət komandirin "yaxşı elə isə get" sözlərini eşidər-eşitməz sürətlə döyüş meydanına doğru atılıb irəliləməyə başladı. Güllələr yağış kimi yağırdı. Dostuna tərəf yaxınlaşdı və onu arxasına alaraq səngərə doğru süründü.

Komandir vurulmuş əsgərin nəbzini yoxlayıb dostuna dedi: "Sənə demişdim ki, dostun dünyasını çoxdan dəyişib. Çox şükür sənə bir şey olmayıb. İndi de görüm, həyatını təhlükəyə atmağının bir mənası vardımı?" – nəmli gözləri ilə əsgər komandirinə baxıb; "çox mənası vardı" dedi.

"Yanına yaxınlaşarkən son anlarını yaşayırdı. Məni görüb təbəssüm etdi, bir neçə söz deməyə taqəti qalmışdı. Üzümə baxıb əmin bir şəkildə "Gələcəyini bilirdim dostum, gələcəyini bilirdim"...

"Cənab komandir, bu sözlər mənim üçün dünyadakı hər şeyə dəyərdi".

Əziz oxucularımız eynilədə doğma yurdumuz QARABAĞ da vətənsevər ərlərin yolunu gözləyir, çırpınır amma can verir və bizə belə səslənir: BİLİRƏM GƏLƏCƏKSİNİZ....

# İqtisadi inkişaf haqqında mülahizələr



Seymur Şəmiyev

Bütün inkişaf etmiş dövlətlərdə müntəzəm olaraq iqtisadi inkişafın səviyyəsi araşdırılır və təhlil olunur, onun yüksəldilməsi yolları, istiqamətləri axtarılır. Qeyd etmək lazımdır ki, ölkəmizin gələcək iqtisadi inkişafı strategiyasını onun məqsəd və vəzifələrini müəyyən edərək hazırkı vəziyyət, nail olduğumuz səviyyəni hərtərəfli araşdırmaq, yüksək göstəricilər əldə etmək üçün mərhələləri müəyyən etmək və inkişaf etmiş dövlətlərin təcrübəsində qəbul olunan standartlara uyğun proqnozlar verilməlidir. Belə təhlilləri aparmaq ölkənin gələcək iqtisadiyyatı haqqında düşünmək deməkdir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, gələcək iqtisadi inkişafını müəyyən etməyən ölkə həlli problemlər doğuracaq çətinliklərlə üzləşəcək.

İnkişaf etmiş və etməkdə olan ölkələrdə daxili bazarın qorunmasına çox böyük üstünlük verilir. Biz belə bir təcrübədən real şəraitə uyğun istifadə etməliyik. Bu gün daxili bazarda idxalın üstünlük təşkil etməsi yaxşı hal kimi qəbul edilə bilməz. Daxili bazarın qorunması üçün sivil metodlar var və ondan səmərəli şəkildə istifadə etmək lazımdır.

Dövlətimizin gələcək iqtisadi tərəqqisinin ən böyük amili neft faktorudur. Bundan düzgün istifadə bütövlükdə xalqın tərəqqisinə nail olmaq deməkdir. Onu da vurğulamaq lazımdır ki, təbii sərvətlərə malik olmaq hələ tərəqqi demək deyil. Təcrübə göstərir ki, Nigeriya və Anqola kimi neft ölkələrinin bu gün yaşayış səviyyəsi heç də ürəkaçan deyil. Bu qeyd etdiyimiz ölkələrin dövlət mənafelərini üstün tutan strategiyanın və siyasi-iqtisadi vəziyyətin sabit durumda olmamağının nəticəsidir.

Azərbaycana güclü investisiya axını var, bu ilk növbədə neft faktorunun hesabınadır. Bu belə də olmalıdır çünki kapital ilk növbədə mənfəət yüksək olan yerə axır.

Milli iqtisadiyyatımızda dirçəlişə və tərəqqiyə nail olmaq üçün neft gəlirlərindən effektli şəkildə istifadə etmək lazımdır. Dünyada xam neftin qiymətinin tez-tez dəyişməsi prosesi baş verir. Sözsüz ki ölkə üçün neftin qiymətinin aşağı düşməsi arzuolunan deyil. Lakin bu dövlətdən asılı olmayan prosesdir. Bunun üçün də dünyada gedən iqtisadi proseslər nəzərə alınmalıdır, alternativ gəlir mənbələri aşkar edilməlidir. Respublikanın gələcək iqtisadi inkişaf məsələlərinin həlli prosesində neft amili problemlərinə sistemli yanaşılmalıdır və dünya neft siyasətində baş verən meyillər nəzərə alınmalıdır. Ölkənin yanacaq-energetika sahələsi ilə yanaşı digər sahələrin, dövlət mənafelərinə xidmət edən istehsal sahələrinin inkişafı, rəqabətə davamlı məhsul istehsalının artırılması diqqət mərkəzində olmalıdır. Müstəqil dövlətin sənaye siyasətinin düzgün qurulmasına ehtiyac vardır. Bunun yaradılması strateji məqsədlərə xidmət etməlidir. Neft amili bu siyasətin formalaşması üçün çox əlverişli

**Respublikamızın iqtisadiyyatının dirçəldilməsində hamı maraqlı olmalıdır. Çünki iqtisadi inkişaf nəticəsində güclü və hər şeyə qadir dövlət qurulur. Bu isə həm bizə həm də gələcək nəsillər üçün çox vacib məsələdir.**

baza yaradır. Bu gün iqtisadiyyatımızın gücləndirilməsi üçün iqtisadi stimullardan istifadə etmək lazımdır. İnvestisiya fəallığını, özəlləşən müəssisələrin işləmə qabiliyyətlərini artırmaq yolları araşdırılmalıdır. İqtisadiyyatımızın dirçəldilməsi yolunda işgüzar münasibətlərə önəm vermək vacibdir. Lakin bu münasibətlərdə böyük boşluqlar mövcuddur. Daxili bazarın qorunmaması, inkişaf elementi olan bir çox fabrik və zavodların fəaliyyət göstərməməsi iqtisadiyyatımıza çox ciddi zərbə vurur və böyük itkilərlə nəticələnir.

Ölkə iqtisadiyyatının dirçəldilməsində neft hasilatından əldə edilən gəlirdən istifadə edilməsi mühüm amillərdən olmalıdır. Bu faktor ölkə iqtisadiyyatını inkişaf etdirmə proqnozlarının bir neçə variantlarda hazırlanmasına zəmin yaradır.

Əksər sənaye sahələrinin yenidən qurulub inkişaf etdirilməsi çox vacib məsələdir. Hazırda bir çox iri zavodların bəziləri tam gücü ilə işləmir, bəziləri isə fəaliyyətlərini ümumiyyətlə dayandırıb. Vaxtilə bu zavodlarda minlərlə işçi işləyib. Bu gün onların tam gücü ilə işləməsi üçün lazım olan iqtisadi mühit yaradılmalıdır. Bunun nəticəsində isə ölkə də işsizlik problemini aradan qaldıracaqdır.

Respublikanın maşınqayırma müəssisələrinin vəziyyəti bizi düşündürməli, vəziyyətdən çıxma yolları axtarılmalı, yüksəlişə nail olmaq üçün yeni partnyorlar tapılmalıdır.

İqtisadiyyatın inkişafında hər zaman nəqliyyat faktoruna xüsusi önəm vermək lazımdır. İstər ölkə daxili nəqliyyat əlaqələri, istərsə də dövlətlər arası əlaqələr sürətlə inkişaf etdirilməlidir. Bu sahə ölkə iqtisadiyyatının inkişafında çox mühüm rol oynayacaqdır. Çünki məlumdur ki, qədim İpək Yolu bərpa olunur. Bu məqsədlə ölkə üçün çox böyük əhəmiyyət kəsb edən iri-miqyaslı TRASEKA proqramı həyata keçirilir.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin reallaşması ölkəmiz üçün böyük perspektivlərə şərait yaradır. Bu dəhlizin iqtisadi potensialı, gücü, kapital axını iri miqyasa malikdir. Azərbaycan bu dəhlizin mərkəzində yerləşir və iki qitəni birləşdirən bir nöqtədir. Ümumiyyətlə çox əminliklə demək olar ki, bu proqram Azərbaycanın daim beynəlxalq iqtisadi münasibətlərdə inkişafına imkan yaradacaqdır. Bu da iqtisadiyyatımızın artan templə inkişafına öz töhfəsini verəcəkdir.

İqtisadi inkişafın tərkib hissələrindən biri də vergi sistemidir. Maliyyə sisteminin tərkib hissəsi olan vergi sisteminin səmərəli fəaliyyət göstərməsi həm də bütün vətəndaşların iqtisadi rifahının təminat vasitəsidir. Vergi sistemi iqtisadiyyatın qırılmaz həlqəsidir və onun səmərəli qurulması işi taleyüklü məsələlərdəndir. Ümumiyyətlə vergi sistemi səmərəli fəaliyyət göstərən dövlətlərdə maliyyə sabitliyi hökm sürür. Bu da iqtisadi sabitliyi təmin edən əsas amillərdən biridir.

Müasir vergi sistemini qurmaq üçün uzun prosesdən keçmək lazımdır. Səmərəli sistemi qurmaq üçün inkişaf etmiş dövlətlərin bu yolda görülən işlərinə nəzər salmaq, bu təcrübədən istifadə etmək lazımdır.

1980-cı ildə Amerika iqtisadçıları söyləyirdi ki, vergiləri azaltmaqla gəlirlərin artmasına və bunun nəticəsində isə iqtisadi inkişafa nail olmaq olar. Onlar fikirlərini belə əsaslandırırdılar





ki, vergi dərəcələrinin müəyyən bir həddən artıq yüksəldilməsi kapital qoyuluşunu azaldır, elmi-texniki tərəqqinin sürətini aşağı salır, büdcəyə daxil olan gəlirlərə mənfi təsir göstərir, sosial-iqtisadi inkişafı zəiflədir. Vergi sistemində aparılan islahatların sahibkarlıq fəaliyyəti ilə məşğul olan həm fiziki, həm də hüquqi şəxslərə ildən-ilə uğurlu yollar açır, onlara geniş şərait yaradır. Bunun nəticəsi olaraq bu gün iqtisadiyyatımızda özəl sektor durmadan artır və inkişaf edir. Ümumiyyətlə özəl sektorun inkişafı vergi ödəyicilərinin sayının artmasına səbəb olur ki, bu da vergi yükünün azaldılmasına təsirini göstərir. Bu isə böyük perspektivlərə yol açır.

Perspektivlərdən danışarkən Bakı–Tiflis–Ceyhan neft kəmərini xüsusi qeyd etmək lazımdır. Bu kəmərin reallaşması Azərbaycan üçün çox mühüm hadisə oldu. Kəmər vasitəsilə Azərbaycan nefti Avropa və dünya dövlətlərinə nəqli həyata keçirilir. Bu isə ölkəmizin iqtisadiyyatının dünya iqtisadiyyatına sürətlə inteqrasiyasına şərait yaradır. Nəql olunan neft Azərbaycana çox böyük miqdarda gəlirlər gətirəcəkdir. Bu isə iqtisadiyyatımızın inkişafına öz töhfələrini verəcəkdir. Bunu deməyə əsas səbəblərdən biri kimi qeyd etmək lazımdır ki, bu gün neftdən gələn gəlirlər bir yerdə – yəni Dövlət Neft Fondunda cəmlənir. Bu fond vasitəsilə neft sahələri ilə yanaşı qeyri-neft sahələrinin inkişafına vəsaitlər ayrılır.

Bütün bunları nəzərə alaraq demək olar ki, Azərbaycanın çox böyük gələcəyi var. Çünki ölkəmiz artıq inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salaraq yaradılmış elmi potensialını, neft və digər təbii sərvətləri və s. özündə cəmləşdirən iqtisadi modelini ildən-ilə formalaşdırır.

Respublikamızın iqtisadiyyatının dirçəldilməsində hamı maraqlı olmalıdır. Çünki iqtisadi inkişaf nəticəsində güclü və hər şeyə qadir dövlət qurulur. Bu isə həm bizə həm də gələcək nəsillər üçün çox vacib məsələdir.

# Tar

Mikayıl Müşfiq

Bir hissə

Oxu, tar, oxu, tar!...
Səsindən ən lətif, şeirlər dinləyim.
Oxu, tar, bir qədər!..
Nəğməni su kimi alışan ruhuma çiləyim.
Oxu, tar!
Səni kim unudar?
Ey geniş kütlənin acısı, şərbəti –
Alovlu sənəti!

Gözləri qibləyə açılan hasarlı binalar.
Dinləmiş əzəldən səsini.
Papaqlı atalar, çadralı analar.
Ötürmüş sayəndə köksünü.
Düşmüşlər gah şirin, gah acı toruna.
Sevinə-sevinə, qoruna-qoruna.

Çarparaq çargahın divardan-divara
Yolçunu yolundan eyləmiş avara.
Çalxalanmış dərələr, təpələr.
Səs vermiş səsinə ləpələr.
Oxu, tar, fikrimdə oyansın
Baharın, Seyidin qəzəli:
Oxu, tar, ruhlansın
Şirvanın, Gəncənin mehriban gözəli!
Damağdan düşənlər,
Ürəyi şişənlər,
İlk bahar seyrinə çıxmayan.
Özünü dağların döşünə yaxmayan
Sinəsi dağlılar.
Vəfasız bir eşqin dağnıq zülfünə bağlılar
Dəxilin olmuşlar,
Qapında təsəlli bulmuşlar.
Zilin var, vəsətin, bəmin var:
Sənin də quşların dəmindən ayrılan
Bir özgə dəmin var,
Səni də avara eyləmiş
Dağınıq telli bir "zərəfşan".
Onunçun segahın danışır
Pərişan, pərişan.

Səsini dinləmiş
Şahların, xanların sarayı;
Səninlə birlikdə inləmiş
Əsirlər alayı.
Bəzən də simlərin qəmləri ovutar,
Olardın onların sirdaşı
Sən ey tar!..



۲۰۰۷، ۳(۳۵)

ادبی فنی سیاسی اجتماعی مصور هفته لك تركجه مجموعه اسلامیهٔ در

# فیوضات

وطن (آذربایجان) سوگیسی یوردومون
داغلارندا، اوبالارندا، مشلرینده گزن هر بر
چوبا نین، اکینچینین، اودونچونون...
آلین تری ایله چورکینی قازانان هر بر
کاسبین، هر بر کورکچینین، کورکچی
اوغلونون قلبینده گذلنن آتشدر.

ع. حسین زاده